AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Jurnal 1970-ci ildən nəşr olunur.

2013, №4 (205)

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

(elmi-metodik jurnal)

4
2013

## REDAKSİYA HEYƏTİ

Baş redaktor: **prof.Y.Ş.Kərimov**

| | |
|---|---|
| **Aydın Əhmədov** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin kənd rayonları üzrə ümumi təhsil şöbəsinin müdiri* |
| **~~Faiq Şahbazlı~~** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin dərslik və nəşriyyat şöbəsinin müdiri* |
| **~~Arif Muradov~~** | *Azərbaycan Respublikası Təhsil Muzeyinin direktor müavini* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəbəqədər təhsil sektorunun müdiri* |
| **Asəf Zamanov** | *Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru,professor* |
| **Vaqif Əmiraslanov** | *Bakı Sosial-Pedaqoji Kollecinin direktoru, tarix üzrə fəlsəfə doktoru* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun məktəbəqədər və ibtidai təhsil şöbəsinin müdiri, pedaqoji elmlər doktoru,professor* |
| **Ramiz Əliyev** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun psixologiya və yaş fiziologiyası şöbəsinin müdiri, psixologiya elmləri doktoru, professor* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Müəllimlər İnstitutunun ibtidai təhsilin metodikası kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, professor* |
| **~~Azadxan Adıgözəlov~~** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqoji elmlər doktoru, professor* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent* |
| **Zemfira Əsədova** | *Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini* |
| **Bibixanım İbadova** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun ibtidai təhsil kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru* |
| **Könül Həsənova** | *Nəsimi rayonu, 111 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi* |
| **Xalidə Talıbova** (məsul katib) | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru* |



Yığılmağa verilmiş 25.10.2013. Çapa imzalanmış 25.11.2013.
Kağız formatı 70x100 1/16. Şərti çap vərəqi 6.
Sifariş№ 16. Tiraj 1000. Qiyməti 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: AZ 1010. Bakı, Zərifə Əliyeva küçəsi, 40.
Tel. 493-84-41, mob. (050) 370-60-11.

«RS Poliqraf» MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı, A.Məmmədov , 113.

# MÜNDƏRİCAT

## *Yeni pedaqoji texnologiyalar*


Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası ....................4
**İbrahimova A.** Fəal dərsin təşkilinə dair ....................18
**Əliyeva A.** İbtidai siniflərdə informatikanın tədrisi imkanları ....................25
**Əliyeva R.** Müasir dərsin xüsusiyyətləri ....................28


## *Məktəbəqədər təhsil*


**Şirzadova M.** Xalq pedaqogikasında körpə uşaqların tərbiyəsi məsələləri ....................35
**Asadova З.** Преемственность дошкольного и школьного обучения детей ....................38
**Məmmədova X., Əsgərova A.** Müstəqillik uşaqların özünütəşkilinin formalaşmasının komponenti kimi ....................41


## *Fənlərin tədrisi və qabaqcıl təcrübə*


**Соболева Т.** Характристика важнейших особенностей русской диалогической речи ....................46
**Məmmədov T.** Həndəsi mövzuların tədrisində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ....................53
**Savalanzadə Y.** IV sinifdə "Çoxmənalı sözlər" mövzusunun tədrisi ....................59
**İsmayılova G.** Musiqi məşğələlərində musiqili-didaktik oyunların rolu ....................61
**Məmmədbəyov N.** Təsviri incəsənət dərslərinin təşkili ....................64


## *Ümumi pedaqoji məsələlər*


**Cəfərova N., Quliyeva Ş.** Müəllimlik məsuliyyətli peşədir ....................67
**Məmmədova K.** Diqqət : istedadlı uşaqlar ....................71
**Cəfərova V.** İbtidai siniflərdə şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə qeydiyyatın aparılması yolları ....................82
**Talıbova X.** Kiçikyaşlı məktəbli şəxsiyyətinin formalaşması özünütəsdiqin əsas şərti kimi ....................85
**Pirməmmədova T.** Şəxsiyyətin formalaşmasında ünsiyyətin rolu ....................89


## *Sizin kitab rəfiniz*


İşıq məbədi ....................94
İbtidai siniflərdə riyaziyyat fənninin tədrisi metodikası məsələləri (I kitab) ....................94
"Şən yolka" mahnısı ....................95

# YENİ PEDAQOJİ TEXNOLOGİYALAR

## Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası

**Azərbaycan Respublikası Prezidentinin
2013-cü il 24 oktyabr tarixli Sərəncamı
ilə təsdiq edilmişdir.**

### 1. Məzmun

Son illər aparılan sosial-iqtisadi siyasət nəticəsində ölkədə yüksək inkişafa nail olunmuş, əhalinin maddi rifahı xeyli yaxşılaşmış, yoxsulluğun səviyyəsi minimuma enmiş və Azərbaycan Respublikası orta gəlirli ölkələr sırasında yer tutmuşdur.Gerçəkləşdirilən islahatlar və geniş miqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı inkişafı üçün şərait yaratmışdır. Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir.

Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir.Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir.

Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş təd-

birlər həyata keçirilmişdir. Həmin məqsədlə müxtəlif şəhər və rayonlarda 2500-ə yaxın məktəb binası tikilmiş və mövcud təhsil obyektlərində əsaslı təmir-bərpa işləri uğurla aparılmışdır.Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənmişdir.

Qeyd olunanlarla yanaşı, sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (bundan sonra – Strategiya) Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur.

**Birinci strateji istiqamət** səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

**İkinci strateji istiqamət** təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.

**Üçüncü strateji istiqamət** təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

**Dördüncü strateji istiqamət** müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təmi-

natlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir.

**Beşinci strateji istiqamət** Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət, o cümlədən, müxtəlif mənbələrdən istifadə olunmaqla təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur.

## 2. Təhsil sahəsində beynəlxalq təcrübə və meyillər

**Təhsilin sosial-iqtisadi rolu.** Yüksək təhsil səviyyəsinə malik peşəkar kadrlar ölkənin intellektual potensialının əsasıdır. Müasir dövrdə ölkələrin uğurlu və davamlı iqtisadi yüksəlişi insan kapitalının məqsədyönlü inkişafı hesabına əldə edilmişdir. Bütün bunlar təhsilin dövlət xərclərində prioritetliyini getdikcə artırmaqdadır. Dövlətin təhsil xərcləri cəmiyyət üçün yüksək iqtisadi gəlirliyə malikdir.

Müasir dövrdə təhsilin iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artmışdır. Hazırda təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqların aşılanması ilə bərabər, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlığı kimi vəzifələri yerinə yetirməlidir. İnsanın ömür boyu təhsil almaq tələbatının ödənilməsi isə təhsilin iqtisadi həyatda rolunu yüksəldən amillərdən ən mühümüdür.

Eyni zamanda, sürətli texnoloji tərəqqi bilik və bacarıqların müntəzəm yenilənməsini tələb edir. Bu isə yeni və daha münasib ixtisasa yiyələnməyə və səriştənin inkişafına tələbatı artırır.

**Təhsilin keyfiyyəti və əhatəliliyi.** Orta gəlirli ölkələr arasında rəqabətin güclənməsi, sürətli texnoloji irəliləyiş nəticəsində ixtisas profillərinin tez-tez dəyişməsi təhsilin keyfiyyətinə tələbi daha da artırmışdır. Digər tərəfdən, yalnız təhsilə cəlb etmə səviyyəsinin artırılması və təhsil infrastrukturunun genişləndirilməsi insanların bilik və bacarıqlarının yüksəlməsinə tam təminat vermir. Təhsil infrastrukturu zəruri amil olsa da, bilik və bacarıqlar təhsil müəssisələrinin sayı və təhsilin müddəti ilə deyil, öyrənmə prosesinin keyfiyyəti ilə əldə olunur. Son dövrlərdə bir sıra ölkələr tərəfindən təhsilin inkişafı məqsədi ilə təhsil infrastrukturuna, həmin infrastrukturun yeni avadanlıqlarla təchizatına xeyli vəsait xərclənsə də, həmin ölkələrdə təhsilin nəticələrində müsbət irəliləyiş əldə edilməmişdir. Ümumi təhsil pilləsini bitirməsinə baxmayaraq, hesab, oxu və yazı vərdişlərinə malik olmayan çoxlu sayda insanlar vardır. Həmin səbəblərdən təhsilin keyfiyyətinin təminatı başlıca strateji prioritetə çevrilməlidir.

Təhsilin keyfiyyətinə və əhatəliliyinə qoyulan yeni tələblər təhsil sistemi anlayışına baxışı da yenilənmişdir. Müasir təhsil sistemi formal (dövlət təhsil sənədinin verilməsi ilə başa çatan) təhsil forması ilə yanaşı informal (özünütəhsil you ilə biliklərə yiyələnmə) və qeyri-formal (müxtəlif kurslarda, dərnəklərdə və fərdi

məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan) təhsil formalarını da nəzərdə tutmuşdur.

Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur.

Bir çox qabaqcıl ölkələrdə təhsil müddətinin tədricən artırılması istiqamətində addımlar atılır. Kanada, Fransa, Hollandiya və Çexiyada ümumi təhsilin müddəti 14 il, Almaniya, Böyük Britaniya, İsveç, Avstraliya və Yeni Zelandiyada 13 il, ABŞ, Finlandiya, Cənubi Koreya, Polşa və bir sıra digər ölkələrdə isə 12 il təşkil edir. Ümumi təhsil müddəti az sayda ölkədə on bir il təşkil edir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatına görə, hər hansı ölkədə istənilən təhsil pilləsi üzrə təhsil müddətinin bir il artırılması ölkədə Ümumi Daxili Məhsulun 3-6 faiz artımına gətirib çıxarır.

**Təhsilin məzmunu.** Beynəlxalq təcrübədə təhsilin məzmunu ilə bağlı başlıca meyillərdən biri təhsil kurikulumlarının ölkənin sosial-iqtisadi inkişaf tələbləri və prioritetləri ilə sıx əlaqələndirilməsindən ibarətdir. Kurikulumlar iqtisadi inkişaf məqsədlərinə xidmət edən bilik və bacarıqları, səriştəni aşılayan məzmuna malik olmalıdır. İqtisadi uğurlar əldə etmiş ölkələrdə biliklərə əsaslanan iqtisadiyyatın yaradılması sosial-iqtisadi siyasətin prioriteti olduğundan, kurikulumlarda innovasiyaların əhəmiyyəti, təhsilalanların müxtəlif sosial fəaliyyətə təşviq olunması və onların tədris bacarıqlarının inkişafı xüsusi vurğulanır.

Son 30-40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir.Səriştə əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir.

Kurikulumların məzmunu texnoloji irəliləyişin gətirdiyi yenilikləri nəzərə almaqla daim inkişaf etdirilir ki,bu da müxtəlif təhsil pillələrində spesifik yanaşma tələb edir. Burada ümumi təhsil pilləsində şəxsiyyətin hərtərəfli formalaşdırılması prioritet olduğu halda, ali təhsildə əmək bazarının cari və gələcək tələbləri əsas götürülür. Ali təhsil kurikulumunun daimi inkişafı əmək bazarı subyektlərinin tələblərinin sistematik öyrənilməsini vacib edir. Bu proses əmək bazarında iş təklif edən, istər dövlət, istərsə qeyri-dövlət sektorunda fəaliyyət göstərən bütün subyektləri ali təhsil prosesində başlıca maraqlı tərəfə çevirmişdir.

**Müəllim və tədris metodikaları.** Müəllim amili təhsilalanın öyrənməsi və inkişafı, nailiyyətlərinin monitorinqi prosesində həlledici rol oynayır. Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli

asılıdır.Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur.

Bilik və bacarıqlarını davamlı artıran müəllimlər təhsilalanların nailiyyətlərinə əlavə töhfə verirlər. Peşəkarlığa əsaslanan stimullaşdırıcı əmək haqqı sisteminin olmaması, təhsil müəssisəsi səviyyəsində idarəetmənin qeyri-effektivliyi, müəllim hazırlığı üzrə infrastrukturun zəif olması müəllim amilinə təsir edən amillər sırasındadır. Bu baxımdan təhsil islahatı uğurla aparılan ölkələrdə müəllim peşəkarlığının inkişafı üçün stimulların yaradılmasına və müəllim hazırlığının təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir.

Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə, davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutur.

**İdarəetmə.** Təhsil sahəsində idarəetmə islahatlarının başlıca istiqamətlərini təhsil prosesinin iştirakçıları arasında münasibətlər sisteminin, eləcə də tənzimləmə orqanlarının funksiyaları, səlahiyyətləri və cavabdehliyinin dəqiq müəyyən olunması, təhsil müəssisələrinin idarəetmə səlahiyyətlərinin və təhsilin nəticələrinə görə cavabdehliyinin artırılması, fəaliyyətin monitorinqi və qiymətləndirilməsi, təhsilin keyfiyyətini ölçən göstəricilər sisteminin təkmilləşdirilməsi, təhsilin maliyyələşdirilməsinin onun keyfiyyətinə yönəldilməsi, adambaşına maliyyələşdirmə mexanizminin tətbiqi və bu zəmində stimullaşdırıcı mexanizmlərin gücləndirilməsi, habelə maliyyələşmə mənbələrinin yetərliyinin təmin edilməsi təşkil edir.

İnkişaf etmiş ölkələrin təcrübəsindən aydın olur ki, təhsildə idarəetmənin ictimailəşməsi prosesi sürətlənməkdədir. Təhsil strategiyasının uğurla həyata keçirilməsində və təhsilin keyfiyyətinin dayanıqlı yüksəlişində maraqlı tərəflərin cəlb olunmasını təmin edən səmərəli idarəetmə mühüm rol oynayır. Bu, ilk növbədə, bütün növ təhsil müəssisələrinin müstəqilliyinin artırılmasını, valideyn, şagird, tələbə və təhsil prosesinin digər iştirakçılarını geniş cəlb etməklə təhsil ocaqlarının idarə olunmasını, nəticəyönlü menecmentin və digər müasir idarəetmə texnologiyalarının prosesə tətbiqini tələb edir.

Qloballaşma prosesləri müxtəlif dövlətlərin təhsil sistemlərinin inteqrasiyasını şərtləndirir. Hədəflər kimi Avropa Şurası tərəfindən tövsiyə edilmiş kompetensiyalar qrupu əsas götürülür. Artan tələbə-müəllim mübadiləsi nəzərə alınaraq, təhsil standartlarının unifikasiyası məqsədi daşıyan Bolonya prosesi sürətlənir. Ali təhsildə özəl sektorun rolu tədricən güclənir, dövlət maliyyələşdirilməsi özəl sektorun maliyyəsi ilə əvəzlənir. Dövlət maliyyələşdirməsinin həcmi Almaniya, Avstriya və İtaliyada 90 faiz olduğu halda ABŞ, Avstraliya, Yaponiya və Kanadada cəmi 50-70 faiz təşkil edir.

## 3. Azərbaycan Respublikasında təhsilin vəziyyəti

Son illər ərzində Azərbaycan Respublikasında təhsilin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir. Həyata keçirilən dövlət proqramları çərçivəsində ölkənin bütün regionlarında ümumi təhsilin infrastrukturu əhəmiyyətli şəkildə yenilənmişdir. Ölkədə təhsilin müasir tələblərə cavab verən normativ hüquqi bazası yaradılmışdır. Ali təhsildə Bolonya Bəyannaməsindən irəli gələn başlıca prinsiplərin tətbiqi, təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, təhsil infrastrukturunun yenilənməsi, dərsliklə təminatın yaxşılaşdırılması, ucqar kənd məktəblərinin pedaqoji kadr təminatı, məktəbəqədər və peşə təhsili xidmətlərinin müasir tələblər səviyyəsində qurulması məqsədi ilə dövlət proqramları qəbul edilmiş, layihələr həyata keçirilmişdir.

Aparılan dövlət siyasətinə uyğun olaraq təhsilə ayrılan dövlət xərcləri yalnız son beş ildə 1,3 dəfə artmışdır. Bununla yanaşı, Azərbaycanda insan kapitalının inkişafı üzrə yeni uzunmüddətli çağırışlar təhsil sahəsinin maliyyələşdirilməsində mühüm tədbirlərin həyata keçirilməsini zəruri edir.

**Təhsilin keyfiyyəti və əhatəliliyi.** Birləşmiş Millətlər Təşkilatının 2010-cu il üzrə İnsan İnkişafı Hesabatına əsasən, 2005-ci illə müqayisədə Azərbaycan 34 pillə irəliləyərək 169 ölkə arasında 101-ci yerdən 67-ci yerə yüksəlmiş, "orta insan inkişafı" qrupundan "yüksək insan inkişafı" qrupuna daxil olmuşdur. Azərbaycan iqtisadi inkişaf tempini sürətləndirərək yoxsulluğun azaldılması və orta ömür uzunluğu göstəricisinin artması baxımından böyük nailiyyətlər əldə etmişdir.

Bununla yanaşı, aparıcı beynəlxalq təşkilatların statistik təhlilləri Azərbaycan təhsilinin beynəlxalq rəqabətə davamlılıq göstəricilərinin və Azərbaycan Respublikasının ərazisində yerləşən ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsinin zəruri olduğunu göstərir.

Ümumi təhsil müəssisələrinin şagird və məzunlarının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aktual məsələlərdəndir.

Ali və ümumi təhsil üzrə dərsliklərin elmi və metodiki baxımdan təkmilləşdirilməsinə ehtiyac vardır.

Ali təhsil müəssisələri məzunlarının tərkibi iqtisadiyyatın tələbatları ilə tam uzlaşmır. Azərbaycanın ali təhsil müəssisələri tələbələrinin yalnız 1,2 faizi kənd təsərrüfatı ixtisasları qrupu üzrə təhsil alır. 25-34 yaş arasında olan ali təhsilli mütəxəssislərin 67 faizi dövlət sektorunda cəmlənmişdir. Özəl sektorda ixtisaslı işçi qüvvəsinin çatışmazlığı problemi yaranmışdır. Ən böyük kadr çatışmazlığı xidmət sektorunda və kənd təsərrüfatı sahəsində müşahidə olunur.

Hər 100 000 nəfərə düşən ali məktəb tələbələrinin sayına görə Azərbaycan Respublikası üzrə göstəricilər əhəmiyyətli dərəcədə artırılmalıdır. Əhali təbəqələri və regionlar arasında xüsusən ali təhsilə çıxış imkanları genişləndirilməlidir.

Son illərdə ilk peşə-ixtisas təhsili müəssisələri infrastrukturunun inkişafı sahəsində işlər görülmüş, özəl sektor, işəgötürənlər və beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurulmuşdur. Qeyd olunanlara baxmayaraq, bu sahədə həlli

vacib olan ciddi problemlər hələ də qalmaqdadır. İlk peşə-ixtisas təhsili müəssisələrini bitirən şəxslərin sayı iqtisadiyyatın tələbatı ilə üst-üstə düşmür. Son illər ümumi təhsil müəssisələrini bitirən məzunların yalnız 11 faizinin ilk peşə-ixtisas təhsili müəssisələrini seçməsi, ümumilikdə həmin pillədə təhsilalanların cəmi 25-27 min nəfər təşkil etməsi əhalidə ilk peşə-ixtisas təhsilinə marağın aşağı olduğunu göstərir.

Məktəbəqədər təhsilə cəlb olunma səviyyəsi də aşağıdır. Belə ki, məktəbəqədər təhsillə əhatə səviyyəsi şəhərlərdə 23,4, kəndlərdə 8,7, ölkə üzrə isə 16,5 faiz təşkil edir. Son illərdə Bakı şəhərində yeni məktəbəqədər təhsil müəssisələrinin inşası və ya əsaslı təmiri istiqamətində atılan addımlar nəticəsində məktəbəqədər təhsillə əhatə səviyyəsi artaraq 27 faizə çatsa da, bu sahədə həllini gözləyən problemlər qalmaqdadır. Ölkənin yaşayış məntəqələrinin 75 faizində məktəbəqədər təhsil müəssisəsi yoxdur.

**Təhsilin məzmunu.** Ümumi təhsilin dövlət standartları və proqramları "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsdiq edilmişdir. Həmin istiqamətdə yeni fənn kurikulumları və dərsliklər ümumi təhsilin I-VI siniflərində tətbiq edilir, VII-XI siniflərində isə həmin məqsədlə işlər davam etdirilir. Məktəbəqədər təhsil üzrə yeni kurikulumun tətbiqinin sürətləndirilməsi zəruridir.

İlk peşə-ixtisas və orta ixtisas təhsili kurikulumları müasir tələblərə cavab vermir. Müəllim hazırlığı üzrə yeni kurikulumlar tətbiq edilsə də, ümumilikdə ali təhsil müəssisələrinin kurikulumları əmək bazarında işçi səriştəsinə olan tələblərlə uyğun gəlmir. Ali təhsil pilləsində kurikulumların inkişafı iqtisadiyyatın inkişaf dinamikasından geri qalır.

**Müəllim və tədris metodikaları.** Səriştəyə əsaslanmayan, əmək bazarında yetərincə rəqabətli olmayan əmək haqqı sistemi və maddi stimullaşdırma mexanizmlərinin adekvat olmaması təhsildə müəllim amilinin inkişafına mənfi təsir göstərmişdir. Təhsil sisteminin bütün pillələrində müəllimlərin bilik, bacarıq və peşəkarlıq qabiliyyətləri müasir tələblərə uyğun yüksəldilməlidir. Müvafiq stimullaşdırıcı mexanizmlər və səmərəli monitorinq sistemi vasitəsilə müəllim fəaliyyətinin keyfiyyəti artırılmalıdır.

Son illərdə müəllimlərin əlavə təhsili sahəsində modul-kredit sisteminə əsaslanan, rəqabət mühiti yaradan, stimullaşdırma və karyera inkişafını nəzərə alan yeni modelin tətbiqinə başlanmış, fəal interaktiv təlim texnologiyaları təcrübədən keçirilmişdir. Bununla yanaşı, əksər müəllimlərin tədris prosesində tətbiq etdiyi metodlar müasir tələblərdən geri qalır. Bir çox hallarda təhsilalanlara əldə etdiyi bilikləri tətbiq etmə və müstəqil yaradıcı düşünmə qabiliyyətləri aşılanmır.

**İdarəetmə.** Təhsilin idarə olunmasında başlıca problemlərdən biri təhsildə tənzimləmə, idarəetmə və nəzarət funksiyalarının dəqiq müəyyən edilməməsidir. Təhsil sistemini idarə edən orqanların səlahiyyətlərinin, funksiyalarının və məsuliyyətinin dəqiq müəyyənləşməsi, idarəetmə prosesində şəffaflığın və maraqlı tərəflərin iştirakının təmin edilməsi zəruridir.

Təhsil müəssisələrinin idarəetmədə rolu məhduddur. Özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərən təhsil müəssisələri istisna olmaqla, dövlət təhsil müəssisələri maliyyə müstəqilliyinə malik deyildir. Bununla yanaşı, təhsil müəssisələrinin rəhbərliyi tədrisin nəticələrinə görə ciddi məsuliyyət daşımır. Təhsil müəssisələrinin maliyyələşdirilməsi təqdim etdiyi təhsilin nəticələrindən asılı deyildir və keyfiyyətə yönəlməmişdir.

Təhsilin effektiv idarə olunması məqsədi ilə informasiya sistemi yaradılsa da, onun inkişafına ehtiyac duyulur. Təhsilin yüksək keyfiyyətini təmin etmək üçün təhsil sahəsində monitorinq, keyfiyyət və fəaliyyət göstəriciləri sistemi inkişaf etdirilməlidir.

Təhsil və kadr hazırlığı prosesinə, həmçinin təhsilin məzmununun təkmilləşdirilməsinə işəgötürənlərin cəlb olunması çox aşağı səviyyədədir. İşəgötürənlər kadr hazırlığı prosesində iştirak etmək, hazırlanan kadra dair şərtlər irəli sürmək imkanına malik olmalı və buna müvafiq olaraq cavabdehliyini dərk etməlidir.

Təhsilin maliyyələşdirilməsi mexanizmi təkmilləşdirilməli və təhsil sistemində rəqabət mühitinin inkişafını dəstəkləməlidir. Bunun üçün təhsilin bütün pillələrində adambaşına maliyyələşdirmə prinsipinin tətbiqi, səriştə və fəaliyyətin nəticələrinə əsaslanan əməyin ödənişi sisteminin yaradılması, maliyyələşdirmənin tədrisin keyfiyyət nəticələrinə görə müəyyən edilməsi məqsədəuyğundur.

**İnfrastruktur.** Həyata keçirilən dövlət proqramları çərçivəsində təhsil təyinatlı yeni binalar inşa edilmiş, ümumi təhsil müəssisələrinin binaları əsaslı təmir olunmuşdur. Təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi genişlənmiş, bütövlükdə təhsilin infrastrukturu müasirləşmişdir. Bununla yanaşı, təhlillər göstərir ki, tədris prosesində müasir texnologiyalar məhdud miqyasda tətbiq edilir, bəzi hallarda isə yaradılan sistemlərdən az istifadə olunur.

Azərbaycan Respublikasında ümumi təhsilin V-XI sinifləri üzrə şagird-kompyuter nisbəti 2012-ci ildə 20:1 təşkil etmiş, təhsil müəssisələrinin yalnız 37 faizi internet bağlantısı ilə təmin olunmuşdur. Təhsil müəssisələrində internetə çıxış imkanları genişləndirilməklə, təhsildə informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqi inkişaf etdirilməlidir.

Qlobal iqtisadi inkişafın tələblərinə uyğun şəkildə beynəlxalq təcrübədən istifadə təhsil prosesində müasir informasiya texnologiyalarının sürətli tətbiqini zəruri edir. Bu sahədə mövcud problemlərdən biri Azərbaycan dilində müvafiq tətbiqi kontentin olmamasıdır.

Ümumi təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, regionlarda təhsilin bütün pillələri üzrə, o cümlədən, ali təhsil pilləsini əhatə edən yeni təhsil ocaqlarının yaradılması və inklüziv təhsilin tətbiqi kimi tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasında təhsil sisteminin inkişafına xidmət edəcəkdir.

## 4. Təhsil sisteminin başlıca vəzifələri

Təhsil sisteminin başlıca vəzifələri aşağıdakılardır:

– ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;

– məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

– milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq;

– sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.

## 5. Strategiyanın məqsədi

Strategiyanın məqsədi ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır.

Strategiyanın reallaşdırılması təhsilin məzmununun, kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkişafını təmin edəcəkdir.

## 6. Strateji istiqamətlər

1. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması.
2. Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması.
3. Nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan təhsildə yeni idarəetmə sisteminin formalaşdırılması.
4. Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması.
5. Təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması.

## 7. Strateji hədəflər və tədbirlər

1. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması.

1.1. Uşaqların erkən yaş dövründə inkişafının səmərəli təhsil modelinə əsaslanan standart və kurikulumlarının hazırlanması:

1.1.1. məktəbəqədər yaşlı uşaqların fiziki və əqli inkişafını, sosiallaşmasını təmin edən, yaradıcılıq qabiliyyətlərini üzə çıxaran, onlarda həyati bilik və bacarıqları, davranış qaydalarını aşılayan təhsil standartlarının və yeni kurikulumların hazırlanması;

1.1.2. uşaqların davamlı inkişafına yönəlmiş pedaqoji fəaliyyətə dəstək vermək məqsədi ilə valideynlərin sistemli şəkildə pedaqoji-psixoloji maarifləndirilməsi üçün "Səriştəli valideynlər" proqramının hazırlanması;

1.2. səriştə əsaslı ümumi təhsil standartları və kurikulumlarının hazırlanması:

1.2.1.12 illik ümumi təhsilə keçidin təmin olunması üçün mövcud təhsil standart və kurikulumlarının yenilənməsi, tam orta təhsil pilləsində təlimin istiqamətlər üzrə bölünməsi;

1.2.2. kurikuluma əsaslanan yeni dərsliklərin yaradılması, şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin olunması;

1.2.3. istedadlı uşaqlar üçün xüsusi inkişaf proqramlarının hazırlanması;

1.2.4. xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması;

1.3. cəmiyyətin tələblərinə uyğun səriştə əsaslı ilk peşə-ixtisas və orta ixtisas təhsili standartları və kurikulumlarının hazırlanması;

1.4. ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsinə dəstək verən və rəqabətqabiliyyətli mütəxəssis hazırlığını təmin edən ali təhsil standartlarının tətbiqi:

1.4.1.cəmiyyətin və iqtisadiyyatın tələbatlarına uyğun olaraq hər bir ixtisas üzrə müasir standartların hazırlanması;

1.4.2. qabaqcıl beynəlxalq təcrübə əsasında pedaqoji, mühəndis-pedaqoji və elmi-pedaqoji kadr hazırlığı üzrə müasir kurikulumların hazırlanması;

1.4.3. ali təhsil müəssisələrinə təhsilin məzmununun tətbiqi müstəqilliyinin verilməsi;

1.4.4. ali təhsilin səviyyələri arasında əlaqələrin və varisliyin gücləndirilməsi, doktorantura səviyyəsi üçün elmi tədqiqatlar sahəsində yüksək hazırlığı və elmi-pedaqoji fəaliyyət üzrə mükəmməl səriştəyə yiyələnməni təmin edən müasir standartların hazırlanması.

2. Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması.

2.1. Təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəlməsini təmin edən yeni sistemin yaradılması:

2.1.1. təhsilverənlər üçün təhsilin bütün pillələrində təhsilalanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodologiyasının və müvafiq resursların hazırlanmasının təmin edilməsi;

2.1.2. təhsilverənlərin əlavə təhsili üzrə strukturların yaradılmasının stimullaşdırılması;

2.1.3. müəllimlərin təhsil müəssisəsi səviyyəsində, tədrisdən ayrılmadan peşəkarlıq səviyyəsinin artırılması üzrə özünü doğrultmuş innovativ modellərin tətbiqi;

2.1.4. pedaqoji heyət üçün yeni modul-kredit və rəqabətəsaslı təlimlər sisteminin yaradılması;

2.2. təfəkkürün və şəxsiyyətin inkişafına yönəlmiş, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim, qiymətləndirmə metodologiyası və resursların inkişafı:

2.2.1. yeni kurikulumlara və informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyalarına uyğun metodik vəsaitlərin, didaktik materialların və təlim vasitələrinin hazırlanmasını stimullaşdıran yeni mexanizmlərin yaradılması;

2.2.2. təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsinin qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

2.3. müəllim peşəsinin nüfuzunun artırılması üzrə dövlət siyasətinin inkişafı:

2.3.1. səriştə və nəticə əsaslı diferensiallaşdırılmış, əmək bazarında rəqabət qabiliyyətli əmək haqqı sisteminin yaradılması;

2.3.2. müəllimin karyera inkişafı və fəaliyyətinin stimullaşdırılması üzrə yeni sistemin yaradılması;

2.3.3. müəllim hazırlığı sistemində internatura modelinin tətbiq edilməsi;

2.4. şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqları baxımından istedadın erkən yaşdan aşkar olunması, inkişafı və dəstəklənməsi üzrə sistemin yaradılması:

2.4.1. istedadın aşkar edilməsi üzrə qabaqcıl beynəlxalq təcrübəyə uyğun diaqnostik metodikaların, psixometrik vasitələrin hazırlanması və bütün təhsil müəssisələrində tətbiqinin təmin edilməsi;

2.4.2. hər bir xüsusi istedadlı təhsilalan üçün fərdi təhsil və inkişaf proqramlarının müəyyənləşdirilməsi, onların fərdi plan əsasında tədris prosesi və kurikulumdankənar məşğuliyyətinin təşkili mexanizmlərinin yaradılması;

2.5. xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasının yaradılması:

2.5.1. xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili və sosial adaptasiyası üçün imkanların təmin edilməsi məqsədi ilə optimal inklüziv təhsil modellərinin tətbiq edilməsi;

2.5.2. məktəbəqədər və ümumi təhsil müəssisələri təhsilverənlərinin inklüziv təhsil üzrə məqsədli əlavə təhsilinin təmin edilməsi.

3. Təhsilin nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan idarəetmə sisteminin formalaşdırılması.

3.1. Təhsil sisteminin tənzimlənməsinin və dövlət təhsil sektorunun idarə edilməsinin qabaqcıl beynəlxalq təcrübə əsasında yenidən qurulması:

3.1.1. tənzimləmə və idarəetmə funksiyalarını həyata keçirən dövlət qurumlarının səlahiyyət və məsuliyyət dairəsinin beynəlxalq təcrübəyə uyğun yenidən müəyyənləşdirilməsi;

3.1.2.təhsil pillələri və səviyyələrinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması:

3.1.2.1. məktəbə hazırlıq təhsilinin (1 il) icbariliyinin təmin olunması;

3.1.2.2. erkən yaşlı uşaqların məktəbəqədər təhsillə əhatəsinin 90 faiz səviyyəsinə çatdırılması;

3.1.2.3.10 illik icbari ümumi orta təhsil və 2 illik tam orta təhsil modelinə mərhələli şəkildə keçidi təmin etməklə, 12 illik ümumi təhsil sisteminin yaradılması;

3.1.2.4. tam orta təhsil səviyyəsində təhsil müəssisələrinin müxtəlif istiqamətlər üzrə bölünməsi;

3.1.2.5. təhsil müəssisələrinin infrastrukturuna dair norma, standart və qaydaların təkmilləşdirilməsi;

3.1.3. beynəlxalq təcrübə əsasında təhsil müəssisələrinin akkreditasiyası sisteminin yaradılması;

3.1.4. təhsil sahəsində dövlət-biznes partnyorluğu sisteminin yaradılması;

3.1.5. təhsil sistemində dövlət sifarişinin formalaşdırılmasına yenidən baxılması, ölkənin siyasi, iqtisadi və sosial inkişafının real tələbatına əsaslanaraq prioritet sayılan sahələr üzrə kadr hazırlığının təmin edilməsi;

3.1.6. ali və orta ixtisas təhsili müəssisələrinə qəbul və yerləşdirmə mexanizminin təkmilləşdirilməsi, dövlət və özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul planının ləğv edilməsi və dövlət sifarişinin yalnız ixtisaslar üzrə müəyyənləşdirilməsi;

3.2. təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin yaradılması:

3.2.1.təhsil müəssisələrinə idarəetmə, akademik, maliyyə və təşkilati muxtariyyət verilməsi;

3.2.2. təhsil müəssisələrində strateji idarəetmənin tətbiqi mexanizmlərinin yaradılması;

3.2.3. maraqlı tərəflərin nümayəndələrinin iştirakı təmin edilməklə təhsil müəssisələrinin dövlət-ictimai xarakterdə (Valideyn-Müəllim Assosiasiyası, İdarəedici Şura, Qəyyumlar Şurası və s.) idarə olunmasının təmin edilməsi;

3.3. təhsilin keyfiyyətinin təminatı üzrə yeni sistemin yaradılması:

3.3.1. qabaqcıl beynəlxalq təcrübə əsasında təhsilin pillələri və səviyyələri üzrə keyfiyyət standartları və göstəricilərinin hazırlanması;

3.3.2. ömür boyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin yaradılması və tətbiqi;

3.3.3. beynəlxalq təhsil proqramlarının tanınması və təhsil müəssisələrində dövlət təhsil proqramları ilə yanaşı ödənişli əsaslarla tətbiqi;

3.3.4. təhsil müəssisələrinin reytinq sisteminin yaradılması;

3.3.5. qabaqcıl beynəlxalq təcrübə əsasında məktəbəqədər və ümumi təhsil üzrə pedaqoji və idarəetmə heyətinin müstəqil sertifikatlaşdırma (lisenziyalaşdırma) sisteminin yaradılması;

3.3.6. keyfiyyətin yaxşılaşdırılması üçün stimullaşdırma mexanizmlərinin, təhsil sistemində innovativ fəaliyyəti stimullaşdıran qrant sisteminin yaradılması və tətbiqi;

3.3.7. təhsil proqramları, tədris resursları, təlim metodikaları, təhsilverənlər, təhsil müəssisələri arasında sağlam rəqabətin stimullaşdırılması, rəqabət elementlərinin müəyyənləşdirilməsi və tətbiq edilməsi;

3.4. təhsilin idarə olunmasının məlumat sistemləri və yeni hesabatvermə modelinin yaradılması:

3.4.1. bütün təhsil pillələri üzrə Təhsilin İdarə olunmasının Məlumat Sistemləri və "Tələbə-məzun" sistemi əsasında hesabatvermə, təhlil və proqnozlaşdırma sisteminin yaradılması və mütəmadi yenilənməsinin təmin edilməsi;

3.4.2. təhsil müəssisələrində məlumat bazalarının, məzun-koordinasiya-informasiya sistemlərinin yaradılması, onların mütəmadi yeniləndirilməsi və idarəetmə prosesində istifadəsinin təmin edilməsi;

3.4.3. əmək bazarının mütəmadi öyrənilməsi sisteminin yaradılması;

3.5. qabaqcıl beynəlxalq təcrübəyə əsaslanaraq, təhsil pillələrinin bütün səviyyələrini əhatə edən yeni qiymətləndirmə mexanizmlərinin hazırlanması:

3.5.1. təhsil müəssisələrində keyfiyyətin monitorinqi (xarici və daxili) və qiymətləndirmə mexanizmlərinin yaradılması;

3.5.2. ümumi təhsilin səviyyələri nəzərə alınmaqla, şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi üzrə sistemin təkmilləşdirilməsi;

3.5.3. ümumi təhsil müəssisələri şagirdlərinin biliyin qiymətləndirilməsi üzrə beynəlxalq proqramlarda iştirakının təmin olunması.

4. müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması.

4.1.Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasının tələblərinə uyğun infrastrukturun yaradılması, hər bir təhsil müəssisəsinin internetlə, ümumi orta təhsil səviyyəsində hər bir şagirdin elektron dərsliklərlə yüklənmiş kompyuter-planşetlə təmin olunması;

4.2. təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması;

4.3. distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin yaradılması;

4.4. müasir təminatlı peşə-tədris mərkəzləri və komplekslərinin yaradılması;

4.5. məktəbəqədər təhsil müəssisələrinin yaradılması, onların fəaliyyətinin stimullaşdırılması mexanizmlərinin hazırlanması;

4.6. kampusların yaradılmasının təşviqi;

4.7. ömür boyu təhsilə artan tələbatın ödənilməsi üçün kitabxana fəaliyyətinin modernləşdirilməsi, rəqəmsal təhsil resurslarından istifadə imkanlarının genişləndirilməsi;

4.8. təhsillə bağlı media və internet resurslarının inkişafının təmin edilməsi.

5. Təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması.

5.1. Təhsilə adekvat həcmdə maliyyə resurslarının cəlb edilməsi, təhsilin maliyyələşdirilməsi xərclərinin Ümumi Daxili Məhsula nisbətinin mərhələlərlə 5-6 faizə çatdırılması, nəticəyönlü büdcə planlaşdırılması və müxtəlif mənbəli maliyyələşdirmə mexanizmlərinin yaradılması;

5.2. təhsil müəssisələrini bir təhsilalana düşən xərc əsasında maliyyələşdirmə mexanizminə keçid;

5.3. dövlət və bələdiyyə təhsil müəssisələrində özünümaliyyələşdirmə prinsiplərinin təşviqi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsi;

5.4. büdcədənkənar vəsaitlər hesabına formalaşdırılan Təhsilin İnkişafı Fondunun yaradılması;

5.5. təhsil tədqiqatlarının yeni maliyyələşmə mexanizminin tətbiqi;

5.6. mülkiyyət formasından asılı olmayaraq müvafiq təhsil qurumları cəlb edilməklə təhsilverənlərin əlavə təhsilinin dövlət sifarişi əsasında adambaşına maliyyələşdirilməsi;

5.7. təhsil müəssisələrinin keyfiyyət göstəricilərinə əsaslanan investisiya xərcləri sisteminin yaradılması;

5.8. ali təhsil müəssisələrində dövlət büdcəsi vəsaitindən istifadə olunmayaraq məqsədli kapital fondlarının yaradılmasının stimullaşdırılması;

5.9. aztəminatlı ailələrdən olan uşaq və gənclər üçün bərabər təhsil imkanlarının yaradılması məqsədi ilə maddi dəstək sisteminin yaradılması;

5.10.müəllimlərin maddi motivasiyasının yaxşılaşdırılması,onların illik əmək haqqının adambaşına düşən Ümumi Daxili Məhsula nisbətinin mərhələlərlə, səriştə və nəticə əsasında diferensiallaşdırmaqla 1,8-2 dəfəyədək artırılması;

5.11. tam orta təhsildə bir şagirdə düşən illik xərclərin adambaşına düşən Ümumi Daxili Məhsula nisbətinin mərhələlərlə 2 dəfəyədək artırılması;

5.12. müasir, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan təhsil infrastrukturunun, elektron təhsilin yaradılmasına əlavə vəsaitlərin ayrılması;

5.13. təhsil şəbəkəsində rasionallaşdırma tədbirləri həyata keçirməklə, regionlar arasında təhsilin keyfiyyətini bərabərləşdirmək üçün ucqar regionlarda yerləşən təhsil müəssisələri üçün əlavə maliyyələşmənin təmin olunması;

5.14. təhsilə çıxış imkanlarını yaxşılaşdırmaq üçün maliyyə mexanizmlərinin, o cümlədən, tələbə kreditləri sisteminin genişləndirilməsi;

5.15. məktəbəqədər və ümumi təhsil müəssisələrində uşaqlara pulsuz əsasda müvafiq xidmətlərin (dərs və ya təlim vəsaitləri və s.) göstərilməsi.

## 8. Strategiyanın həyata keçirilməsi

Strategiyanın uğurlu həyata keçirilməsinin əsas şərtləri onun məqsədi və məzmunu haqqında aydın təsəvvürün yaradılması, ictimai dəstək qazanması və reallaşmasını təmin edən effektiv icra mexanizminin formalaşdırılmasıdır.

Strategiyanın məqsədi və məzmunu kütləvi informasiya vasitələri və digər üsullarla əhaliyə, təhsil müəssisələrinin pedaqoji heyətinə və digər hədəf qruplarına çatdırılır. Strategiyanın həyata keçirilməsi üzrə fəaliyyət planı beynəlxalq ekspertlər cəlb olunmaqla hazırlanır və təhsil sisteminin hazırlığı nəzərə alınaraq, islahatların məqsədini və strateji istiqamətləri, seçilmiş prioritetləri, onların reallaşdırılması üçün qəbul olunmalı dövlət proqramlarını, icraya məsul və tərəfdaş qurumları, ara və yekun hədəfləri və icra dövrünü müəyyən edir. Strategiyanın həyata keçirilməsi üzrə fəaliyyət planı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunur.

Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidentinə Strategiyanın icrasının gedişi barədə hər il üzrə hesabat təqdim edir.

# FƏAL DƏRSİN TƏŞKİLİNƏ DAİR

**Afət İbrahimova,**
Bakı şəhəri, Binəqədi rayonu, 300 nömrəli
tam orta məktəbin müəllimi



**açar sözlər:** fəal dərs, dərsin mərhələləri, motivasiya, refleksiya, inteqrasiya, standartlar, resurslar, tədqiqat sualı
**ключевые слова:** интерактивный урок, этапы урока, мотивация, рефлекция, интеграция, стандарты, ресурсы, вопрос исследования
**key words:** interactive lesson, stages of the lesson, motivation, reflection, integration, standards, resouros research, question

İnteqrativ təlimin dörd əsas mexanizmi idrak fəallığının əmələ gəlməsi və dərs prosesində saxlanılmasını təmin edir. Həmin mexanizmlər bunlardır:

- problem- situasiyanın yaradılması;
- şagird-tədqiqatçı, müəllim-fasilitator;
- dialoqun, əməkdaşlığın zəruriliyi;
- psixoloji dəstək: hörmət və etibar.

Dərketmə və biliklərin mənimsənilməsi prosesində təfəkkürün fəallaşdırılması nəticəsində şagirdlərdə sərbəstlik, biliklərin müstəqil qavranılmasına şərait yaranır, təlim daha səmərəli olur. İnteraktiv təlimin mexanizmləri təlim standartlarının həyata keçirilməsini təmin edir.

Fəal dərsin quruluşu tədqiqat prosesinin mərhələlərini xatırladır:

- motivasiya (problemin qoyulması, fərziyyənin irəli sürülməsi);
- tədqiqatın aparilməsı (fərziyyələri yoxlamaq üçün faktların araşdırılması);
- məlumat mübadiləsi (əldə edilmiş məlumatların və şagird tədqiqatlarının təqdimatı);
- məlumatın müzakirəsi (əldə edilmiş məlumatların müzakirəsi, müxtəlif faktların əlaqələndirilməsi, onların sistemləşdirilməsi);
- ümumiləşdirmə və nəticələrin çıxarılması (nəticələrin fərziyyələrlə müqayisəsi, onların təsdiq və ya təkzib edilməsi, nəticə, tədqiqat sualına cavab, ümumiləşdirmə);
- produktiv tətbiqetmə (yeni şəraitdə tətbiqetmə, praktik məsələlərin həlli);
- qiymətləndirmə və ya refleksiya (şəxsi fəaliyyətin qiymətləndirilməsi).

Dərsdə motivasiya onun vacib komponenti, təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığına təkan verən prosesdir. Motivasiya qismində ortaya gətirilmiş problemin həlli tələbatı çıxış edir. Motivasiyanın yaradılması və həyata keçirilməsi o qədər də asan deyil və dərsin müvəffəqiyyəti onun necə həyata keçirilməsindən asılıdır. Motivasiya iki əsas prinsip əsasında qurulur:

- problemlilik;

- məqsədyönlülük.

Motivasiyanın yaradılması yollarını üç əsas qrupa bölmək olar:
1. rəmzi (simvolik) materialın şərhi;
2. şagirdləri sual verməyə həvəsləndirmək;
3. problemin müxtəlif yollarla həll edilməsi.

Motivasiyanın yaradılması üçün belə bir iş planı təklif olunur:
1.dərsin mövzusunu elan etmək;
2. dərsin gözlənilən təlim nəticələrini müəyyənləşdirmək;
3.dərsin sonunda şagirdlərin hansı nəticələrə gələcəklərini müəyyənləşdirmək;
4. tədqiqat sualını düzgün ifadə etmək;
5. problem-situasiyanın yaradılması üçün tapşırıqlar və suallar hazırlamaq;

Deyilənləri əyaniləşdirmək üçün bir nümunə verək.

## Riyaziyyat ( I sinif)

**mövzu:** onluğun alınması.
**standartlar:** 1.1.2; 1.1.9; 2.1.2
**məqsəd:**
- ikirəqəmli ədədləri tanıtmaq;
- sayı 10-20 arasında olan əşyalar qrupunu onluq və təkliklərə ayırmağı öyrətmək;
- sadə ədədi ifadənin qiymətini hesablamağı öyrətmək.

**inteqrasiya:** ana dili – 1.1.1; 1.1.2;
**iş forması:** qruplarla iş;
**metodlar və priyomlar**: müzakirə, beyin həmləsi;
**resurslar:** dərslik, işçi vərəqləri, rəngli karandaşlar, şəkillər.

### dərsin gedişi

**Motivasiya.** Müəllim nəql edir: "Bir dəfə birrəqəmli ədədlər arasında mübahisə düşdü. Hərə özünü tərifləməyə başladı. Bu vaxt ucadan bir səs eşidildi:
–Nə səs-küy salmısınız? İkirəqəmli ədədlərin ən kiçiyi olsam da, sizin hamınızdan böyük mənəm".

Müəllim: – Sizcə, o hansı ədəddir?

Müxtəlif cavablar səslənir. Cavablardan biri də "10 ədədi" olur (Şagirdlərdən bu cavabı almadıqda, müəllim deyə bilər.).

**Tədqiqat sualı:** Onluq necə alınır?

**Tədqiqatın aparılması.** Şagirdlər qruplara bölünürlər.Qrupların hər birinə riyazi əməllərin adları verilir: "toplama", "çıxma", "vurma", "bölmə". Bu sözlər yazılmış vərəqlər şagirdlərə paylanır. Kim hansı qrupa aiddirsə, orada əyləşir. Hər qrupa müxtəlif tapşırıqlar yazılmış işçi vərəqi verilir.

**İşçi vərəqi № 1.** 12 göy, 10 qırmizi, 8 yaşıl rəngli çöp verilmişdir.Eyni rəngli çöplərdən onluq düzəldin.

**İşçi vərəqi №2.** Cavabı "10" olan misalların yazıldığı dairələri içərisində "10" yazılmış dairə ilə birləşdirin.

| | | | |
|---|---|---|---|
| *4+5* | *7+3* | *1+9* | *8+2* |
| *8+1* | *10* | *3+6* | *5+5* |

**İşçi vərəqi №3.** Gilasları cüt-cüt, yarpaqları tək-tək sayın.



–Gilasların sayı neçə onluqdur?

–Yarpaqların sayı neçə onluqdur?

**İşçi vərəqi №4.** Hansı sözdə hərflərin sayı onluq əmələ gətirir: **əlifba, musiqi riyaziyyat, infopmatika?**

Təqdim etdiyimiz dərs nümunəsində sonrakı üç mərhələ informasiya mübadiləsi (3-cü mərhələ), informasiyanın müzakirəsi (4-cü mərhələ), nəticələrin çıxarılması, ümumiləşdirmənin dürüst ifadəsi (5-ci mərhələ) interaktiv dərsin mərhələləridir.

Tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra müəllim tapşırığın icrasının başa çatdığını bildirir. Qruplar informasiyanın təqdimatına başlayırlar.

Bu mərhələnin əsas məqsədi bütün şagirdləri yeni faktlar və nəticə ilə tanış etməkdir. İnformasiya mübadiləsi yalnız o zaman səmərəli ola bilər ki, sinif fəal dinləməyə və əks-əlaqəyə köklənmiş olsun. Bunun üçün müəllim:

- Nizam-intizamın yaradılmasına nail olur.
- Əgər bu, qrup işidirsə, bütün iştirakçılardan xahiş edir ki, üzlərini təqdimatın keçirildiyi yerə döndərsinlər.
- Onları təqdimata münasibətlərini – razı olduqlarını və ya olmadıqlarını bildirməyə sövq edir.
- Ardıcıllığı – təqdimatın aparılması, fikir mübadiləsi və informasiyanın təsdiqlənməsi qaydalarını müəyyən edir.

Əgər bu, qrup təqdimatıdırsa, o zaman qrupun bütün üzvlərinin (tərkibində 5 şagirddən çox olan böyuk qruplar istisna edilməklə) iştirakı yerinə düşər. Bunun üçün hələ tədqiqatın başlanğıcında şagirdlərə təqdimat mərasimindəki vəzifə bölgüsü barədə təlimat verilməlidir. Qrupların tədqiqat materialı oxşar olarsa, digər qruplara birinci qrupun təqdimatına yalnız əlavələr etməyi tapşırmaqla vaxta qənaət etmək olar.

Daha çox şagirdin iştirakını təmin etmək üçün onlara təqdimatı keçirənlərə sual verməyi təklif etmək mümkündür. Ən yaxşı sualın müəllifini mükafatlandırmaq olar. Təqdimatın mühüm cəhətlərindən biri də əsas faktların və ideyaların yazı taxtasında qeyd edilməsidir.

Tədqiqatın sonunda bütün işçi vərəqləri yazı taxtasından asılmalı və ya tapılmış əsas faktlar orada qeyd edilməlidir. Bu, sonrakı mərhələnin – informasiyanın müzakirəsinin əsas şərtidir.

Təqdimat aparılarkən aşağıdakı səhvlərə yol vermək olmaz:

1. Müəllim təqdimat prosesində diqqəti yalnız çıxış edənlərə yönəldir.
2. Müəllim vaxta qənaət etmək məqsədilə bütün təqdimatlara dalbadal qulaq asır, fikir mübadiləsinə imkan vermir.
3. Təqdimat zamanı qrupun üzvləri işçi vərəqlərini yazı taxtasından asır və onun önündə toplaşaraq arxaları sinfə tərəf dayanıb, öz qeydlərini ucadan oxuyurlar. Bu halda müəllim də arxasını sinfə çevirməyə məcbur olur ki, işçi vərəqi ilə tanış olsun. Nəticədə qalan şagirdlərin diqqəti və informasiyanı qavraması pozulur.
4. Müəllim təqdimata rəsmiyyət xatirinə qulaq asır, ifadələrin yığcamlığı və aydınlığı üçün düzəlişlər etməyə çalışır, şagirdlərdə təqdimat mədəniyyətini formalaşdırmağa səy göstərmir.
5. Hər bir təqdimatdan sonra müəllim özü onu şərh edir, qiymətləndirir və aşkar olunmuş yeni faktlara öz münasibətini bildirir.

**İnformasiyanın müzakirəsi** mərhələsinin məqsədi yeni faktlar əsasında bilikləri sistemləşdirmək və tədqiqat sualına cavab tapmaq üçün bu faktlar arasında əlaqəni üzə çıxarmaqdır. Müəllimin işləməli olduğu material pərakəndə faktlar yığınından ibarətdir. O, əsas birləşdirici ideyanı və ya qanunauyğunluğu aşkar etmək üçün bu dağınıq faktlar arasında əlaqə yaratmağa çalışmalıdır. Bu zaman müqayisə, təhlil və tərkibdən istifadə olunmalıdır.

"Bütün bu faktları necə qruplaşdırmaq olar?" – sualına şagirdlərin cavab verə bilmələri üçün müəllim əvvəlcədən planlaşdırmalıdır ki, informasiyanın müqayisəsi, təşkili və yenidən qurulmasını hansı yollar və meyarlarla həyata keçirmək olar. Seçim materialın məzmunundan, tədqiqatın məqsədindən asılıdır.

Müzakirənin gedişi və nəticələri müəllimin bələdçilik və şagirdlərin düşüncələrini lazımi məcraya yönəltmək bacarığından asılıdır. Müzakirə prosesində müəllim şagirdləri diskussiyaya təhrik edir, onların ideyalarını dinləyir və əsas tezisləri qeyd edir.

İnformasiyanın mübadiləsinin müzakirəsi mərhələsində aşağıdakı metodik xətalara yol verilməməlidir:

1.Müəllim informasiya mübadiləsinin təşkili prosesində şagirdlərin təklif və ideyalarını isə diqqətdən kənarda qoyur, öz şəxsi mülahizələrini zorla qəbul etdirir. Halbuki, bəzən şagirdin nəzərə alınmayan ideyası müəllimin ideyasından daha səmərəli və maraqlı ola bilər.

2. Müəllim yönəldici suallardan istifadə edir və bununla da şagirdlərin həll yolunu müstəqil tapmalarına imkan vermir.

3. Müəllim diskussiyanın gedişini başlı-başına buraxır, onu lazımi məcraya yönəltməyə çalışmır. Nəticədə vaxt itkisinə yol verilir, müzakirə öz əsas məqsədindən yayınır və "kələfin ucu itir".

4. Şagirdlərin irəli sürdükləri ideyalar müzakirə zamanı müəllim tərəfindən fərqləndirilmir və hər hansı şəkildə qeyd edilmir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllim şagirdlərə əvvəlki mərhələdə qeyd edilmiş bütün fikirləri bir ümumi ideya halında birləşdirməyi və ümumiləşdirməyi təklif edir.

"Körpülərin salınması" gözlə görünən olmalıdır. Bunun üçün müəllim yazı taxtasında müzakirə üçün informasiyanı qrafik şəkildə təsvir edə və bu suallara cavab verməyi xahiş edə bilər: "Bütün bu fraqmentləri hansı fikir və ya ideya birləşdirir?", "Bu fikir sübuta yetirilən fərziyyəyə aiddirmi ?".

Ümumiləşdirmədən sonra formalaşdırılmış ideyanın tədqiqat sualı ilə (*O, bu suala cavab verirmi?*) və ilkin fərziyyələrlə (*Bunların arasında düzgün olanları varmı?*) müqayisə etmək lazımdır.

Ümumiləşdirmə mərhələsində aşağıdakı xarakterik səhvlərə yol verilməməlidir:

1. Müəllim problemi qoyur və özü də onu həll edir , şagirdlərin əvəzinə özü nəticə çıxarır.

2. Müəllim şagirdlərin dərsin axırında çıxardıqları nəticələr və ümumiləşdirmələrlə ilkin fərziyyələr və tədqiqat sualı arasında əlaqə yaratmağa çalışmır.

Deyilənləri yuxarıda təqdim etməyə başladığımız dərs nümunəsinin davamı ilə əyaniləşdirək.

**İnformasiya mübadiləsi.** Hər qrup öz işini təqdim edir. Qrupların işi yazı taxtasından asılır.

**İnformasiyanın müzakirəsi.** Müəllim şagirdlərə suallar verir, onların köməyi ilə əsas fikri aydınlaşdırır. Fikirləri inkişaf etdirmək üçün əlavə suallar verir: "Siz onluğu necə aldınız?", "Birrəqəmli ədədlər hansı ədədlərdir?", "Bir onluğu və sıfır təkliyi olan ədəd hansıdır?"

Şagirdlərin mümkün cavabları: "10 təklikdən 1 onluq alındı","0,1,2,3.....8,9 birrəqəmli ədədlərdir", "10 ədədində bir onluq və sıfır təklik var".

**Nəticə və ümumiləşdirmə.** Müəllim şagirdlərin cavablarını ümumiləşdirir, səslənən cavablara əsaslanaraq qeyd edir ki, onluq 10 təklikdən ibarətdir. 10 təklik birləşib 1 onluq əmələ gətirir. 10 ən kiçik ikirəqəmli ədəddir.

Fəal dərsin mərhələlərindən biri də **refleksiya** mərhələsidir. Refleksiya – şagirdin tədqiqat fəaliyyətinin əsas mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biridir.

Qabaqcıl təcrübədən götürülmüş daha bir dərs nümunəsi ilə fəal dərsin quruluşuna dair mülahizələrimizi əyaniləşdirək.

### Həyat bilgisi. I sinif

**mövzu:** elektrik enerjisi və ondan istifadə qaydaları
**standartlar: 2.2.2, 4.2.1**
**məqsəd:**

- elektrik cihazlarını tanıtmaq;
- elektrik enerjisindən qənaətlə istifadənin əhəmiyyətini başa salmaq.

**inteqrasiya**: F.t.2.1.4, 2.2.3, informatika.3.2.6;
**iş forması**: böyük və kiçik qruplarla iş;
**metodlar və priyomlar:** beyin həmləsi, müzakirə;
**resurslar:** işçi vərəqləri, şəkillər.

### dərsin gedişi

**Motivasiya.** Tapmaca: " Bir balaca boyu var, dam dolusu toyu var".
Yardımçı suallar:1.Bu tapmacanın cavabı nədir? 2.Otağı işıqlandırmaq üçün lampa nəyə qoşulur?

**Tədqiqat sualı**: Elektrik enerjisinin əhəmiyyəti nədir və ondan qənaətlə istifadə etmək nə üçün vacibdir?

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri qruplara ayırıb, onlara işçi vərəqləri verir.

**İşçi vərəqi № 1.**Şəkillərdən (*divan, stol, tozsoran, şkaf, stul, paltaryuyan maşın, ətçəkən maşın*) elektrik cihazlarını seçin, onların əhəmiyyəti haqqında danışın.

**İşçi vərəqi №2**. Şəkildəki əşyaların (*ütü, elektrik çaydanı, soyuducu*) əhəmiyyəti və məişətdə istifadə qaydaları haqqında danışın.

**İşçi vərəqi №3**. Elektrik enerjisindən qənaətlə istifadəyə aid misallar göstərin.

**İşçi vərəqi №4**. Şəkildəki əşyaların ( *televizor, kompyuter*) gündəlik həyatda əhəmiyyəti və onlardan istifadə qaydaları barədə danışın.

**İnformasiya mübadiləsi**. Qrup liderləri işin nəticələrini təqdim edir, işçi vərəqləri yazı taxtasından asılır.

**İnformasiyanın müzakirəsi.** Liderlərin təqdimatından sonra müəllim cavabları sistemləşdirir, şagirdlərə suallar verir:

1.Hansı elektrik cihazlarını tanıyırsınız?

2.Elektrikdən qənaətlə istifadə etmək nə deməkdir?

3.Elektrikdən qənaətlə istifadə etmək niyə vacibdir?

**Nəticə və ümumiləşdirmə.** Müəllim şagirdlərin diqqətini tədqiqat sualına yönəldərək qeyd edir ki, tozsoran, paltaryuyan, ütü, elektrik çaydanı, televizor, kompyuter elektrik enerjisi ilə işləyir. Bu cihazlar insan əməyini yüngülləşdirir. Elektrik enerjisindən qənaətlə istifadə etmək, istifadəsiz otaqda lampanı söndürmək lazımdır, çünki işlənən enerji sayğacda hesablanır. İşlənmiş enerjiyə görə pul ödənilir. Bu pul ailənin büdcəsindən ayrılır.

**Qiymətləndirmə.** Müəllim meyarlar cədvəli hazırlayır. Dərsin bütün mərhələləri üzrə qiymətləndirmə aparılır.Qiymətləndirmə "+" , "– " işarələri ilə göstərilir.

**ədəbiyyat**

1.Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: "Adiloğlu", 2001

2.İbrahimov F.N., Hüseynzadə R.L.Pedaqogika (dərslik). I cild.Bakı: "Mütərcim", 2013

3.Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları, Bakı: "Təhsil", 2008

4. "Kurikulum" jurnalı. 2008, №2

**Про организации интерактивного урока**

**Резюме**

В статье раскрываются этапы активного урока, его специфические свойства. В процессе управления урока в целях исключения ошибок приводится в примеры испытанные пути и правила. Теоретические мысли находят свои подтверждения в практических материалах.

**The result of the interactive lesson about the organization of the work**

**Summaru**

The article shows the stages of the interactive lesson, their special features mutual relations. In the process of the lesson the tested ways and the rules are shown in order to reduce pedagogical ideas .Theory is done in practice way with experimental materials.

# İBTİDAİ SİNİFLƏRDƏ İNFORMATİKANIN TƏDRİSİ İMKANLARI

**Arifə Əliyeva,**
Xətai rayonu, 254 nömrəli məktəbin müəllimi



**açar sözlər:** informatika, məqsəd, vəzifələr, internet
**ключевые слова:** информатика, цель, задачи, интернет
**key words:** information science, purpose, objectives, internet

Azərbaycan hazırkı dövrdə regionda informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində lider ölkə olmaqla dünyanın Qərb–Şərq, Şimal–Cənub informasiya fəzaları arasında virtual körpü kimi qloballaşma, inteqrasiya və ölkələrarası tərəfdaşlıq məsələlərinin həllində mühüm rol oynayır. Artıq İKT-nin müasir infrastrukturu ölkəmizin təhsil sistemində və onun idarə olunmasında əsas mənbəyə çevrilmişdir.

2003-cü ildə respublikada qəbul edilmiş İnformasiya-Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiyanın (İKT MS) vəzifələrinə insan amilinin inkişafı, elektron ticarətin formalaşması, ölkənin iqtisadi, sosial və intellektual potensialının möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan, rəqabətə davamlı rəqəmsal iqtisadiyyatın qurulması, informasiya və bilik bazarının yaradılması, informasiya-kommunikasiya texnologiyası məhsullarının istehsalı kimi vacib məsələlər daxil edilmişdir.

İKT məhsullarının istehsalı kimi ondan düzgün istifadə də prioritet məsələyə çevrilmişdir. Bu baxımdan ölkənin təhsil sistemində köklü dəyişikliklər aparılmış, informatika fənninin tədrisinə diqqət artırılmışdır. Şagirdlərə biliklərlə yanaşı, zəruri bacarıqların da verilməsi dövlətimiz tərəfindən tələb kimi qarşıya qoyulmuşdur. İnformatikanın tətbiqindən sonra bu sahədə irəliləyişlər gözlə görüləcək qədər artmışdır .

İnformatika proqramı ümumtəhsil məktəblərində informatika təliminin əsas məqsədlərini müəyyənləşdirməklə təlimin nəticələrinə nail olmaq üçün hər bir şagirdin imkan və ehtiyaclarına istiqamətlənmiş konseptual sənəddir. O,təhsil işçiləri, məktəb rəhbərləri, müəllimlər, dərslik, dərs vəsaitləri, metodik tövsiyə müəllifləri, valideynlər, icma və ictimaiyyətin digər nümayəndələri üçün nəzərdə tutulmuşdur.

İnformatika proqramı, müasir dövrdə hər bir şəxsin əmək, istedad, qabiliyyət və yaradıcılığının müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan gənc nəslin formalaşdırılmasına– onların qarşılaşdıqları problemlərin həlli, müstəqil qərarlar qəbul etmələri üçün zəruri informasiya təminatını ödəyən kompyuter, informasiya-kommunikasiya tex-

nologiyaları və sistemlərindən səriştəli istifadəetmə bacarıqlarına malik olmalarına yönəldilmişdir.

Bu fənn şagirdin zehni inkişafına komək edir, məntiqi təfəkkürünün formalaşmasında, mühakimə və dərketmə qabiliyyətlərinin yüksəldilməsində müstəsna rol oynayır. İnformatikanın tədrisi zamanı ümumiləşdirmə, konkretləşdirmə, təhlil-tərkib, təsnifetmə və sistemləşdirmə kimi əqli mühakimə metodlarından istifadə olunur ki, bu da onların məntiqi mühakimə bacarıqlarını, alqoritmik təfəkkürlərini inkişaf etdirir .

Bu gün cəmiyyətin bütün sahələrinin inkişafı kompyuterlərin artan imkanlarından və internetin informasiya resurslarından geniş istifadə olunması ilə əlaqədar oldumundan informatikanın tədrisinin əsas vəzifəsi şagirdləri informatikanın elm və informasiya sənayesi sahəsi, həmçinin kompyuterlərin, internetin müasir vəziyyəti, eləcə də ən müasir informasiya-kommunikasiya texnologiyalarının imkanları və tətbiq dairələri ilə tanış etmək, onlara həmin texnologiyalardan istifadə vərdişləri aşılamaqdır.

İnformatika şagirdlərə bacarıq və vərdişlərin aşılanmasında mühüm rol oynamaqla yanaşı, onların xarakterinin formalaşmasına, mənəvi keyfiyyətlərinin və intellektual səviyyələrinin inkişafına kömək edir. Bu fənn müxtəlif elm, təhsil, mədəniyyət və s. sahələrində geniş tətbiq olunur. Müasir dövrdə informatika üzrə bilik və bacarığa malik olmayan şəxsi yüksək mütəxəssis kimi formalaşdırmaq çox çətindir. Orta məktəbdə tədris olunan informatika fənni şagirdlərin ali təhsil müəssisələrində yeni bilik və bacarıqlara yiyələnmələrinə zəmin yaradır. Buna görə də yaxşı mütəxəssis olmaq istəyənlər gələcək fəaliyyətlərində informatikanın rolunu başa düşüb, ona daha çox diqqət yetirməlidirlər.

İnformatika fənni kompyuter texnologiyalarının köməyi ilə informasiya emalı proseslərini – informasiyanın alınması, saxlanması, emalı və ötürülməsinin vasitə və metodlarını öyrənən, ətraf aləmin təhlilinə sistemli yanaşma tərzini formalaşdıran fundamental elm sahələrindən biri kimi insanların həyatına və məişətinə daxil olmuş və onun bir fənn kimi öyrənilməsinə zərurət yaranmışdır.

Hər bir şəxs gündəlik həyatda, əməli fəaliyyətdə informatikanın tətbiqi ilə qarşılaşır, informatika üzrə bilik və bacarıqlardan faydalanır. Bu bilik və bacarıqlar müasir texniki vasitələrlə davranmağa, müxtəlif sosial, iqtisadi, hüquqi, siyasi informasiyaların əldə olunmasına və onlardan istifadə edilməsinə imkan yaradır. İnformatika bir elm sahəsi kimi gündəlik həyatda, dəqiq və humanitar elm sahələrinin inkişafında, texnika və müasir texnologiyaların təkmilləşdirilməsi prosesində ortaya çıxan problemlərin həllində insanların yaxın köməkçisinə çevrilir. İnformatika fənni şagirdlərin elmi, praktik biliklərinin artırılmasında, yeni ixtisaslara yiyələnmələrində mühüm rol oynayır. Ona görə də Azərbaycanın ümumtəhsil məktəblərində bu fənnin tədrisi zəruri hesab edilir.

Bütün bunlar ümumtəhsil məktəblərində tədris olunan fənlər sırasında informatikanın yerini müəyyən etməklə yanaşı, onun tədrisi qarşısında qoyulan əsas məqsədləri ümumi şəkildə müəyyənləşdirməyə imkan verir.

İnformatika və digər fənlərin öyrənilməsində kompyuterlərdən istifadə təlimin əyaniliyini artırır, mürəkkəb obyekt və proseslərin modelləşdirilməsinə, tədris materialının daha asan mənimsənilməsinə imkan yaradır, şagirdlərin müstəqil öyrənmə fəaliyyətini genişləndirir.

İnformatika insan fəaliyyətinin bütün sahələrinin – elm, texnika, iqtisadiyyat və cəmiyyətin inkişafının müəyyənedici amilinə çevirilmişdir. İnsanların zəruri informasiya ilə təmin olunması dərəcəsi, çoxdandır ki, əmək məhsuldarlığının əsas artım amillərindən hesab olunur. İnformasiyanın inkişaf üçün xammal və enerji kimi mühüm, prinsipial amilə çevirilməsi üçün xeyli müddət lazım gəlmişdir.Ümumiyyətlə, insanın informasiyaya münasibəti informasiya emalının avtomatlaşdırılmasının mümkünlüyündən sonra kökündən dəyişməyə və inkişaf etməyə başlamışdır. Bunun nəticəsində yaradıcı mütəxəssislərin intellektual fəaliyyətinin məhsulu kimi informasiya resursları sürətlə çoxalmağa başlamışdır.

İnformatika təliminin əsas qayəsi informasiyanın qəbulu, toplanması, təhlili, emalı, ötürülməsi və onlardan istifadə qaydaları haqqında şagirdlərin tam və dolğun biliklər qazanmaları, bu biliklər vasitəsilə dünyada baş verən informasiya proseslərinin əhəmiyyətini, müasir cəmiyyətin inkişafında informatika və informasiya texnologiyalarının rolunu başa düşmələri, İKT-ni ümumbəşəri dəyərlərin tərkib hissəsi, informasiya cəmiyyəti inkişafının hərəkətverici qüvvəsi kimi qiymətləndirməyi, praktik fəaliyyətdə, digər fənlərin də öyrənilməsində tətbiqi məqsədilə zəruri bilik, bacarıq və vərdişlərə yiyələnmək üçün real əsas yaratmaqdır.

Hazırda Azərbaycanda İKT-nin istifadəsi və tətbiqi nəticəsində elektron-kitabxana, elektron-təhsil, elektron-resurslar inkişaf edir. Respublikada informasiya texnologiyalarının təhsildə geniş tətbiqi şagirdlər tərəfindən biliklərin sürətlə və yüksək səviyyədə mənimsənilməsinə imkan verəcəkdir.


**ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003
2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). «Azərbaycan məktəbi» , 2007, № 2
3. İnformatika fənn kurikulumu. "Azərbaycan müəllimi", 2010-cu il, mayın 24-ü



**Возможности преподавания информатики в начальных классах**

**резюме**

В статье анализируется цели и задачи информатики в воспитании учащихся.



**Opportunities primary schools teaching informatics**

**summary**

The article extensively analyzed the goal and objectives of computer science education students.

# MÜASİR DƏRSİN XÜSUSİYYƏTLƏRİ

**Rəhilə Əliyeva,**
ARTPİ-nin böyük elmi işçisi



**açar sözlər:** müasir dərs, tələblər, məqsədyönümlü, axtarış, tədqiqatçı, dərin və sistemli bilik.

**ключевые слова:** современный урок, требования, целенаправленный,поиск,исследователь, глубокие и системные знания

**key words:** modern lesson, demands, expedient search, investigator, deep and systematic knowledge

Yaxşı məlumdur ki, məktəb cəmiyyətin sosial sifarişini yerinə yetirməli, şagirdləri dərin və hərtərəfli biliklərlə silahlandırmalı, onlarda lazımi bacarıq və vərdişlər formalaşdırmalı, yüksək mədəniyyətə, mütərəqqi dünyagörüşə malik şəxsiyyətlər yetişdirməlidir. Problemin səmərəli həlli üçün ümumtəhsil məktəblərində dünya standartlarına cavab verə biləcək yeni pedaqoji və metodik yanaşmalar, yeni düşüncə tərzi formalaşdırmaq lazımdır. Demokratik cəmiyyət şagirdlərdən mühüm idrak qabiliyyətləri tələb edir. Onlar öz fikirlərini aydın və inamla ifadə etməyi bacarmalıdırlar. Müasir dövrdə layiqli vətəndaşın formalaşması üçün təkcə bu qabiliyyətlər kifayət deyildir. Elə zəruri qabiliyyətlər var ki, onlar şagirdləri öz vətəninə layiqli vətəndaş olmağa istiqamətləndirə bilər.

Müasir təlim metodlarından istifadə sinif mühitində dəyişikliklər etməyə – müəllim-şagird, şagird-şagird, məktəb-ailə qarşılıqlı əlaqələrini qurmağa imkan yaradır.

Təlim prosesinin daha yaradıcı olması, şagirdlər tərəfindən lazımi məlumatların şüurlu və möhkəm qavranılması üçün müxtəlif priyomlar təklif olunur. Fəal dərs prosesində onlardan nisbətən geniş istifadə olunanların xarakterik cəhətlərinə diqqət yetirək:

▪ **Dəyirmi masa.** Şagirdlər dəyirmi masa ətrafında əyləşirlər. Vərəq dairə üzrə bir şagirddən digərinə ötürülür.

▪ **Klaster (şaxələndirmə).** Fikirdən fikir, mövzudan mövzu yaranır, sözdən şaxələr ayrılır və yeni fikirlər yazılır. O, hər hansı aparıcı terminin, açar sözün mənasının açılmasına, dəqiqləşdirilməsinə xidmət edir.

▪ **Beyin həmləsi (əqli hücum).** Daha çox yeni mövzunun öyrədilməsinə başlayarkən istifadə olunur. Yeni mövzuya maraq oyanır, şagirdlər dərindən, sürətlə düşünərək, öz bilik ehtiyatlarına nəzər salır, məlum fikirləri təkrarlamadan, dərhal cavab verirlər. Problem şəraiti yarandıqda şagirdlərin təfəkkür fəaliyyəti «işə düşür», onlarda çətin vəziyyəti təhlil etmək, səmərəli

nəticəyə gəlmək, ən yaxşı çıxış yolu tapmaq qabiliyyətləri inkişaf edir, yeni fikir söyləmək imkanları genişlənir,

- **İşgüzar səs-küy.** Mövzu ilə əlaqədar sinifdə şagirdlərin sərbəst fikir mübadiləsinə yer vermək dərsi intensivləşdirir. Müəllimin qoyduğu suala şagirdlərin yerbəyerdən cavablarını bildirmələri zəif, utancaq olanların da fəallaşmalarına təkan verir.

- **Söz assosiasiyaları.** Müəllim 2-3 dəqiqə ərzində mövzunun mahiyyətini şərh edir. Şagirdlər dərhal suallara cavab verirlər. Onlar inkişaf dinamikasına əsasən qiymətləndirilirlər. Bu metod şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsində mühüm rol oynayır.

- **Venn diaqramı.** Kəsişən 2 və daha çox dairə əsasında təşkil olunur. Dairələrin kəsişdiyi hissədə ortaq əlamətlər qeyd olunur. Bu yolla 2 obraz, əşya, misal və ya məsələnin (3 də ola bilər) üst-üstə düşən, oxşar cəhətlərini müəyyənləşdirmək mümkün olur. Müqayisə prosesi bütün siniflə, böyük və kiçik qruplarla, cütlərlə və ya fərdlərlə aparıla bilər.

- **Rollu oyunlar.** Kiçikyaşlı məktəblilərin təlimində oyunlardan istifadə onların tanış olmayan, mürəkkəb faktları da asanlıqla mənimsəmələrini təmin edir. Bu zaman şagirdlərdə fəallıq, təşəbbüskarlıq, müstəqillik, özünütənqid, özünənəzarət kimi yaradıcı qabiliyyətlər formalaşır. Oyun yaradıcı, tənqidi təfəkkürü inkişaf etdirməklə, əqli işi intensivləşdirir, cəlbedici və maraqlı edir. Oyun şagirdlərdən diqqətli, fərasətli olmaq, düzgün cavabı tez tapmaq bacarığı tələb edir.

- **BİBÖ.** Dərsdə motivasiya yaratmaq, şagirdləri maraqlandırmaq, öyrənməyə yönəltmək üçün istifadə olunur. B – «bildiklərim», İB – «istəyirəm biləm», Ö – «öyrəndiklərim» deməkdir. Bu priyoma əsasən əvvəlcə hər hansı mövzu, əşya və ya hadisə haqqında şagirdlərin bildikləri aşkarlanır, qeyd olunur. Sonra onların nələri bilmək istədikləri müəyyənləşdirilir. Problemlə əlaqədar bütün mümkün variantlar, fikir və təkliflər cədvəlin müvafiq sütununda qeyd olunur, şagirdlər düşünməyə vadar edilir. Sonda həmin əşya və ya hadisə haqqında yeni nələrin öyrənildiyi cədvəldə yazılır. Belə priyomların sayı çoxdur: müzakirə, debat, diskussiya, söz zənciri və s. Onlar öyrənilən materialdan, müəllimin peşəkarlıq səviyyəsindən, şagirdlərin hazırlıq səviyyəsindən və s. asılı olaraq dəyişir.

Professor Ə.Ə.Ağayev qeyd edir ki, «Həqiqi təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilməlidir. Ona görə də müəllimlər məqsəd və şəraitə, fənnə, mövzuya, şagirdlərin təcrübələrinə və bilik səviyyəsinə görə bütün təlim modellərindən, müxtəlif metodika və texnologiyalardan istifadə etməlidirlər.Əsas odur ki, təlim uşaqları inkişaf etdirsin, onlara düşünmək, müstəqil fikir söyləmək, biliklərini tətbiq edə bilmək bacarıqları aşılasın, onlarda ünsiyyət, anlaşma mədəniyyəti formalaşdırsın».

Zaman keçdikcə elmi-texniki tərəqqi, sosial inkişaf, təhsilalanların inkişaf səviyyəsi təhsil sistemində müvafiq dəyişikliklərin aparılmasını bir zərurət kimi irəli sürmüşdür. Bu gün də belədir. Təlimin əsas təşkilat forması olan dərsin strukturu, təşkili qaydası, istifadə olunan metod və priyomların təkmilləşdirilməsi və dəyişilməsi, onlarda müasir dövrün tələblərinə uyğun yeniləşmələr aparılması təbii haldır. Şagirdlərin inkişafına, onların bilik, bacarıq və vərdişlərinin səviyyəsinin yüksəlməsinə təkan verən yeniləşmə bu gün çox zəruridir.

Müşahidələr göstərir ki, bir çoxları ənənəvi dərslə müasir dərsi qarşı-qarşıya qoyur, onların bir-birinə bənzəməyən proses olduğunu qeyd edirlər. Professor Y.Kərimov yazır: «Yenilikçilər müasir dərsin üstünlüyünü nədə görürlər?

- Müəllim hazır biliklər vermir.
- Şagird müəllimlə bərabərhüquqlu subyekt kimi fəaliyyət göstərir.
- Müəllim fasilitator (istiqamət verici) rolunu oynayır.
- Dərs, əsasən, kiçik qruplarla, cütlərlə təşkil olunur.
- Dərsdə problem irəli sürülür və həlli şagirdlərdən tələb olunur.
- Şagirdlər tədqiqat aparır, biliklərə müstəqil yiyələnirlər.
- Şagirdlər fəallaşır, sinifdə müsahibə, diskussiya, debat və s. yaranır.
- İnteraktiv metod və priyomlardan istifadə olunur.
- Şagirdlər öz hazırlıqlarını özləri qiymətləndirirlər və s.».

O, daha sonra qeyd edir: «Bütün bunlar yaxşıdır, lakin təəccüblüdür ki, hər hansı yeninin əvvəllər olmuşun üzərində qurulması unudulur. Yaddan çıxır ki, yeni sayılan bu tələblər (heç olmasa onların elementləri) həmişə olub, sadəcə olaraq aktuallığı nəzərdən qaçırılıb, geniş yayılmayıb. Müasir mərhələdə onlara yeni yanaşma və yaradıcı tətbiqetmə tələb olunur».

Hər bir mövzunun tədrisi prosesi özünəməxsus öyrətmə tərzi tələb edir. Bütün mövzular üçün eyni dərəcədə səmərəli təlim forması və metodu yoxdur. Hər bir konkret mövzunun tədrisi metodları arasında bir uyğunluq tapılmalı, mövzu üçün səmərəli təlim strategiyası seçilməlidir. Müəllim şəxsi təcrübəsindən və metodik mülahizələrdən çıxış edərək, şagirdlərin potensial ehtiyacına uyğun olaraq tədris olunacaq materialın mənimsənilməsi üçün əlverişli metodun səmərəliliyini nəzərə almalıdır.

Müəllim həmişə müxtəlif mənbələrdən bəhrələnməli, yeni texnologiyalar, interaktiv təlim metodları, priyomları qabaqcıl müəllimlərin iş təcrübəsi, mətbuatda təqdim olunan dərs nümunələri, müəllimlər üçün metodik vəsaitlərdən öyrənməli, onun peşə potensialı daim müasirləşdirilməli, yaradıcı fəaliyyətinin nəticələri tədris etdiyi fənnin mənimsədilməsi prosesində özünü göstərməlidir.

Təlim prosesi əvvəlcədən müəyyənləşdirilmiş nəticələrə əsaslanır və standartlar şəklində ifadə olunur. Standartlarda müəyyən edilmiş bilik və bacarıqlara şagirdlərin yiyələnmələri təlim prosesində baş verir. Ona görə də dərs

prosesində müəllimin əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdlərin isə hər şeyi öyrənməyə can atan tədqiqatçı kimi yaradıcı funksiyaları təmin olunmalıdır.

Təlim prosesində şagirdlərin fənn üzrə zəruri bilik, bacarıq və vərdişlərə yiyələnmələri üçün onların yaş və psixoloji xüsusiyyətlərinə uyğun metod və texnologiyalardan istifadə olunmalıdır.

Müasir dövrdə düşünə, araşdıra, yaradıcı fəaliyyət göstərə bilən şəxsiyyətin yetişdirilməsi məktəbin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifənin müvəffəqiyyətlə həlli dərsin səviyyəsinin yüksəldilməsindən asılıdır. Bu gün şagirdlərin yaradıcı düşünmə, biliklərə sərbəst yiyələnmə qabiliyyətlərinin inkişaf etdirilməsinə xidmət göstərən texnologiyalardan istifadə etmək tələb olunur.

Həmişə olduğu kimi, bu gün də dərs tədris prosesinin əsasını təşkil edir, çünki müəllim və şagirdlərin təlim fəaliyyəti dərsdə özünü göstərir.

Müasir dərsin əsas xüsusiyyətləri onun forma və məzmununun yeknəsəqlikdən uzaq olması, tətbiq olunan metodların rəngarəngliyi, maraqlılığı, şagirdlərin daim fəaliyyətə cəlb edilmələri, onlarda yaradıcı təşəbbüskarlıq, müstəqillik formalaşdırılmasıdır.

Müasir dərs axtarış, dərketmə, fəaliyyət dərsidir. Dərsdə şagirdin fərdi xüsusiyyətləri, meyil və maraqları, eləcə də cəmiyyətin sifarişi nəzərə alınır.

Bu gün şagird fəaliyyətə müəllimin göstərişi ilə yox, şüurlu şəkildə qoşulur. O, əldə edəcəyi bilik və bacarıqların nə üçün lazım olduğunu başa düşür. Müasir təhsilin qarşısında duran əsas vəzifələrdən biri məhz şagirdlərdə həyati bacarıqları inkişaf etdirmək, onları dəyişən həyat şəraitinə uyğunlaşmağı bacaran şəxsiyyət kimi formalaşdırmaqdır. Həyatdа uğur qazanmaq üçün bu, vacib şərtlərdən biridir.

Hazırda fəal təlim metodları və priyomlarına üstünlük verilir. Dərsin gedişinin əvvəlcədən dəqiq (layihə şəklində) müəyyənləşdirilməsi və təşkili, biliklərin bacarıqlara çevrilməsi, şagirdlərin axtarışa sövq edilmələrinə şəraitin yaradılması, onlarda düşünmə, təqdimetmə və s. bacarıqların formalaşdırılması, dərsin hər bir mərhələsində qiymətləndirmənin aparılması, müəllim-şagird, şagird-şagird münasibətlərinin yaranması, müəllim-şagird fəallığı və s. kimi xüsusiyyətlər məzmun standartlarının reallaşdırılmasına xidmət edir.

Məktəbdə şəxsiyyətlərarası münasibətlərin şəbəkəsi nə qədər geniş olsa da, bu münasibətlərin mərkəzi müəllim-şagird münasibətləridir. İdraki maraq qarşıya qoyulmuş məqsədə çatmaq üçün nə qədər geniş imkan açsa, müəllimin dərsdə maksimum nəticə əldə etməsi üçün onun şagirdlərlə optimal əlaqəsinin olmasına, şagird-müəllim münasibətlərinin düzgün əlaqələndirilməsinə xüsusi diqqət yetirilməlidir. Ona görə də öyrədən və öyrənən arasında münasibətlərin müasir tələblərə uyğun qurulması təlimin keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli təsir göstərə bilər.

Keyfiyyətin yüksəlməsi üçün şagirdlərə biliklərin əldə edilməsi yolları öyrədilməlidir, çünki «öyrənməyi öyrətmək» başlıca məsələdir. Şagirdlərə müstəqil iş bacarıqlarının aşılanması, tədris əməyi vərdişlərinin inkişaf etdirilməsi də zəruri məsələlərdəndir. Müəllim dərsdə aşağıdakı bacarıqların formalaşdırılmasına səy göstərməlidir: təhlil etmək, müqayisə aparmaq, fikrini düzgün ifadə etmək, sübuta yetirmək, qarşılıqlı əlaqələri müəyyənləşdirmək, qərara gəlmək, nəticə çıxarmaq, və s. Bunlarla yanaşı şagirdlərə özünənəzarət bacarıqlarının aşılanması da unudulmamalıdır.

Hazırkı dövrdə problemlərdən biri təlim prosesinin humanistl?şm?, demokratikləşmə, inteqrasiya və s. prinsiplər əsasında qurulmasıdır. Bu prinsiplərə söykənən təlim prosesi şagirdlərin tələbatlarına uyğun qurulan, onların daha çox maraq göstərdikləri (şagirdyönümlü) məqsədəuyğun bir prosesə çevriləcəkdir. Belə şərait özlüyündə şagirdin öyrənmə fəaliyyətini stimullaşdıran bir vasitə rolunu oynayacaqdır. Şagird, bir şəxsiyyət olaraq, təlim prosesinin subyekti kimi təlim tapşırıqlarının yerinə yetirilməsində fəal iştirak edəcəkdir. Məsələnin belə şərhi təlim prosesində yeni yanaşma tərzini ifadə edir.

İdrak məktəbində şagirdlərin nailiyyətlərinin onların fəaliyyətləri əsasında müəyyən olunması, onlara daha çox əldə etdikləri səriştələrə, qabiliyyətlərə görə qiymət verilməsi diqqət mərkəzində dayanır.

Şagirdlərin müstəqil fəaliyyətinin təşkili, onların fəallaşdırılması təhsilə yeni yanaşmaların əsas cəhətlərindəndir. Təlim prosesində interaktivliyin təmin edilməsi müəllim və şagirdlər arasında qarşılıqlı münasibətin, ünsiyyətin yaranmasına səbəb olur. Burada müəllimin əsas rolu – vəzifəsi yerinə yetirilir: şagirdlərə «öyrənməyi öyrətmək».

A.O. Mehrabovun təbirincə, «müasir dərs pedaqoji-psixoloji elmlərin ən yeni uğurlarına söykənməlidir. Dərsin müasirliyini dəyərləndirmək üçün onun xüsusilə əhəmiyyətli olan elmi-pedaqoji səviyyəsi də məhz bu axarda köklənir. Başqa sözlə, dərs təkcə özünün elmi-nəzəri səviyyəsinə görə deyil, həm də pedaqoji konsepsiyasına – yeni pedaqoji təfəkkür ölçüləri ilə qurulmasına görə müasir olur. Müasir bilikləri müasir metodlarla – müasir dərsi ümumi şəkildə belə səciyyələndirmək olar».

İnteraktiv təlim metodları müasir məktəbdə təlimin təşkilinin əsas formalarını müxtəlif vasitələrlə özündə əks etdirir, dərsin səmərəliliyinin yüksəldilməsini təmin edir.

Fəal təlim metodları dərsdə şagirdləri həvəsləndirmək, onların marağını artırmaq, diqqətlərini müəllimə yönəltmək üçün mükəmməl strategiyadan istifadə edilməsini irəli sürür.

Müasir təlim metodlarının tətbiq olunduğu sinif•şəraitində şagirdlərin müstəqil və sərbəst fəaliyyət göstərmələri üçün daha əlverişli mühitin yaradılması tələb olunur. Tədris prosesinin bütün mərhələlərində müəllim şagirdlərlə ünsiyyətdə olur, hər şagirdin müstəqil düşünməsini, sərbəst, cəsarətlə

rəy bildirməsini təşkil edir. Müəllimin yaratdığı demokratik mühit şəraitində keçən dərslərdə müəllim-şagird münasibətləri səmimiyyət, dərin hörmət və məhəbbətlə əvəz olunur, şagirdlərin öz güclərinə, fəaliyyətlərinə dərin inam yaranır. Belə əməkdaşlıq müəllimi şagird üçün əvəzolunmaz şəxsiyyətə, sirdaşa, dosta çevirir.

Fəal təlim metodlarının tətbiqi ilə keçilən dərslərdə müəllim ilk növbədə tədrisin gedişində istiqamətləndirmə, dərketmə və düşünmə proseslərindən istifadə etməklə şagirdləri fəaliyyətə cəlb edir. Bu metodlarla keçilən dərslərdə şagirdlər problemin həllinə həvəslə qoşulur, öz fikir və mülahizələrini bildirir, müzakirə və tədqiqatlarda ruh yüksəkliyi ilə iştirak edirlər. Sinifdə yaradılmış sərbəst mühit şəraitində yoldaşları ilə əməkdaşlıq etmək, onları dinləmək, fikirlərinə qarşı dözümlü olmaq, təklifləri ilə razılaşmaq və ya razılaşmamaq, hər iki halda konkret sübut və dəlillər gətirmək, tənqidi mülahizələrə nəzakətlə yanaşmaq və s. bacarıq və vərdişlərə nail olurlar.

Təlim metodlarının uğurlu tətbiqi müəllimin bacarığından, onlardan istifadə yerini düzgün seçməsindən, öz yaradıcılıq təcrübəsinə istinad etməsindən, ən əsası isə şagirdlərin bu fəaliyyətdə iştirakını təmin edə bilməsindən çox asılıdır.

Fəal təlim metodlarından düzgün istifadə dərsin strategiyasını müəyyənləşdirir.Təlimin normal təşkili onun metodlarının düzgün seçilməsindən asılıdır. Bu metodların əsas funksiyaları təlimedici, tərbiyələndirici və inkişafetdirici xarakter daşıyır. Məlumdur ki, müasir dərs yalnız tədris vəzifələrinin deyil, təlim, tərbiyə və inkişafın bir-biri ilə qarşılıqlı əlaqədə olduğu kompleks vəzifələrin də düzgün planlaşdırılmasını tələb edir. Bu vəzifələr məzmun, metod, priyom, təşkilati forma, bir sözlə, bütün pedaqoji vasitələrin vəhdətində həyata keçirilir.

Ənənəvi didaktik sistemə görə, dərs, əsasən, məzmunun öyrədilməsi məqsədinə xidmət etməli idi, yeni texnologiyaların pedaqoji prosesə daxil olması nəticəsi kimi dərsin təlim, inkişaf və tərbiyə məqsədləri formalaşdı. Beləliklə, təhsil məqsədi kimi, inkişaf və tərbiyə məqsədləri də müasir dərsin atributları hesab olundu.

Şagirdlərə fərdi yanaşmaya dair müasir dərsə verilən bir tələb isə belə ifadə olunmuşdur: şagirdə fərdi qaydada tədris materialını öyrənməyə şəraitin yaradılması, hər bir şagirdin səviyyəsi, meyli, qavrama qabiliyyəti və emosional xüsusiyyətləri nəzərə alınmaqla, onlara fərdi yanaşılmasıdır. Təlim prosesində şagird və müəllim münasibətlərinin «subyekt-subyekt» münasibətləri əsasında qurulması tələb olunur.

Dərsin müəllimin əsəri hesab edən prof. V.C.Xəlilov yazır: «Bəli, pedaqoji prosesin əsas özəyini, canını təşkil edən dərs belə yüksək qiymətə layiqdir. Pedaqoji prosesin əsas, həlledici mərhələsi olan dərs klassik mahiyyət

kəsb edir. Zaman, illər, əsrlər keçsə də, o öz əhəmiyyətini itirmir, əksinə, daha çox diqqət və qayğı obyektinə çevrilir».

V.C.Xəlilov daha sonra klassik müddəalara, klassik yanaşma tərzlərinə laqeydlik göstərənlərə də toxunur, onların diqqətini akademik M.Mehdizadənin «Dərsə verilən müasir tələblər» mövzusunda məşhur məruzəsinə yönəldir. «Həmin tələblər bunlardır: təlimin bütün məzmununda elmiliyin təmin edilməsi; dərsdə bütün şagirdlərin məhsuldar işlə təmin edilməsi, onların idrak fəaliyyətinin və müstəqilliyinin qüvvətləndirilməsi; dərsin quruluşu, təlimin müxtəlif metod və priyomlarından dərslərdə istifadə edilməsi; dərsdə problem-situasiyanın yaradılması; əks-əlaqə məsələsi; tədris prosesinin intensivləşdirilməsi; təlimdə müasir texniki vasitələrin tətbiqi və s.

Həyat göstərir ki, həmin pedaqoji tələblər, ideyalar müasir dövrdə də öz əhəmiyyətini saxlamışdır».

1970-ci illərin əvvəllərində akademik M.N.Skatkin dərs problemi haqqında yazırdı: «Dərs pedaqoji prosesin bu və ya digər dərəcədə bitmiş bir parçası, yaxud hüceyrəsidir. Günəş bir damla suda əks olunduğu kimi, təlimin bütün cəhətləri də dərsdə əks olunur».

Tədqiqatlar göstərir ki, dərsdə müxtəlif təlim metodları və priyomlarından bacarıqla istifadə etməklə onu intensivləşdirmək və təlim keyfiyyətini yüksəltmək mümkündür.

**ədəbiyyat**

1. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: «Adiloğlu», 2006. №1
2. Kərimov Y.Ş. Bir daha dərs haqqında. «Məktəbəqədər və ibtidai təhsil», 2010, № 11
3. İbadova B. Müasir dərs necə olmalıdır? «Kurikulum», 2009, № 4
4. Əlizadə Ə. Yeni pedaqoji təfəkkür. Bakı: «Adiloğlu» nəşriyyatı, 2001
5.Mehrabov A.O.Azərbaycan təhilinin müasir problemləri. Bakı: «Mütərcim»,2007
6. Xəlilov V.C. Dərs müəllimin əsəridir. «Azərbaycan müəllimi», 2001, № 38.

**Современный урок и его особенности**

**резюме**

Урок сегодня, как и всегда, составляет основу учебного процесса. Учебная деятельность учителя и учащихся выявляется именно на уроках. Современный урок – это урок поиска, познания и деятельности. Функции учителя и учащихся меняются в соответствии требованием урока: учитель ориентирует, ученик ведет исследования.

В статье комментируются особенности современного урока.

**Modern lesson and its features**

**summary**

Today a lesson as always is the basis of educational process. Training activities of a teacher and pupil are revealed at the lessons. Modern lesson is a lesson of search, knowledge and activity. Funetion of a teachers and pupils vary according to the requirements of a lesson: teacher orients, a student conducs research.

The article comments features of modern lesson.

# XALQ PEDAQOGİKASINDA KÖRPƏ UŞAQLARIN TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ

**Mehriban Şirzadova,**
ARTPİ-nin doktorantı,
pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər:** xalq pedaqogikası, tərbiyə, körpə uşaqlar, laylalar, dəyərlər, milli, ümumbəşəri, mənəvi keyfiyyətlər
**ключевые слова:** народная педагогика, воспитание, дети раннего возраста, колыбельные песни, ценности, национальные, общечеловеческие, духовные качества
**key words:** national pedagogy, education, young children, lullabies, values, national, human and spiritual qualities

Müstəqil Azərbaycan vətəndaşının milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi və formalaşmasında xalq pedaqogikası zəngin, tükənməz və qiymətli mənbədir. Xüsusilə gənclərin, ilk növbədə isə məktəbəqədər yaşlı uşaqların dünyagörüşünün, psixologiyasının, əxlaqi-mənəvi keyfiyyətlərinin formalaşmasında, onların hərtərəfli inkişaf etmiş kamil vətəndaş kimi böyümələrində xalq pedaqogikasının imkanları genişdir.

Təkzibolunmaz bir həqiqətdir ki, əsrlərdən əsrlərə süzülərək gələn şifahi xalq ədəbiyyatı, folklor nümunələri – nağıllar, tapmacalar, bayatılar, xalq mahnıları, mövsüm-mərasim nəğmələri, dini bilgilər, aşıq şeirləri və s. ata-babalarımızın mənəvi keyfiyyətlərinin formalaşmasının mühüm vasitələrindən biri olmuşdur.

Folklor nümunələri xalqın min illərlə formalaşan və dövrümüzə qədər gəlib çatan zəngin sərvətidir. Xalqın zəngin milli-mənəvi sərvətinin böyük bir hissəsini təşkil edən folklor nümunələri körpə uşaqlarla aparılan tərbiyəvi işin əsasını təşkil edir.

Bu problem tanınmış folklor araşdırıcıları M.H.Təhmasib, A.Babayev, P.Əfəndiyev, M.Həkimov və b. ilə yanaşı pedaqoqlar tərəfindən də araşdırılmış və çox dəyərli əsərlər yazılmışdır. Bu işdə məşhur professor Ə.Ş.Həşimovun və F.B.Sadıqovun xidmətləri böyükdür.

Məlumdur ki, tərbiyə prosesi dərin köklərlə xalqın həyatı, çoxəsrlik təcrübəsi adət-ənənələri ilə sıx bağlıdır. Xalqımızın müstəqil bir millət kimi inkişaf etməsi uşaq və gənclərin milli-mənəvi və dini dəyərlərlə yanaşı, xalqın tarixi keçmişindən, xalq hikmətlərindən tərbiyə prosesində istifadə etməyə əlverişli şərait yaratmışdır. Xalq hikmətləri tarixin sınaqlarından çıxmış, onun qan yaddaşından

bulaq suyu kimi süzülərək əsrlər boyu yaşamaq və yaratmaq qanunnaməsinə çevrilmiş, öz təravətini saxlamış, milli çərçivədən çıxaraq ümumbəşəri mahiyyət kəsb edən beynəlxalq tərbiyə məcəlləsinə çevrilmişdir. Bəşər cəmiyyətinin inkişaf tarixi belə bir həqiqəti təsdiq edir ki, böyük və kiçikliyindən asılı olmayaraq bütün xalqların irəli sürdükləri ideyalar, fikirlər, atalar sözləri, hikmətlər arasında bir yaxınlıq, oxşarlıq, doğmalıq var. Bu oxşarlıqda xalqların adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin, uşaq və gənclərin tərbiyəsinə verilən tələblərin, tətbiq edilən tərbiyə yollarının vəhdəti açıq-aydın görünür.

Məlum həqiqətdir ki, dil sözdən, söz isə qələmdən əvvəldir. Söz sənətində isə birincilik laylalara, əzizləmələrə, bayatılara məxsusdur. Xalqın mənəvi-estetik sərvəti olan şifahi xalq ədəbiyyatı, milli-mənəvi dəyərlərimiz xalq pedaqogikası üçün çox böyük mənbədir.

Bu mənada bəşəri xarakter daşıyan xalq pedaqogikası, xalq hikməti bütün xalqlar, millətlər üçün faydalıdır. Məhz buna görədir ki, alimlər, hikmət sahibləri xalq pedaqogikasını "kütlələrin kamal dünyası, həyat dərsliyi" adlandırırlar.

Məktəbəqədər yaşlı uşaqların inkişafında da məhz bu "həyat dərsliyindən" istifadə edilir. Uşağın tərbiyəsinin əsası körpəlikdə qoyulur. O, öz inkişafında bir neçə mərhələ keçir.

**Birinci mərhələ** hazırlıq mərhələsidir. Bu mərhələdə – uşağın həyatının birinci ilində böyüklərdən eşitdiyi nitq səslərinə fərqləndirici münasibət yaranır və o, bu səsləri başqa səslərin təsirindən üstün tutur. Eyni zamanda nitq səslərinə, fonoloji eşitmənin xarakterinə fərqləndirici həssaslıq formalaşır. Fonoloji eşitmənin inkişafı və böyüklərin nitqinə maraq həyatın birinci ilinin sonuna qədər körpədə qeyri-fəal nitqin inkişafını təmin edir, ətrafdakıların nitqinin başa düşülməsinə zəmin yaradır. Bu dövrdə ana laylasının rolu böyükdür. Laylalar həzin səslə, ahəngdar ritmlə oxunur, körpə yuxuya gedir.

Nərgizi üzüm, laylay,
Yaxana düzüm, laylay.
Sən böyü, mən sevinim,
Toyunda süzüm, laylay.

Laylay dedim boyunca,
Baş yastığa qoyunca .
Təzə-tər qızılgülü
Bir iyləyim doyunca.

Laylay dedim yatasan,
Qızılgülə batasan.
Qızılgüllər içində
Şirin yuxu tapasan.

Evim-eşiyim laylay,
Sən get şirin yuxuya,
Çəkim keşiyin, laylay.

Laylası şirin bala,
Yuxusu dərin bala!
Tanrıdan əhdim budur:
Toyunu görüm, bala!

Atıban tutdum səni,
Əcəb ovutdum sən.
İllərlə cəfa çəkdim,
Şükür, böyütdüm səni.
Balam laylay, a laylay.
Gülüm laylay, a laylay.

**İkinci mərhələ** nitqin yaranması mərhələsidir. Onun çərçivəsində uşaqlarda ətrafdakıların nitqinin başa düşülməsinin intensiv inkişaf prosesi gedir və onlar fəal nitqi mənimsəyirlər. Uşaqlar ünsiyyət prosesində mənimsədikləri nitq qabiliyyətlərindən istifadə edirlər. Bu, həyatın birinci və ikinci ilində baş verir. Nitqin yaranması fonoloji eşitmənin intensiv surətdə formalaşması, sözləri mənimsəməklə və onlardan ətrafdakılarla ünsiyyət zamanı istifadə etməyə səy göstərməklə əlaqədardır. Həyatın ikinci ilində uşaqlar ana dilinin fonemlərinə yüksək həssaslıq nümayiş etdirirlər.

**Üçüncü mərhələ** nitq ünsiyyətidir. Nitq inkişafının keçid dövründə ana dilinin quruluşunun – leksikasının, qrammatik formalarının mənimsənilməsi prosesi başlanır. Onun təkmilləşməsi nitq inkişafının bu mərhələsinin əsas məzmununu təşkil edir.

Mənadan başqa uşaqları sözlərdə, ifadələrdə səslərin birləşməsi, onların sürəti və intonasiyası maraqlandırır. Qədim dövrlərdən uşaqların bu marağı böyüklərin nəzərindən qaçmamış və özünəməxsus musiqili, ritmik folklor nümunələrinin yaranmasına səbəb olmuşdur.

Balama qurban inəklər,
Balam nə vaxt iməklər?
Balama qurban alçalar,
Balam nə vaxt əl çalar?
Balama qurban buzovlar,
Balam nə vaxt düz oynar?

Bala dadı, bal dadı,
Xoş günləri daldadır.
Şirini şirin olur,
Acısı da bal dadır.

Cənnət tək obanız olsun,
Bir belə balanız olsun.
Hamıya beş- beş olsun,
Qoy bizdə on beş olsun.

Beləliklə, erkən yaş dövründə söz uşaq üçün müstəsna əhəmiyyət kəsb edir, məzmununu və səslənməsini mənimsədiyi xüsusi predmet olur. Məhz bu dövrdə körpə uşağın mənəvi tərbiyəsinin əsası qoyulur, anaya, torpağa bağlılıq təlqin olunur.

**ədəbiyyat**

1. Ağayev Ə.Ə. Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz. Bakı: "Elm", 2000
2. Əfəndiyev P.Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: "Maarif", 1981
3. Əhmədli S. Analar köç edəndə. Bakı: "Elm", 2012
4. Həşimov Ə.Ş. Azərbaycan uşaq ədəbiyyatında tərbiyəvi fikirlər.Bakı:"Gənclik", 1958
5. Həşimov Ə.Ş. F.B.Sadıqov. Azərbaycan xalq pedaqogikası. Bakı: "Patronat", 1993
6. Həşimov Ə.Ş.Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri.Bakı: "Maarif", 1976
7. Həsənov A.M. Azərbaycan uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə. Bakı: "MM– S", 1997
8. Həsənov A. Kiçikyaşlı məktəblilərin vətənpərvərlik tərbiyəsi. "İbtidai məktəb və məktəbəqədər tərbiyə". 1985, № 6

**Вопросы воспитания детей раннего возраста в народной педагогике**

**резюме**

В статье раскрывается сущность устного народного творчества. Указывается его роль в воспитании детей дошкольного возраста. Приводятся примеры разных жанров, используемых в воспитании детей раннего возраста. Автор отмечает не только национальные, но и общечеловеческие ценности Азербайджанского устного народного творчества.

**Issues of education young children in the national pedagogy**

**summary**

The article reveals the essence of folklore. Indicated its role in the education of the children of preschool age. The examples of different genres used in the education of his children early age. The author notes, not only national, but also human values Azerbaijan velocity of folklore.

# ПРЕЕМСТВЕННОСТЬ ДОШКОЛЬНОГО И ШКОЛЬНОГО ОБУЧЕНИЯ ДЕТЕЙ

**Земфира Асадова,**

заведующая детским садом № 175 г. Баку



**ключевые слова**: воспитание, преемственность, обучение, формирование, мультимедийные технологии, разговорная речь, качество знаний

**açar sözlər**: tərbiyə, varislik, tədris, formalaşma, multimedia texnologiyaları, danışıq dili, bilik səviyyəsi

**key words**: education, inheritance, formation, multimedia technology, speaking, the level of knowledge

Формирование познавательной деятельности детей, повышение качества их обучения, интеллектуальное развитие, обеспечение преемственности дошкольного и школьного обучения являются основными направлениями детского сада и школы.

Работа по обеспечению преемственности проводится по плану. С целью результативности используются различные формы совместной деятельности воспитателя и учителя, а именно: посещение детского сада и школы, семинары, педсоветы, взаимопосещения занятий и уроков в детском саду и школе, мероприятия с участием детей из детского сада и учащихся начальной школы и др.

Важнейшим условием эффективности работы по налаживанию преемственных связей является контакт между воспитателем подготовительной группы и учителем 1-го класса начальной школы. Задача детского сада за-

ключается в том, чтобы обеспечить формирование у детей готовности к обучению в школе.

На занятиях по развитию воспитанников детского сада и учащихся 1-го класса начальной школы используются новые педагогические технологии. В детском саду и начальной школе применяются мультимедийные технологии в виде компьютерных программ, слайд-фильмов и презентаций. Компьютерные программы обычно приобретают готовыми, а создание слайд-фильмов и презентаций по силам воспитателям и учителям начальной школы.

Создавая фильмы и презентации необходимо учитывать особенности детей, цели и задачи, поставленные на конкретном занятии. Компьютерные продукты, как правило, вызывают интерес у детей, формируют их активность, развивают речь и т.д.

Успешность этой работы зависит от того, насколько реализуется принцип преемственности между воспитателем подготовительной группы детского сада и учителем 1-го класса начальной школы. Вот почему желательно, чтобы учитель, который готовится работать в 1 классе, посещал занятия воспитателя детского сада.

Нередко проводятся совместные методические совещания, на которых обсуждаются конкретные вопросы, связанные с формами и методами достижения определенных результатов обучения. Вся такая работа имеет большое педагогическое значение. Однако наряду с ней необходимо планировать и собственное содержание обучения.

Дифференциация материала с учетом уровня владения им дошкольниками и первоклассниками позволяют воспитателю и учителю избежать не только завышенных требований к детям, но и регламентировать учебный процесс, нацелить его на получение реальных результатов.

Наблюдения и беседа с воспитателем подготовительной группы детского сада № 111 г. Баку Пириевой Ф.З. показывают, что дети дошкольного возраста обладают преимущественно образным и конкретным мышлением. Формирование и развитие умений, навыков устной разговорной речи в подготовительной группе проводится в игровых учебных ситуациях по темам окружающей действительности (с использованием игрушек, предметов одежды и обуви, продуктов питания, посуды, овощей, фруктов и т.д.). Преимущественно этими же приемами продолжают развивать устную речь первоклассников в начальной школе.

Bəs sözlərin həqiqi, yoxsa məcazi mənasını necə fərqləndirmək olar? Bunu əyani başa salmaq və suala cavab tapmaq üçün şagirdləri qruplara ayırıram. Qrupları "İSİM", "SİFƏT", "SAY", " FEL" adlandırıram.

**İşçi vərəqi № 1 ("İSİM" qrupu)**

**Mətndə məcazi mənada işlənmiş sözü tap.**

"Aysellə Aytel nənəsigilə gedirlər. Hava günəşli və çox isti idi. Nənənin evi kəndin başında idi. İsti uşaqları karıxdırmışdı".

**İşçi vərəqi № 2 ("SİFƏT" qrupu)**

**Hansı cümlədə *baş* sözü *rəhbər* mənasında işlənib?**

*A) Dörd baş inək hələ örüşdən qayıtmamışdı.*
*B) Əsgərlər bayrağı binanın başına asdılar .*
*C) Baş həkim xəstənin vəziyyəti ilə maraqlandı .*
*D) Xəstənin baş nahiyəsindən aldığı yara ciddi idi.*

**İşçi vərəqi № 3 ("FEL"qrupu)**

**Aşağıdakı ifadələri cümlədə işlədin:** *göz ağartmaq; göz vurmaq; gözü götürməmək; göz qoymaq ; göz-qaş etmək ; özünü gözə soxmaq ; göz yummaq*

**İşçi vərəqi №4 ("SAY" qrupu)**

***Çalmaq* sözünü dörd cümlədə müxtəlif mənalarda işlədin.**

Qruplara vaxt verirəm.Yerinə yetirib qurtardıqdan sonra qrup liderləri işlərini təqdim edirlər. Qrupların işini meyarlarla qiymətləndirirəm. Uşaqlar kitabda verilmiş tapşırıqlardan bir neçəsini müzakirə yolu ilə yerinə yetirirlər. Teymur Elçinin dərslikdə verilmiş "Göz" şerini oxumazdan əvvəl şagirdlərə tapşırıram ki, diqqətlə qulaq assınlar və şeirdə verilmiş "göz" sözünün mənasını qeyd etsinlər. Kim daha çox söz birləşməsi yazsa, o, qalib hesab ediləcək.

Şagirdlər *adamın gözü, səhərin gözü, heyvan gözü, bulağın gözü, quş gözü, quyunun gözü, dama taxtasının gözü, pəncərənin gözü, binoklun gözü, şkafın gözü, duzqabının gözü, stolun gözü, gözlüyün gözü, mənzilin gözü, tərəzinin gözü* söz birləşmələrini yazırlar .

**Nəticə və qiymətləndirmə.** Şagirdlər belə nəticəyə gəlirlər ki, çoxmənalı sözün konkret mənası cümlədə işləndikdə bilinir. Dərsdə fəal iştirak edən şagirdləri qiymətləndirirəm .

**Ev tapşırığı:** Sinifdə işlətmədiyimiz on yeni sözü həqiqi və məcazi mənada cümlədə işlədin.

# MUSİQİ MƏŞĞƏLƏLƏRİNDƏ MUSİQİLİ-DİDAKTİK OYUNLARIN ROLU

**Günay İsmayılova,**
Bakı şəhəri, Binəqədi rayonu 272 nömrəli
körpələr evi-uşaq bağçasının musiqi rəhbəri

**açar sözlər:** məktəbəqədər yaş dövrü, musiqi, musiqi rəhbərlərinin rolu, eşitmə qabiliyyəti, musiqili-didaktik oyunlar, əqli və fiziki inkişaf

**ключевые слова:** дошкольный возраст, музыка, роль музыкальных руководителей, музыкальный слух, музыкально-дидактические игры, умственное и физическое развитие

**key words:** children under school age, music, role of the musical chiefs, ability of hearing, musical-didaktik plays, mental and development physically



Məktəbəqədər yaş dövrü musiqini eşitmə təcrübəsinin, mahnı oxuma qabiliyyətinin üzə çıxarılması, rəqs elementlərinin, sadə musiqi biliklərinə yiyələnməyin ən əlverişli mərhələsidir.

V.A.Suxomlinski demişdir: "Uşağın mənəvi həyatının mükəmməlliyi onun oyunlar, nağıllar, musiqi, fantaziya, yaradıcılıq aləmində yaşamasından asılıdır".

Əqli və fiziki inkişafın, mənəvi təmizliyin, həyata və incəsənətə estetik münasibətin harmonik vəhdəti – hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün vacib olan şərtlərdəndir.

Məktəbəqədər müəssisələrdə musiqi rəhbərlərinin uşaqlarla həyata keçirdiyi düzgün təşkil edilmiş musiqi tərbiyəsi bu məqsədə çatmaq üçün şərait yaradır. Məktəbəqədər yaşlı uşaqların böyük və gözəl musiqi aləminə ilk addımlarını atmalarında məhz müsiqi rəhbərləri çox böyük kömək göstərirlər.

Körpələrin musiqi qabiliyyətini inkişaf etdirmək üçün ilk növbədə onlarla fərdi iş aparmaq, hər birinin musiqi duyumunu diqqətlə öyrənmək lazımdır. Bu baxımdan musiqi rəhbərləri böyük məsuliyyət daşıyırlar.

Məktəbəqədər yaşlı uşağın musiqi hazırlığının səviyyəsi musiqi rəhbərinin zövqündən, bilik dərəcəsindən, peşəkarlığından, təcrübəsindən, mənəvi simasından asılıdır. Uşaqların musiqi-estetik inkişafını uğurla həyata keçirmək üçün musiqi rəhbəri məktəbəqədər pedaqogika və psixologiyanın əsaslarını, uşaq bağçasında tərbiyə proqramını, musiqi tərbiyəsinin nəzəriyyəsi və metodikasını, uşaq musiqi ədəbiyyatını bilməlidir.

Uşaq mahnıları, rəqslər, instrumental pyeslərin dinlənilməsi uşaqlara son dərəcədə faydalı təsir bağışlayır. Oyunlardan, məşğələlərdən qaynaqlanan təəssüratlar uşaqların fikir və hisslərində dərin izlər buraxır. Bədii-emosional atmosferin yaradılması uşağın sağlamlığının, xoş əhvali-ruhiyyəsinin rəhnidir.

İncəsənət əsərlərini qavramaq, onlardan faydalanmaq və onların vasitəsilə həyat hadisələrinə öz münasibətini bildirmək bacarığı artıq uşaq bağçasında məşğələlərdə, gündəlik həyatda, oyunlar və əyləncələr zamanı qazanılır.

Əyləncələr özündə müxtəlif incəsənət növlərini birləşdirir. Əyləncənin qısa formaları, incəsənətin müxtəlif növlərinin kompleks təsiri, əlverişli və maraqlı olması uşaqlara güclü təsir bağışlayır və tərbiyə məsələlərinin effektli həllinə şərait yaradır.

Uşaqların təhsilinə, sensor tərbiyəsinə, ahəngdar inkişafına, başqa problemlərin həllinə musiqili-didaktik oyunlar çox böyük kömək göstərir.

Kukla teatrı tamaşaları, bədii-musiqili kompozisiyalar, nağılların səhnələşdirilməsi, uşaqlar və ya böyüklər tərəfindən oynanılan səhnəciklər uşaqları düşünməyə vadar edir, onların dünyagörüşünü artırır.

Musiqi sahəsində psixoloji axtarışlar nəticəsində alimlər belə bir qənaətə ğəlmişlər ki, musiqi duyumu ğüclü olan uşaqların nəinki mənəviyyatı, ümumiyyətlə əqli inkişafı, təfəkkürü, düşünmə qabiliyyəti sürətlə inkişaf edir. Onlar hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşırlar.

Ən kiçik yaşlardan uşaqların musiqi qabiliyyətini inkişaf etdirmək, musiqi duyumunu təkmilləşdirmək çox vacibdir.

Müxtəlif məzmun və tapşırıqlardan ibarət olan musiqili-didaktik oyunlar uşaqlarda musiqi dinləmə qabiliyyətini formalaşdırır, səsin hündürlüyünü, tembrini, gücünü və uzunluğunu müəyyən etməyə imkan yaradır, həmçinin ritmik və dinamik eşitmə qabiliyyətini inkişaf etdirir. Eşitmə qabiliyyəti isə uşaqların sərbəst musiqi fəliyyətlərini üzə çıxarılmasına şərait yaradır.

Musiqili-didaktik oyunlar zamanı uşaqların həll etməli olduqları müxtəlif tapşırıqlar onlardan həm əqli, həm də iradi bacarıqlar, mütəşəkkillik, mətanət, oyunun qaydalarına riayət olunmasını tələb edir, öz maraqlarını kollektivin maraqlarına tabe etməyi, diqqətliliyi, zirəkliyi, təşəbbüskarlığı inkişaf etdirir.

Musiqili-didaktik oyunların köməyi ilə pedaqoqlar məktəbəqədər yaşlı uşaqları musiqi əsərlərinin forma və janrına aid sadə anlayışlarla tanış edirlər.

Uşaqların müstəqil fəaliyyətlərində musiqi məşğələlərində keçirilən musiqili-didaktik oyunlar müəyyən bilikləri möhkəmləndirir. Onlar oxuyur, musiqi dinləyir, musiqi alətlərində ifa edir, ritmik hərəkətlər göstərirlər. Bu zaman uşaqlarda yaradıcılıq fəallığı, diqqətlilik, təşəbbüskarlıq, sərbəstlik kimi xüsusiyyətlər formalaşır, musiqi zövqləri inkişaf edir.

Musiqili-didaktik oyunlar 3 növ olur: süjetli-rollu, stolüstü, hərəkətli. Hər oyun səsin müxtəlif xüsusiyyətlərinin (hündürlüyü, tembri, dinamikası və ritmi) mənimsənilməsinə xidmət edir. Maraqlı, əyləncəli, rəngarəng tərtib edilmiş musiqili-didaktik oyunlar uşaqlarda yüksək əhvali-ruhiyyə yaradır. Belə oyunlardan bir neçəsinə nəzər salaq.

I. Böyük qrup üçün **"Yeilləncək"** musiqili-didaktik oyunu. (sözləri M.Dolinovun, musiqisi Y.Tiliçevanındır). Bu oyun səs yüksəkliyinin qavranmasının inkişafına istiqamətlənmişdir.

**Resurslar:** kiçik kartoçkalar (Bəzilərində kartoçkanın yuxarı, digərlərində aşağı küncündə yelləncək şəkli təsvir olunub.), metallofon, stolüstü arakəsmə.

**Oyunun gedişi.** Musiqi rəhbəri və ya tərbiyəçi uşaqlara "Yelləncək" mahnısını oxumağı təklif edir, mahnıya xas olan səsləri uşaqların yadına salaraq, metallofonda ifa edir. Sonra hər uşağa bir kartoçka verərək, hündür və ya alçaq səsləri ifa edib soruşur:

– Yelləncəklər indi harada olmalıdır – yuxarıda, yoxsa aşağıda?

Uşaqlar müvafiq kartoçkaları qaldırırlar.

II. Orta qrup üçün **"Fikirləşib tap"** musiqili-didaktik oyunu. Bu oyun uşaqlarda yüksək musiqi səslərinin inkişafı və proqram materialının təkrarı məqsədilə keçirilir.Uşaqlara dovşan, ayı və sərçənin təsvirləri olan kartoçkalar paylanır. Musiqi rəhbəri "Dovşan", "Sərçə", "Ayı" melodiyalarını ifa edir, uşaqlar müvafiq kartları qaldırırlar. Oyunda istənilən sayda uşaq iştirak edə bilər.

**"Musiqili ev".** Musiqi rəhbəri uşaqlara "Musiqili ev" şəklini göstərir və deyir ki, bu, qeyri-adi evdir. Bu evdə müxtəlif musiqi alətlərində ifa edən musiqiçilər yaşayırlar. Musiqi rəhbəri uşaqlara tanış olan uşaq musiqi alətlərində (Alətlər arakəsmənin axasında gizlədilir) ifa edir. Sonra uşaqları bir-bir çağırır. Aləti səsindən tanıyan uşaq üzərində müxtəlif musiqi alətlərinin şəkli olan masaya yaxınlaşıb, səsini eşitdiyi alətin şəklini tapmağa çalışır. Tapdığı şəkli "Musiqili ev"in boş pəncərəsinə qoyur. Oyun başqa uşaqlarla da davam etdirilir.

**"Şən-qəmgin".** Musiqinin xarakterini aydınlaşdırmaq məqsədilə keçirilən bu oyunda 2 uşaq (gülümsəyən, qəmgin görünüşlü) şəkli göstərilir. Şən musiqi səslənəndə gülümsəyən, qəmgin mahnıda qəmgin uşaq şəklinin üstünə fişka qoyurlar. Beləliklə, oyun davam edir.

Bir daha qeyd edək ki, məktəbəqədər yaşlı uşaqların musiqi tərbiyəsində didaktik oyunların rolu böyükdür.

**ədəbiyyat**


1.Комиссарова Л.Н., Э.П.Костина. Наглядные средства в музыкальном воспитании дошкольников. Москва: «Просвещение», 1986

2. Ветлугина Н.А. «Музыка в детском саду». Москва, 1990

3.Арзамасцева Н. Аспекты формирования музыкальных способностей. «Дошкольное воспитание», Москва, 2009, № 7


**Роль дидактических игр на музыкальных занятиях**

**резюме**


В статье говорится о музыкальном воспитании детей разных групп детского сада. Обращается внимание воспитателей на формирование у дошкольников внимания, интереса к музыке, приобретение у них исполнительских навыков, а главное – вовлечение детей в разные виды музыкальной деятельности.


**The role of educational games for music lessons**

**summary**


The article refers to the musical education children of different groups of kindergarten. Attention is drawn to restore feeders at developing preschoolers attention, interest in music, purchase them or use sumer-skills, and most importantly the involvement of children in different types of musical activity

# TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNİN TƏŞKİLİ

**Nazim Məmmədbəyov,**
ADMİU-nun «Səda» tədris teatrının
bədii quruluş hissə mudiri



**açar sözlər:** rəsm, karandaş, quaş, akvarel (sulu) boyası, fırça, yapışqan, vatman kağızı, karton, yaradıcılıq meyli

**ключевые слова:** рисование, карандаш, гуашь, акварельные краски, кист, клей, ватман, картон, склонность к созиданию

**key words:** drawing, pencil, gouache, watercolor, paint, brushes, glue, construction paper, cardboard, propensity for creativity

Məlumdur ki, uşaqlar rəsm çəkməyi çox xoşlayırlar. Onlar karandaşla, flomasterlə, quaşla, akvarellə kağız üzərində, tabaşirlə asfaltda, sal daşlarda, sığallı qayalarda bacardıqları kimi şəkil çəkə-çəkə öz heyrətlərini bildirirlər. Uşaqlar I sinifdə daha çox şəkil çəkirlər, lakin təcrübə göstərir ki, III sinifdən başlayaraq onlar öz bacarıqlarına inamsızlıq göstərir, şəkil çəkməklə az məşğul olurlar. Onlar öz fantaziyaları ilə fəaliyyətə yox, kitabdakı şəkillərin surətini çəkməyə daha çox meyil göstərirlər. Bəzi uşaqlar şəkil çəkmək yaradıcılığına ciddi yanaşırlar. Onlara elə gəlir ki, artıq yaşlılarla tən gəlmək, «onlar kimi çəkmək» zamanı yetişib. Təcrübədə isə bu, istənilən kimi alınmır və onlar «uğursuzluqlardan» məyus olmağa başlayırlar. Bu zaman ortaya çıxan problemlərdən uşaqları çəkindirmək vacibdir. Əvvəla, uşaqları karandaş və boya ilə təkbətək qoymaq olmaz. Onlara bütün bu ləvazimatlardan istifadə qaydalarını öyrətmək lazımdır. İkincisi, onlar nəzarətsiz qalanda çəkdikləri zəif şəkillərə baxaraq məyus olur, həvəsdən düşürlər.

Müəllim uşaqların fantaziyalarına mane olmamalı, səhvlərini başa salmalı, rəsm çəkməkdə onlara düzgün yol göstərməlidir. Bundan ötrü müəllim yüksək zövq, incəsənət haqqında məlumatlarla yanaşı, pedaqoji və psixoloji biliklərə d? malik olmalıdır.

Elə materiallar seçmək lazımdır ki, onlardan aşağı siniflərdə istifadə etmək mümkün olsun. Karandaşları, ağ və rəngli kağızları, yağlı boyanı, yapışqanları, qayçını, iynə-sapı, müxtəlif parçaları və başqa ləvazimatları, onlardan istifadə qaydalarını nümayiş etdirmək lazımdır (karandaşı necə yonmaq, boyanı su ilə qarışdırmaq, fırça ilə boyanı götürmək, yapışqanla işləməyi bacarmaq və s.). Bəzən adama elə gəlir ki, bunlar hamısı xırda şey-

lərdir, lakin unutmaq olmaz ki, sənətkarlıq xırda şeylərdən başlayır. Adi karandaşı götürək. Bu, ilk baxışdan sadə görünsə də, onunla düzgün işləmək şagirddən az zəhmət tələb etmir.

Karandaşlar yumşaq və nisbətən bərk olur. Rəsm çəkən həvəskarlara tövsiyə olunur ki, M-2 markalı karandaşlardan istifadə etsinlər. Bərk karandaşlar, demək olar ki, bu işə yaramır. Bu karandaşlar aydın olmayan, zəif cizgilər çəkməyə imkan verdiyindən uşaqları bezdirə, onlarda rəsmə həvəsi öldürə bilər. Akvarel boyası mürəkkəb rəssamlıq materiallarından biri olduğundan peşəkar rəssamlar özləri də buna asanlıqla yiyələnə bilmirlər.

Fikrimizcə, rəsmə quaşla çəkməkdən başlamaq daha sərfəlidir. Bədii quaş dəstlərindən başqa, istifadəsi çətin olan rənglər də var, məsələn, xüsusi bankalardakı ağ rəngi misal göstərmək olar. Bəzi xüsusiyyətlərinə görə ağ rəngin istifadəsi mürəkkəbdir.

Ağ rəngli boya nə üçün lazımdır? Ağ boya ilə bütün rəngləri qarışdırmıq mümkündür. Boya kağıza yaxşı hopsun deyə, onu kağıza asan yayılana qədər qarışdırmıq tələb olunur. Ağ rəng çox olduqca rəngin tonu daha da işıqlı olur. Ağ boyada rəng tonunun quruması həmişə nəmli işıq fonu yaradır.

Rəsm çəkməyə təzə başlayan uşaqlara rəngləri qarışdırmağı öyrətmək lazımdır. Qırmızı, yaşıl, mavi və başqa boyaların müxtəlif çalarlarını axtarıb tapmaqda onlara kömək etmək vacibdir.

Rəng tonları isti və soyuq olur, məsələn, yaşıl, göy, mavi, çəhrayı rənglər soyuqluq, qırmızı, narıncı, sarı, palıdı rənglər istilik, hərarət təsiri bağışlayır.

İsti və soyuq tonların qarışığı, bir qayda olaraq, nisbətən soyuq tonun yaranmasına səbəb olur. Rənglər, əsasən, palitrada qarışdırılır. İşə başlamazdan əvvəl palitra təmiz olmalıdır.

Rəngləri qarışdırarkən axtarılan tonu ayrıca kağız üzərində yoxlamaq lazımdır. Kağızın quru və ya nəm olması da mühüm əhəmiyyət kəsb edir. Fırçalar yumru, yastı, sərt, yumşaq, böyük, balaca, uzun, qısa olur. Fırçadan tələb olunan qaydada istifadə etmək əsas şərtlərdən biridir. Yumşaq fırça yüngül boya ilə işləmək üçün əlverişlidir. Bu fırçalar akvarel və duru quaş üçün nəzərdə tutulur. Sərt və möhkəm fırçalarla qatı boyalar yaxılır.

Fırçadan istifadə etməzdən əvvəl onu yuyub, yumşaq əski ilə təmiz silmək lazımdır. Rəng fırçanın ucu ilə götürülür. İş qurtardıqdan sonra onu yenə yumaq, yumşaq əski ilə qurulamaq lazımdır.

Çəkilən rəsmin keyfiyyəti kağızdan da asılıdır. Xüsusi rəssam karandaşı ilə çəkmək üçün vatman tipli, davamlı kağızı olan albomdan istifadə etmək lazımdır. Belə kağızda karandaşın izləri asanlıqla pozulur. Kələ-kötür səthli kağızlar üzərində şəkil çəkmək məmnunluq hissi yaradır. Belə kağızlar möhkəmlikdə digərlərindən geri qalmır.

Nazik kağızda şəkil keyfiyyətsiz alınır. Bu kağızların üzərində akvarellə, tabaşir və tuşla eskizlər etmək daha məsləhətdir.

Yazı yazmağa yararlı kağızlardan karandaşla eskizlər üçün istifadə etmək olar. Quaşla qalın vatman və karton üzərində işləmək mümkündür. Rəngli kağız qurma-applikasiya üçün nəzərdə tutulur. Rəngli kağızlardan divar qəzetləri və foto-montajlarda istifadə etmək onları baxımlı edir .

Rəngli kağızı hər kəs özü də düzəldə bilər. Bunun üçün istənilən rəngi davamlı kağıza hopdurub, qurutmaq lazımdır.

Gənc rəssam bilməlidir ki, iş zamanı yapışqan çox lazım olur. Uşaqların ən çox istifadə etdikləri dəftərxana yapışqanı heç də həmişə yararlı olmur. O, kağızı korlayır. Onunla səliqəli işləmək mümkün olmur. Ən yaxşı yapışqan PVA-dır. Applikasiya üçün rezin yapışqan yararlıdır.

Kiçikyaşlı rəssam bədii sənətin bir çox sirlərinə, xırdalıqlarına bələd olandan sonra işə başlaya bilər. Bu zaman o, ruh yüksəkliyi ilə işə girişir və qarşısına qoyduğu məqsədə çatmağa çalışır.

**ədəbiyyat**

1.Məmmədov M.Təsviri incəsənət üzrə sinifdənkənar işlərdə şagirdlərin estetik tərbiyəsinə dair metodik tövsiyələr. Bakı, 1991

2.Демина Н.Д. Эстетическое воспитание. Рига , 1985 г.

3.Кузин Б.С. Вопросы изобразительного творчества. Москва, 1991г.

4.Məmmədov M. Şagirdlərin estetik tərbiyəsində təsviri incəsənət üzrə sinifdənxaric məşğələlərin əhəmiyyəti. «Azərbaycan məktəbi», 1990, №4

**Организационная работа на уроках изобразительного искусства**

**резюме**

В статье раскрываются методы организации работы на уроках изобразительного искусства.

Автор отмечает, что перед началом рисования нужно познакомить учащихся с материалами: карандашами, красками, кистями, разными бумагами и т.д.

Отмечается, что только после ознакомления с принадлежностями для рисования и привитии ученикам некоторых навыков, маленьких художник может добиться хороших успехов.

**The organizational work of art in the classroom**

**summary**

The article describes the methods of organizing work on the lessons of art.

The author notes that, before drawing to acquaint students with the materials: crayons, paints, brushes, various papers, etc.

It is noted that only after consulting with accessories for drawing and inculcate students some skills, young artists can achieve good results

# MÜƏLLİMLİK MƏSULİYYƏTLİ PEŞƏDİR

**Nabat Cəfərova,**
AMİ, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent
**Şəhla Əliyeva,**
AMİ-nin baş müəllimi



**açar sözlər:** müəllim, bələdçi, fəal təlim, pedaqoji proses, informasiya-kommunikasiya texhologiyaları,
**ключевые слова:** педагог, путеводитель, интерактвное обучение, педагогический процесс, информационно-коммуникативные технологии,
**key words:** the teasher, guidebook, interactive training,pedogogikal process, information-kommunication technology



Müəllim! Bu ada baş əyir cahan,
Hansı dahi ondan dərs almamışdır?!
Müəllim sözünə baxmayan insan
Həyatda heç zaman ucalmamışdır!

***İ.Tapdıq***

Müəllim hər zaman cəmiyyətin aparıcı qüvvəsi olmuşdur. Qloballaşan dünyamızda, İKT-nin həyat normasına çevrildiyi bir dövrdə də müəllim əməyi əvəzedilməzdir. Fəal təlimlə şagirdlərin tədqiqatçılıq bacarıqlarını inkişaf etdirmək, zamanın tələblərinə cavab veməyə qadir şəxsiyyətlər yetişdirməkdə ağırlıq mərkəzi müəllimin üzərinə düşür.

İctimai həyatda, xalq arasında, həmişə müəllimin rolu çox yüksək qiymətləndirilmişdir. Müəllim gənc nəslin mənəvi aləminin memarı və cəmiyyətin öz övladlarının gələcəyini etibar etdiyi şəxsdir. Belə ki, cəmyyət ən qiymətli sərvəti sayılan, gələcəyin qurucuları olan uşaqların təlim-tərbiyəsini müəllimə etibar edir. Müəllim əməyi elə müqəddəsdir ki, zaman-zaman dahi şəxslər, sadə insanlar ona yüksək qiymət vermiş, onun haqqında ən xoş sözlər söyləmişlər.

Cəmiyyətin ayrı-ayrı inkişaf mərhələlərində müəllimin ictimai həyatdakı rolu, mövqeyi və vəzifələri müxtəlif olmuşdur. XXI əsrin xüsusiyyətləri nə-

zərə alınmaqla təlim necə qurulmalıdır, onun rolu nədən ibarət olmalıdır? Bu suallara cavab vermək üçün müasir dövrün xüsusiyyətlərini aydın təsəvvür etmək lazımdır. Real həyatın tələblərinin nəzərə alınmadığı təlim şəraitində müasir şəxsiyyət tərbiyə etmək mümkün deyildir. Təlim prosesi uşaqda fəallıq, məntiqi düşüncə, ətrafdakı əşyalara və hadisələrə tənqidi yanaşma, müstəqil bilik almaq fərdi inkişaf bacarığını tərbiyə etməlidir. Şagird məlumatın təhlilini, nəticələrini və ümumiləşdirmələri hazır şəkildə yox, öz tədqiqatı nəticəsində əldə etməlidir.

Bu gün məktəbdə təhsil alan şagirdlər gələcəkdə cəmiyyətin tam hüquqlu üzvləri olacaqlar. Elm, texnika və texnologiyanın, xüsusilə kompyuter texnologiyasının geniş tətbiq olunduğu şəraitdə sürətlə dəyişən həyat şəraitinə uyğunlaşan, çevik, öz qabiliyyətlərini gerçəkləşdirməyi bacaran vətəndaşların yetişdirilməsi zamanın tələbidir. Təlim şagirdin yaradıcı, məntiqi və tənqidi təfəkkürünü inkişaf etdirməlidir. Bu tələbləri nəzərə alaraq elə təlim metodlarından istifadə olunmalıdır ki, onlar özlərində fəal, yaradıcı düşünmə qabiliyyətini və yeni biliklərə sərbəst yiyələnmə yollarını birləşdirsin.

Hazırda pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün müəllimin əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdlərin isə tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı əməkdaşlıq fəaliyyəti əsasında qurulur. Bu zaman aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

- pedaqoji prosesin tamlığı;
- təlimdə bərabər imkanların yaradılması;
- şagirdyönümlülük;
- inkişafyönümlülük;
- fəaliyyətin stimullaşdırılması;
- dəstəkləyici mühitin yaradılması.

Fəal təlim bu deyilənləri əhatə etmək imkanına malikdir. İnteraktiv təlim şagirdlər üçün yeni biliklərin müstəqil əldə olunması, mənimsənilməsi üçün şərait yaradır. Müəllimin əsas vəzifəsi şagirdlərə yol göstərmək, istiqamət vermək, çətinlik meydana çıxarsa, onlara yardımçı olmaqdır. Bu zaman müəllim şagirdə şəxsiyyət kimi yanaşmalı, bilik səviyyəsindən asılı olmayaraq onların hər birinə hörmət göstərməli, qoyulmuş problemin həllində şagirdlərin hər bir cəhdinin qiymətləndiriləcəyinə, ciddi, obyektiv və səmimi münasibətin olacağına inam yaratmalıdır. İnteraktiv təlim prosesində müəllimin bələdçi–fasilitator kimi çıxış etməsi heç də müəllim əməyini yüngülləşdirmir. Əksinə, XXI əsrdə insanlara vacib olan bilik, bacarıq, vərdiş və dəyərləri – şəxsiyyətə xas keyfiyyətləri şagirdlərə aşılamaq müəllimdən daha gərgin fəaliyyət göstərməyi tələb edir. Müəllimin özünənəzarət, inandırma, təlqinetmə, ünsiyyətqurma, fəaliyyətdə dinamiklik, nəticələrin düzgün qiymətləndirilməsi və s. keyfiyyətlərinin məcmusu onun pedaqoji ustalığı, təşkilatçılıq qabiliyyəti ilə bir nöqtədə birləşir.

Ənənəvi və fəal təlim metodlarının toqquşduğu, təlimdə ziddiyyətli məqamların yaşandığı bir vaxtda yalnız bacarıqlı müəllim öz işini zamanın tələblərinə uyğun nizamlaya bilir.

İnteraktiv və ənənəvi təlim metodları arasında həm oxşar, həm də fərqli cəhətlər vardır. Bəzi xüsusiyyətlər yalnız interaktiv təlimə məxsusdur:

- təlimin subyekt–subyekt xarakter daşıması;
- dərsin əvvəlindən axırınadək iştirakçıların fəallığı;
- dərsin əvvəlində problem–situasiyanın yaradılması və dərsin gedişinin problemin həllinə yönəldilməsi;
- dərsin tədqiqat şəklində aparılması;
- düşündürücü və istiqamətləndirici suallar vasitəsi ilə şagirdlərin yeni biliklərin müstəqil kəşf edilməsinə yönəldilməsi;
- dərsin dialoq şəklində aparılması;
- müəllim və şagirdlər arasında qarşılıqlı əməkdaşlığın, əks-əlaqənin yaradılması;
- qruplarla işdən geniş istifadə və şagirdlərin birgə fəaliyyəti;
- təlim vasitələrinin və tapşırıqların müxtəlifliyi;
- işçi vərəqlərindən istifadə;
- biliklərin yaradıcı tətbiqi və s.

Deyilənlərin reallaşması müəllimin konstruktiv,kommunikativ, qnoseoloji və təşkilatçılıq bacarıqları sayəsində mümkündür.

Konstruktiv bacarıq məfhumu altında müəllimin təlim və tərbiyə materiallarını şagirdlərin bilik və yaş səviyyələrinə, həmçinin qarşıya qoyulmuş məqsədin tələblərinə uyğun seçə bilməsi; uşaqların fərdi xüsusiyyətlərinə istinad olunması; onlarin inkişaf planını müəyyənləşdirməyi bacarması, nəticəyönümlü təlimdə fəal metodlardan səmərəli istifadə bacarığı nəzərdə tutulur.

Kommunikativ bacarıq tədris prosesində şagirdlərlə qarşılıqlı əlaqə və münasibətləri düzgün təşkil etməyi, "müəllim – şagird", "şagird – şagird", "müəllim – valideyn" münasibətlərini tənzimləməyi əhatə edir. Qnoseoloji bacarıq pedaqoji nəzəriyyəni bilməyi, ondan yaradıcılıqla istifadə etməyi, təcrübəni öyrənib ümumiləşdirməyi, sadə elmi-təqdqiqat aparmağı özündə birləşdirir.

Təşkilatçılıq bacarığı, metodik hazırlıq müəllimin ixtisas fəaliyyətinin tərkib hissələrindəndir. Müəllim ömrünü zərrə-zərrə şagirdlərinə sərf edir, özünü şagirdlərində təkrar edir.

"Müasir məktəbin episentri dəyişdiyindən müasir təhsil nəzəriyyəsində artıq kreativ proseslərə … xüsusi əhəmiyyət verilir" (Ə.Əlizadə, İ.Sultanova). Belə bir vaxtda müəllim öz işini taksonomiyalarla qurmağı bacarmalıdır. Təlim prosesində taksonomiyalar aşağıdakı imkanları yaradır:

- təlim məqsədlərini düzgün müəyyənləşdirmək;
- problemləri düzgün müəyyənləşdirmək və şagirdlər üçün tapşırıqlar tərtib etmək;

- məqsədlərə uyğun qiymətləndirmə vasitələrini seçmək;
- təlim nəticələrinə əsaslanaraq refleksiyanı düzgün keçirmək;
- bu və ya digər materialın öyrənilməsində şagirdlərin hansı çətinliklərlə qarşılaşdıqlarını müəyyən etmək.

Təhsil sahəsində islahatlar bu gün öz biliyi və bacarığı ilə Azərbaycanı dünyada təmsil edə bilən şəxsiyyətlər yetişdirmək üçün atılan əsas addımlardır. Vaxt məhdudluğu şəraitdən tez baş çıxarmaq, təşəbbüskar olmaq, fəal və yaradıcı olaraq yeni məsələləri müstəqil qarşıya qoymaq, qərar qəbul etmək zərurətini yaradır. Müəllimin pedaqoji ustalığı, təşkilatçılıq qabiliyyəti, öz fəaliyyətini planlaşdırma vərdişləri problemin həllində ona kömək göstərir.

Müasir dövrdə müəllimin pedaqoji ustalığını belə xarakterizə etmək olar:

–təhsil siyasətini mükəmməl mənimsəmək, öz fənnini və dövrün tələblərini dərindən bilmək;

–üfüqi və şaquli inteqrasiyadan səmərəli istifadə etmək, sagirdlərdə qlobal təfəkkürün inkişafına nail olmaq;

–fəal təlim metodlarından səmərəli və çevik istifadə etmək;

–sagirdlərin maraq və arzularını öyrənmək, onları nəzərə almaq;

–şagirdlərin fəallığını tənzimləmək, təlim prosesinin maraqlı və cəlbedici olması üçün müxtəlif metod və texnologiyalardan istifadə etmək;

– müzakirədə və qrup işində iştirak etmələrinə görə şagirdlərə öz minnətdarlığını bildirmək, nitq etiketlərindən istifadə etmək;

–danışanları diqqətlə dinləmək, hər bir iştirakçıya öz fikrini söyləməyə imkan yaratmaq;

–görülən işlərin nəticələrini düzgün qiymətləndirmək;

–kollektiv üzvlərinin inkişaf dinamikasını müşahidə etmək, bu prosesə şərait yaradan və ya mane olan amilləri üzə çıxarmağı bacarmaq .

Təlim anlamında üç kökün – təlim, tərbiyə və inkişaf meyarlarının açıqlanması yeni pedaqoji təfəkkürün uğurlarını və müəllim əməyinin əzəmətini əks etdirən nailiyyətlərdir. Bir sözlə, müəllim şagirdi müasir həyata hazırlamağı bacarmalıdır. Təlim dəyişən dünyanın reallıqlarından kənarda mövcud ola bilməz. Hər hansı təlim, tərbiyə və inkişaf sisteminin istiqamətverici qüvvəsi isə müəllimdir. Odur ki, müəllimin əməyi çətin, mürəkkəb, şərəfli, nəcib və məsuliyyətldir.

**ədəbiyyat**

1.Əlizadə Ə.Ə., Sultanova İ.H.Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008

2.Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). "Kurikulum", 2010, № 3

3.Ümumtəhsil məktəblərinin I-IVsinifləri üçün fənn kurikulumları. Bakı: "Təhsil", 2008

4.İnnovativ dərs modelləri. Müəllimlər üçün metodik vəsait. Bakı: "Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu", 2002

5.Bədiyev S.R. Yeni təlim texnologiyalarından mühazirə mətnləri. Bakı: " Dərələyəz-M", 2009

**Учительство – ответственная профессия**
**резюме**
Статья посвящена характерным чертам современного педагога, о его неоценимой роли в обществе. Отмечается, что педагог во все времена являлся ведущей силой общества. В современном мире, идущим к глобализации, в период развития ИМО (интерактивного метода обучения) роль педагога неоценима. В современном мире для развития интерактивного метода обучения школьников, в период изучения их исследовательских знаний педагог является педагогом-путеводителем и их наставником.

**The teacher - responsible trade**
**summary**
Clause is devoted to characteristic features of the modern teacher, about his invaluable role in a society. It is marked, that the teacher in all times was conducting force of a society. In the modern world going to глобализации, during development by HIM (IT) (interactive method of training) the role of the teacher is invaluable. In the modern world for development of an interactive method of training of the schoolboys, during study of their research knowledge the teacher is the teacher - guidebook and them protector.

# DİQQƏT: İSTEDADLI UŞAQLAR

**Kəklik Məmmədova,**
«Məktəbəqədər və ibtidai təhsil» jurnalının əməkdaşı

**açar sözlər:** istedadlı uşaq, istedadın tipləri,ümumi əqli istedadlılıq, aparıcı konstruksiya, əqli yaş, xronoloji yaş, intellekt koeffisenti

**ключевые слова:** талантливый ребенок, типы таланта, общая умственная талантливость, ведущая конструкция, умственный возраст, хронологический возраст, коэфицент интеллекта

**key words:** gifted child, types of talent, the overall mental talent, leading design, mental age, chronological age, the odds of intelligencekey words



Hamıya məlum olan, buna baxmayaraq hələ də kifayət qədər tədqiq olunmamış bir məsələ üzərində dayanaq. Bu, dünya iqtisadi inkişafı ilə əlaqədardır. Biz bu sahədə son onilliklərdə Yaponiya, Cənubi Koreya, Tailand, Tayvan kimi ölkələrin etdiyi qeyri-adi sıçrayışları nəzərdə tuturuq. Sıçrayışlar həm də ona görə heyrətə gətirir ki, bu ölkələrin ərazisi müqayisəli dərəcədə kiçik, təbii ehtiyatları çox məhduddur. Səbəb nədir? Bu suala ətraflı cavab vermək çətindir, lakin bir cəhəti qeyd etmək lazımdır: bu fenomeni təhlil edən ekspertlər intellektual resursların ən yüksək dərəcədə səmərəli və bacarıqlı istifadəsini qeyd edirlər. Burada həm də əhalinin kəskin yüksəlmiş təhsil səviyyəsini, bütün mərhələlərdə psixologiya

və pedaqogika elmlərinin ən yeni nailiyyətlərinə əsaslanan və güclü maliyyələşdirilən nümunəvi təhsil sisteminin qurulmasını da unutmamaq lazımdır. Nəhayət, sırasına görə axırıncı olsa da, əhəmiyyətinə görə axırıncı olmayan səbəb – yeni yetişən gənc nəslin «istedadlı uşaqlar» adlanan kiçik bir hissəsinə diqqətin artırılmasıdır. Ölkəmizdə belə münasibət yenicə formalaşmağa başlamışdır.

Əvvəlcə istedad fenomeninin nə demək olduğunu aydınlaşdırmaq lazımdır. Söhbət əqli inkişafın yüksək səviyyəsi ilə fərqlənən uşaqlardan gedir. Məlum olduğu kimi, istedadın bu tipi ilə yanaşı, onunla az və ya çox dərəcədə əlaqədar olan başqa tipləri də mövcuddur : texniki, bədii, sosial, idman sahələrində istedadlar. Bu, bütün insanları, xüsusilə həmin sahəni öyrənən tədqiqatçıları çox maraqlandırır: əqli istedadı şərtləndirən amillər hansılardır? Cəmiyyətin istedadlı uşaqlara münasibəti, müəyyən mənada, bu suala verilən cavabdan asılıdır. Cəmiyyət və dövlət vaxtilə bu sahədə buraxılmış səhvləri düzəltməyə çalışır. Dahi ola biləcək yüzlərlə insan, həm də istedadlı uşaqların təlim-tərbiyəsi üçün metodların işlənib-hazırlanması, müvafiq pedaqoji və elmi-tədqiqatçı kadrların hazırlanması üçün vaxt əldən getmişdir. Axı bu metodlar, kadrlar artıq dünən lazım idi. Konstruktiv tövsiyələri zərrə-zərrə toplamaq lazım gəlir. Yalnız başqalarının əvvəlki ictimai-tarixi şəraitdə yaratdıqlarından istifadə etməklə kifayətlənsək, böyük müvəffəqiyyətlərə nail ola bilmərik. Dünya təcrübəsini nəzərə almaqla, öz yaradıcı axtarışlarımızı da aparmalıyıq. Son illərdə bu işlə məşğul olanların sayı əhəmiyyətli dərəcədə artmışdır. Onların işi diqqətlə təhlil olunmalı, ümumiləşdirilməli, nailiyyətləri geniş təbliğ olunmalıdır.

**İstedad və onun tipləri.** 1978-ci ilin yazında, Ukraynanın Elmi-Tədqiqat Psixologiya İnstitutunda yenicə yaradılmış kiçikyaşlı məktəblinin şəxsiyyətinin formalaşdırılması və psixodiaqnostikası laboratoriyasına valideynlər məsləhət üçün altı yaşlı oğlanı gətirdilər. Slavanı məktəbə yazdırmaq lazım idi (O vaxtlar uşaqlar 7 yaşında məktəbə gedirdilər.), ancaq hansı sinfə – 1-ci sinfəmi, 3-cü və ya 4-cü sinfəmi – bilmirdilər. Məsələ burasında idi ki, oğlan 3 yaş yarımında oxumağa, 5 yaşında isə yazmağa və makinada çap etməyə başlamışdı. Slava laboratoriyaya gələndə milyon dairəsində bütün riyazi əməlləri yerinə yetirir, s?rb?st inşa yazırdı. Onun fəal lüğətinə böyüklərin çoxu həsəd apara bilərdi. Balaca oğlan fəxrlə bildirirdi ki, indi o, yaşadığı küçənin geoloji keçmişi haqqında məruzə hazırlayır...

Əlbəttə, aydın idi ki, laboratoriya əməkdaşlarının qarşısında klassik vunderkind dayanıb. Bu, həmin möcüzə-uşaqlardan idi ki, əqli bacarıqları nəinki valideynləri, hətta çox təcrübəli mütəxəssisləri də heyrətə salırdı. Laboratoriyanın rəhbərliyi belə qərara gəldi ki, rəy verməzdən əvvəl bu fenomenal uşaq zəkasının xüsusiyyətləri əməlli-başlı tədqiq edilsin.

Onlar lüğət testindən başladılar. Burada standart siyahıda verilən ayrı-ayrı sözlərin mənasının izah olunması qiymətləndirilirdi. Cəmi 20 söz təklif

olunur, hər sözə 0-dan 2-yə qədər bal verilirdi. Deməli, mümkün olan ən yüksək qiymət 40 bal idi. Slavanın təklif etdiyi cavab nümunələri: "Teleqram – elektrik cərəyanının köməyi ilə yüksək sürətlə ötürülən poçt göndərişi» ; «Ailə – yaxın qohum olan insanlar qrupu»; « Planet – Günəş ətrafında öz orbiti ilə hərəkət edən kürə» və s. Razılaşaq ki, belə cavabları hər yetkin adam verə bilməz, çünki burada həm hadisənin sözlə ifadə olunmuş məlumatı öz əksini tapır, həm də əşyanın əlamətini məntiq qanunlarına görə müəyyən etmək bacarığı heyrətə gətirirdi.

Ən böyük sürpriz irəlidə idi: parlaq cavablarına baxmayaraq, Slava testlərə cavabdan gözlənilən qiyməti almadı, cəmi 22 bal topladı, çünki 20 tapşırıqdan 9-na qəti surətdə cavab verməkdən imtina etdi. Nə üçün? Oğlan uzun müddət öz hərəkətinə aydınlıq gətirmək istəmədi, lakin axırda hər şey aydın oldu: bu sözlərin mənasını o, intuitiv səviyyədə bilsə də, «keyfiyyət meyarına» kifayət dərəcədə uyğun gələn savablar tərtib edə bilməmişdi. Bu meyarın özünü isə o, şübhəsiz, çox dəqiq başa düşürdü. O, hesab edirdi ki, tapşırığı necə gəldi yerinə yetirməkdənsə, cavabdan imtina etmək (psixoloji yoxlamadan qalib çıxmaq şansını itirsə də...) daha düzgün olar. Doğrudan da , Slavanın bu və digər testlərdə verdiyi cavablar nöqsansız idi.

Slavanın davranışı yoxlanılarkən meydana çıxan bir neçə xüsusiyyətini də qeyd etmək lazımdır. Eksperimenti aparanın növbəti tapşırığa aid təlimatına qulaq asan Slava tez-tez mədəni surətdə onu dayandıraraq deyirdi: «Sağ olun, mən artıq başa düşdüm». Sonra məlum oldu ki, bu, doğrudan da belədir. Slava tapşırıqları yerinə yetirərkən öz anlayış və bacarıqlarının qiymətləndirilməsində, demək olar ki, heç vaxt səhv etmirdi. Ona nə isə aydın olmayanda, dərhal eksperimentatoru sualla dayandırırdı: «Siz dediniz ki, «mümkün qədər daha yaxşı». Bəs zaman nəzərə alınacaqmı?».

İş gününün sonunda Slavanın evdə, yazı makinasında yazılmış test suallarına verdiyi cavablar laboratoriyaya təqdim olundu. Səhifənin ortasındakı başlıq çox gözəl formada verilmiş, tapşırığın sözləri və cavablar xüsusi zövqlə yerləşdirimiş, əlifba sırası ilə düzülmüş və nömrələnmişdi. Yazıda, bircə dənə də olsun, qrammatik və ya orfoqrafik səhv yox idi.

Slavanın valideynləri onun məktəbə qəbuluna dair hansı cavabı aldılar? Yaxşı olar ki, uşaq məktəb həyatına yaşıdları ilə birlikdə – I sinifdə başlasın. Məktəblinin davranış qaydalarını mənimsədikdən sonra (Bunun üçün bir ay vaxt lazımdır.) Slava II sinfə, sonra elə bu intervalla da III və IV sinfə keçəcək. Bu prosesdə nəzərdə tutulurdu ki, uşaqlarla müvafiq izahedici söhbətlər aparılarsa, bu keçidlər kifayət qədər ahəngdar baş verəcək. Oğlanın kontakt dairəsinin genişlənməsi onun sosial intellektinin inkişafına kömək edəcək.

Bu planın həyata keçirilməsi onun əsaslı olduğunu təsdiq etdi. Üç aydan sonra Slava artıq IV sinifdə oxuyurdu. VI sinifdə (yəni 10 yaşında) ikən, Slava X sinif şagirdləri qarşısında astronomiyadan böyük müvəffəqiyyətlə mühazirə oxudu.

Sinif yoldaşları və yuxarı sinif şagirdləri ilə münasibətlərini heyrət və zərifliyin vəhdətindən doğan bir hisslə müqayisə etmək olardı. Slava valideynləri ilə münasibətlərində tərslik və ərköyünlük göstərsə də, yoldaşları və müəllimləri ilə münasibətlərində sadə və təvazökar idi. Onun intellektual üstünlüyü hamı tərəfindən danışıqsız qəbul edilirdi.

IV sinfə keçəndən sonra Slava sinifdən-sinfə keçmədən (eksternsiz) təlimə davam etdi. 13 yaşında fizika-riyaziyyat məktəbini qızıl medalla bitirərək, universitetin fizika fakültəsinə qəbul olundu və 5 ildən sonra universiteti qırmızı diplomla bitirdi. Bu müddət ərzində o, hələ orta məktəbdə əla bildiyi ingilis dilinə daha iki dil : fransız və italyan dillərini də əlavə etdi. 18 yaşında ikən nəzəri fizika kafedrasının aspirantı oldu, yarım ildən sonra isə kvant nəzəriyyəsinin az işlənmiş aspektlərindən birinə həsr olunmuş namizədlik dissertasiyası müdafiə etdi.

**Ümumi əqli istedadlılığın xüsusiyyətləri.** Sonralar laboratoriyanın əməkdaşları əqli istedadlılıq əlamətləri nümayiş etdirən 20-30 uşaqla tanış oldular. Onlar bütün özünəməxsusluqları ilə yanaşı, Slavada olan bəzi parlaq xüsusiyyətləri də öz intellektual simalarında göstərirdilər : qeyri-adi dərəcədə erkən, yüksək idraki fəallıq; hər şeyi bilmək həvəsi; zehni əməliyyatların yerinə yetirilməsində operativ yaddaş və diqqətin davamlılığı ilə şərtlənən tezlik və dəqiqlik; məntiqi təfəkkür vərdişlərinin formalaşması; fəal lüğətin zənginliyi; verbal (söz) assosiasiyaların tezliyi və orijinallığı; tapşırıqların yaradıcı icrasına yönələn istiqamət; yaradıcı təfəkkür və təxəyyülün inkişafı; öyrənmə bacarıqlarının əsas komponentlərinə nail olmaq.

Sonuncu xüsusiyyət haqqında bir qədər ətraflı danışaq. Bu, 2 qrupla xarakterizə olunur:

1) təlim vərdişləri ilə (şüurlu oxu və hesablama vərdişlərinin sürətliliyi, makinada çap etmə vərdişləri, öz zehni fəaliyyətinin məhsullarını səliqəli və dəqiq formalaşdırma vərdişi);

2) intellektual planda təlim vərdişləri.

İkinci qrup xüsusiyyətləri tədqiq edərək istedadlı uşağın zehni fəaliyyətinin yüksək effektivliyinin sirrini öyrənmək olar. Bu qrup xüsusiyyətlər özündə aşağıdakıları cəmləşdirir:

a) qarşıda duran məqsədlərin istiqamətləndirici əsasını müstəqil qura bilmək, hər şeydən əvvəl, belə əsasın vacibliyinin dərk olunması; b) öz təsəvvüründə qoyulmuş tapşırığın dəqiq təhlilinin həyata keçirilməsi (əvvəlki bəndin həyata keçirilməsi üçün); c) tapşırığın tələblərini anlama anının, özündə həmin tapşırığın həlli üçün lazım olan biliklərin və başqa dərketmə vasitələrinin olub-olmamasının dəqiq dərk olunması; v) nəzərdə tutulan fəaliyyət məqsədinin dəqiq obrazının yaradılması, gələcək fəaliyyətin məhsulunun keyfiyyət meyarlarının dərk olunması; q) qarşıdakı bütün iş prosesinin əvvəlcədən planlaşdırılması; işin zehni tərəfinin icra və manipulyativ tərəfdən dəqiq fərqləndirilməsi (bu zaman məhdud miqdarda zehni əməliyyatlar

üçün görmə istinadı yaradan, məqsədəuyğun manipulyativ sınaqların aparılması da istisna olunmur); d) qeyd olunmuş istiqamətlərə dönmədən riayət etmək, görülən işin gedişinə fasiləsiz nəzarət, tələb olunan fəaliyyət metoduna nail olunduğu anın dəqiq identifikasiyası.

**Aparıcı konstruksiya.** İstedadlı uşağın zehni fəaliyyətinin bütün bu xüsusiyyətlərini hansı anlayışda birləşdirmək olar? Hansı psixoloji xüsusiyyət «aparıcı konstruksiya» rolunu yerinə yetirir? Yəqin ki, bu xarakteristikada özünüdərketmə prosesinin qeyri-adi roluna diqqət yetirməyə dəyər. Adətən, müəyyən tapşırığı yerinə yetirərkən şagirdin şüuru birtərəfli, həll edilən məsələnin məğzinin dərk edilməsi istiqamətində işl?yir. Əgər söhbət həll prosesinin özündən gedirsə, ən yaxşı halda, alınan cavabların keyfiyyətinə nəzarət olunur : «Bu söz düzmü yazılıb? Azalanla çıxılanı toplasaq, bu rəqəm alınacaqmı? Ayın tarixi düzmü deyildi ?» və s. Zehni hərəkətlər, onların prosessual tərəfi dərketmədən kənarda, sanki kadr arxasında qalır. Bu ona gətirib çıxarır ki, şagirdin zehni fəaliyyəti nisbətən gec təkmilləşir, yəni təlim kifayət qədər inkişafetdirici xarakter daşımır.

Mükəmməl öyrənmə bacarığı olan uşaqlarda təlim fəaliyyəti başqa formada gedir. Onların hər birinin idrakı ikitərəfli istiqamətə malikdir: gah həll edilən tapşırığa, gah da özünə – şagirdin öz psixikasına (diqqət, yaddaş, təxəyyül) yönəlir : həmin tapşırığı həll etməyi bacarırmı? Əgər haradasa problem yaranırsa, həmin dəqiqə səbəbi diaqnozlaşdırılır, məsələn, «Aha, mən məsələnin şərtlərini lazımi qədər öyrənib qurtarmamış həll etməyə başladım. Buna görə də çox vaxt və güc sərf olundu». Göründüyü kimi, hətta hər yetkin insan da belə özünütəhlilə qadir deyil (psixologiyada daha çox «refleksiya» sözü işlənir). İstedadlı uşaqların qeyri-adiliyi ondadır ki, onlar zehni refleksiyanın inkişaf səviyyəsinə görə nəinki öz yaşıdlarından, hətta bir çox yetkin insanlardan da üstündürlər.

**Digər xarakteristikalar.** Bəs bu vunderkindlərin fiziki inkişafı hansı səviyyədədir? Sirr deyil ki, kütlənin şüurunda istedadlı uşaq haqqında zəif, cəlimsiz, gözlükləri olan biri kimi təsəvvür yaranmışdır. Əlbəttə, sağlamlığı zəif olan istedadlı uşaqlara da rast gəlmək mümkündür, onların içində eləri var ki, fiziki qüsuruna görə uzun müddətdir ki, yatağa məhkumdur (bu da zehni məşğuliyyətə meylin səbəblərindən biridir), lakin belə hallar azdır. Əksinə, tədqiqatçılar qeyd edirlər ki, bir qayda olaraq, istedadlı uşaqlar möhkəm sağlamlığı və fiziki inkişafları ilə fərqlənirlər, onlarda zehni və ümumiyyətlə, həyat enerjisi yüksək potensiala malikdir. Budur, ən bariz nümunə.12 yaşında politexnik institutunun tələbəsi olmuş Davidin atası «Komsomolskaya pravda» qəzetinin müxbiri ilə müsahibəsində qeyd edir: «Davidin əsas xüsusiyyəti, onun çox möhkəm əsəb sisteminin olmasıdır». Analoji nəticələr təcrübənin qoyulduğu laboratoriyada alınmışdı.

Nəhayət, istedadlı uşaqların sosial keyfiyyətləri haqqında. Bu barədə özünəməxsus stereotip mövcuddur, yəni bütün vunderkindlər özləri haq-

qında həddindən artıq yüksək fikirdədirlər, təkəbbürlü, eqoistdirlər. Onların ünsiyyətində problemlər mövcuddur. Bu haqda nə demək olar? Slavanın – əsas qəhrəmanımızın xarakteristikasından görürük ki, belə rəylər həmişə həqiqətə uyğun gəlmir. Daha ümumiləşdirilmiş cavab üçün vaxtilə sovet psixoloqu və pedaqoqu P.P.Blonskinin əqli cəhətdən istedadlı uşaqlara verdiyi xarakteristikadan istifadə edək: «Xarakter cəhətdən onlar çox təşəbbüskar, eyni zamanda təmkinlidirlər, soyuqqanlılıq və cavabdehlik hissinə görə fərqlənirlər. Onlar insanlarla davranış bacarığına malikdirlər və çox vaxt yoldaşları arasında nüfuza malik olurlar. Adətən, belələrindən rəhbər olur». Yaxşı qiymətləndirmədir.

**Bir terminin altı mənası.** Hər şeydən əvvəl, qeyd edək ki, «əqli istedadlılıq» termininin kifayət qədər sinonimləri var – «ağıl», «əqli bacarıqlar», «intellekt», «intellektual bacarıqlar», «dərketmə sahəsi», «dərketmə bacarıqları». «Bacarıqlar» termininin də öz sinonimləri var: «ümumiləşdirilmiş bacarıqlar», «imkanlar», «potensial», «inkişaf səviyyəsi» və s. Bu zəngin sinonimlər bazası ilə hesablaşmaq lazımdır, ancaq bu, işin yalnız bir tərəfidir, digər tərəfi «əqli istedadlılıq» termininin çoxmənalılığıdır. Elmi dildə bu, ən azı altı mənanın izahına xidmət edir.

**Birinci məna.** Fərdlərarası fərqlər diapazonundakı yerindən asılı olmayaraq, konkret insanın əqli bacarıqlarının istənilən səviyyəsi nəzərdə tutulur. Özü də bu səviyyə, əsas etibarilə, sinir sisteminin anadangəlmə keyfiyyətləri ilə şərtlənir və bu keyfiyyətlər faktiki olaraq bacarıqlarla eyniləşdirilir.

**İkinci məna.** Daha inkişaf etmiş 2% insanların malik olduqları əqli bacarıqların səviyyəsi. Bu səviyyə yenə də anadangəlmə keyfiyyətlərin fəaliyyətinə aid olur.

**Üçüncü və dördüncü məna** müvafiq olaraq birinci və ikincidən onunla fərqlənir ki, istedadlılığa münasibətdə dominant rol mədəni-pedaqoji faktorlara verilir (mədəni mühit və keyfiyyətli təhsil).

Nəhayət, **beşinci və altıncı məna** əvvəlkilərdən onunla fərqlənir ki, ağlın və əsəb sisteminin anadangəlmə keyfiyyətlərinə baza kimi baxılır və mədəni-pedaqoji şərtlərdən asılı olaraq, bu bazada müxtəlif səviyyəli əqli bacarıqlar (istedadlılıq) formalaşdırıla bilər.

Bizi daha çox inkişaf etmiş uşaqlar maraqlandırdığı üçün, müasir psixoloqların mövqeyi ilə razılaşaraq «istedadlı uşaqlar» termininin axırıncı mənasından istifadə edirik, yəni bu ad altında öz yaşıdlarından yüksək əqli inkişafı ilə fərqlənən, həm anadangəlmə, həm də əlverişli tərbiyə şəraitinin nəticəsi olan istedadları nəzərdə tuturuq.

**Zəkalı, yoxsa istedadlı?** Tez-tez bu iki sözü sinonim kimi işlədirlər, lakin belə istifadə az məhsuldardır. Əlavə olaraq bu, ikifikirlilik yaradır. Buna görə də bir çox tədqiqatçılar «istedadlı» terminini xüsusi məna ilə «yükləməyi» üstün tuturlar: hər hansı bir fəaliyyət növünə (musiqi, bədii, ədəbi, texniki, idman və s.) çox yüksək dərəcədə qabiliyyətləri olan insan. Həm də

artıq bu bacarıqlar müəyyən dərəcədə konkret ictimai şəraitdə reallaşdırılmışdır. Bundan əlavə, bu terminə, adətən, daha iki əlamət də şamil edilir: kəskin ifadə olunmuş yaradıcı başlanğıcın olması və anadangəlmə keyfiyyətlərin dominantlığı. Bu anlamda atası ilə bütün Avropa dövlətlərinə konsert turnesinə çıxan 6 yaşlı Motsart, şübhəsiz, istedaddır, ancaq hələlik dahi deyil. 18 yaşında ikən universitetin fizika fakültəsini bitirmiş Slava isə hələlik ancaq zəkalı gəncdir. Birgə istifadə olunanda «zəkalı» və «istedadlı» terminləri cins və növ kimi çıxış edirlər. Hər bir istedadlı uşaq (ümumiyyətlə, insan) eyni zamanda həm də zəkalıdır, lakin hər zəkalı uşaq istedadlı adlana bilməz. Bir çox zəkalı uşaqların qarşılarında hələ istedadlılıq səviyyəsinə çatmaq məqsədi durur. Təəssüf ki, bu, hamıya qismət olmur.

Əgər «zəkalı» anlayışı «istedadlı» anlayışını əvəz edirsə, onda nə üçün məşhur kitab və məqalə müəllifləri bu iki termini çox vaxt yanaşı qoyur, onları «və» bağlayıcısı ilə birləşdirirlər («zəkalı və istedadlı uşaqlar»)? Şübhəsiz, məntiq nöqteyi-nəzərindən bu, düzgün deyil. Görünür, bu birləşmə ilə müəlliflər bütün zəkalı uşaqların ümumi xarakteristikası ilə məhdudlaşmamaq məqsədini ifadə edir, eyni zamanda da xüsusilə gənc istedadlar kateqoriyasına aid olanların üzərində dayanırlar.

**Zamanı arxada qoyanlar.** «Zəkalı uşaqlar» anlayışının məzmununa «yüksək əqli inkişaf» əlamətini əlavə edərkən, bunu aydınlaşdırmaq lazımdır: «yüksək» nə deməkdir? Burada da biz çoxmənalılıqla qarşılaşırıq. Demək olar ki, «orta» bacarıqlı məktəbəqədər yaşlı uşaq öz zehni imkanlarına görə «orta» bacarıqlı kiçikyaşlı məktəblidən geri qalır, o da öz növbəsində – «orta» yeniyetmədən və s. Aydındır ki, konkret halda belə üstünlükdən söhbət getmir. Müqayisə, hər şeydən əvvəl, həmyaşıdlar arasında aparılmalıdır. Yüksək səviyyə yaş normalarına nisbətən müəyyən olunur, bu isə həmin yaş qrupu üçün orta sayılan göstəricidir. Bu da hər şey demək deyil. Nəyisə ölçmək üçün müvafiq ölçü vahidi olmalıdır. Əqli zəkalılığı ölçmək üçün əqli yaş (ƏY) belə vahid kimi götürülə bilər. Bu, nədir?

Bütün uşaqlar öz fiziki və əqli inkişaflarında tədricən mürəkkəbləşən, bir-birinin üzərində qurulan mərhələlərdən keçirlər. Gəzməyi öyrənməzdən əvvəl uşaq əvvəlcə başını saxlamağı və oturmağı öyrənməlidir. Danışmağa başlamazdan əvvəl ananın ona müraciətlə dediyi sözləri başa düşməlidir və s. Bu ardıcıllıqları müxtəlif uşaqlar müxtəlif surətdə mənimsəyirlər və beləliklə, növbəti mərhələyə müxtəlif yaşlarda gəlib çatırlar. Bir uşaq bir yaşında, digəri yaş yarımında, üçüncüsü hətta iki yaşında danışmağa başlayır. Biri məktəb yetkinliyi yaşına beş, digəri yeddi yaşında çatır. Məlumdur ki, uşaqların çoxu (65%) bu mərhələyə altı yaşında daxil olur. Söhbət bu yaşda olan uşaqların çoxundan getdiyi üçün bu göstərici məktəb yetkinliyi normativi kimi qəbul edilir. Bu sualı verərkən fərqləri başqa formada da ifadə etmək olar: bu uşaq hansı əqli əməliyyatları artıq mənimsəmişdir? Fərz edək ki, beşyaşlı Fuad altıyaşlıların bacarıqlarına uyğun gələn diqqət, yaddaş, tə-

fəkkür, təxəyyül, nitq kimi əqli bacarıqlara malikdir. Belə nəticə çıxır ki, bu oğlanın əqli yetkinlik yaşı altıdır. Onun həmyaşıdı Kərim isə, tipik dördyaşlı uşağın əqli inkişafı səviyyəsindədir.

Əgər eyni pasport (xronoloji) yaşına malik olan uşaqlar əqli bacarıqlarına görə əhəmiyyətli dərəcədə fərqlənirlərsə, bu, çox əhəmiyyətli faktdır. Yaşıdlarından daha yüksək ƏY-a malik olanlar, təbiidir ki, daha çətin məsələləri həll edə bilir, yeni anlayışları daha tez mənimsəyirlər. Müəyyən məsələnin həllində onlara ƏY-ı aşağı olan uşaqlardan daha az vaxt lazım olur. Səbəb nədir? Səbəb odur ki, birincisi, onlarda lazımi əqli əməliyyatlar daha yaxşı cilalanıb, ikincisi, onlar az-az səhv edirlər.

ƏY cəhətdən öz yaşıdlarını qabaqlamaq, zehni inkişafın yüksək tempi istedadlı uşağın xarakter xüsusiyyətləridir. Təsadüfi deyil ki, biz vunderkindlərin xarakter xüsusiyyətlərini sadalayarkən belə məlumatlara rast gəlirik: üç yaşında oxumağa başlayıb, məktəbdə birbaşa IV sinfə qəbul olunub, universiteti on dörd yaşında bitirib və s. Doğrudan da, bunlar zamanı qabaqlayan uşaqlardır.

Uşağın ƏY-nı onun xronoloji yaşı ilə tutuşdurarkən onun əqli inkişafının hansı sürətlə getdiyini görmək olar: normal (xronoloji yaşa uyğun), qabaqlayıcı və ləngimiş. Bu göstəricini ifadə etmək üçün intellekt koeffisentindən (İK) istifadə olunur. İK-i bu formulla hesablanır:

$$\text{İK} = \frac{\text{ƏY}}{\text{XY}} \times 100$$

Burada İK – intellekt koeffisenti (balla hesablanır), ƏY – əqli yaş (aylarla göstərilir), XY – xronoloji yaş (aylarla göstərilir), 100 – tam rəqəmlərlə ifadə etmək üçün istifadə edilən konstantadır.

Bu formulu bizim beşyaşlılarımıza (Fuad və Kərimə) tətbiq edərkən bu İK-ni alırıq: birinci uşaq üçün 120 bal, ikinci uşaq üçün 80 bal.

Əqli inkişaf tempi intellektin əsas göstəricisi kimi insan fərdiliyinin nisbətən dayanıqlı xarakteristikasıdır. Zaman keçdikcə uşağın həyat təcrübəsi zənginləşir və bunun nəticəsində, təbiidir ki, onun əqli yaşı yüksəlir, eyni zamanda xronoloji yaş da artır. Nəticədə, əqli və xronoloji yaş nisbəti də dəyişməz qala bilər. Bu, hər hansı bir yaş dövründə İK-nin mühüm dəyişikliklərə məruz qalacağını (artacağını, ya azalacağını) istisna etmir. Adətən, bu hal təlim-tərbiyə prosesində meydana çıxan əhəmiyyətli dəyişikliklər zamanı müşahidə olunur.

Əgər eyni XY-ı olan böyük bir uşaq qrupunu (500-600 nəfər) əsaslı şəkildə testdən keçirsək, görərik ki, onların İK-i 170-30 bal diapazonunda dəyişir. Fərq, göründüyü kimi, çox böyük – 1:6 nisbətindədir. (Əgər aşağı göstəricini bir vahid götürsək, yuxarı göstərici altı vahid təşkil edir). Bəs müxtəlif intellekt göstəriciləri olan uşaqların faizlə nisbətini necə göstərmək

olar? Bu suala cədvəl cavab verir. Qeyd edək ki, bu rəqəmlər nisbidir, çünki konkret şəraitdən asılı olaraq, cədvəldə göstərilən faktlar dəyişə bilər.

Əqli cəhətdən istedadlılara şkalanın yuxarı pilləsindəki 2% daxildir. Bununla belə, Vaşinqtonda dərc olunmuş «Dövlət məktəblərində istedadlı uşaqlara dair xüsusi instruksiya»da göstərilir ki, şəhərlərdə belə uşaqların sayı 3%, kənd yerlərində isə ancaq 1% təşkil edir. Bu fərq mədəni-tərbiyəvi şəraitin eyni səviyyədə olmaması ilə izah edilir.

Əlbəttə, bütün bu hesablamalar şərti xarakter daşıyır. Bunu elə başa

| | **müxtəlif intellekt səviyyələrinə malik olan uşaqların faiz göstəriciləri** | |
|---|---|---|
| **İK (balla)** | **keyfiyyət səviyyələri** | **%** |
| 141–170 | əqli istedadlılıq | 2 |
| 111–140 | yüksək əqli bacarıqlar | 15–16 |
| 91–100 | əqli norma | 65 |
| 71 – 90 | aşağı əqli bacarıqlar | 15 –16 |
| 30 –70 | əqli defektliliyin müxtəlif dərəcələri | 4 –5 |

düşmək olmaz ki, əgər uşağın İK-i 110 baldırsa, o, əqli normaya daxildir, 111 baldırsa, yüksək əqli bacarıqlar səviyyəsinə aiddir.

Bu uşaqlardan hər birini həm bu, həm də digər səviyyəyə aid etmək olar. Ola bilər ki, təkrar testləşdirmədə bir qədər fərqli nəticələr alınsın ( fərq 5 bala qədər ola bilər). Yəni həmişə nəzərə almaq lazımdır ki, psixoloji testlərə görə alınan qiymətlərdə bəzi fərqlər ola bilər (istənilən digər ölçü cihazlarında olduğu kimi).

**«Problemi genişləndirənlər».** İstedadlılıq anlayışında qabaqlayıcı inkişafa əsas yer verilsə də, bu mürəkkəb və təzadlı məsələni ancaq akselerasiya ilə izah etmək çox sadə görünərdi. İstedadlı uşağı ancaq tezyetişən erudit, kiçikyaşlı müdrik kimi təsəvvür etmək olmaz. Onun intellektində yaradıcı başlanğıcın olması da az əhəmiyyətli deyil. Çox istedadlı uşaqlar öz orijinallıqları, zehni fəaliyyət məhsullarının qeyri-adiliyi, gözlənilməz assosiasiyaları, parlaq metaforaları, cəsur analogiyaları ilə diqqəti cəlb edirlər.

Altıyaşlı Saşa Seleznyovun qeyri-adi yaradıcılıq potensialı buna parlaq nümunə ola bilər.Vaxtilə onun haqqında «Literaturnaya qazeta»nın səhifələrində yazılmışdı.

Əvvəlcə ətraf aləmin dərk olunmasında fikirlərinin obrazlılığı, metaforalarla zəngin olması haqqında misallar gətirək. Saşa 4 yaş 6 aylıqdır. O, xiyarı yeyir və mühakimə aparır: «Qarın üzərində yeriyərkən olduğu kimi xırçıldayır». Yeyib qurtardıqdan sonra: «Keçdik». İki ildən sonra jurnalistin bəzi suallarına onun verdiyi cavablar: «Akrobat? – Ayaqları və əlləri olan

propeller», «Göy qurşağı– yağışın sevinci, təbiətin rəngləri», «Rüşvət – insan onu borc götürməyib». Hər şeydən əvvəl Saşanın təfəkkürünün fəlsəfiliyi, predmet və ya hadisənin əsl məğzini yığcam, aforizm şəklində ifadə etmək bacarığı insanı heyrətə gətirir, məsələn, «Hava– təbiətin impulsudur», «Faciə»– düzəldilməsi mümkün olmayan şey», «Vicdan – bu, insanın özünü və əməllərini dərk etməsidir», «Əbədiyyət – susmayan gələcəkdir», «Pislik – yaramaz insanın əməlləridir». Belə sualları cavablandırmaq və öz növbəsində həmin sualları böyüklərə vermək Saşanın sevimli məşğələsi oldu. O, bunu «filosofluq etmək» adlandırırdı. Filosofların kim olduğunu soruşanda, o, fikirləşmədən cavab verdi: «Problemləri genişləndirənlər».

Təəsüf ki, Saşaya həsr olunmuş əhatəli və müxtəliftərəfli materialda (Jurnalistin oçerki ilə yanaşı görkəmli psixoloqların rəyləri də dərc olunmuşdu.) onun haqqında heç bir məlumat dərc olunmur, ancaq Saşanın cavablarını istedadlı uşaqların verbal testlərdə verdikləri cavablarla müqayisə edərkən aydın olur ki, onun verbal intellektinin göstəricisi 160 baldan aşağı deyil.

Əqli istedadlılığın yaradıcı komponentinin ölçülməsi bu fenomenin tədqiqində ən çətin problemlərdən biridir. Məsələ bundadır ki, kreativliyi (yaradıcılıq) adi qayda ilə – individual nəticənin uyğun yaş norması ilə müqayisə etmək mümkün deyil. Axı yaradıcılıq prosesinin məğzi, adilik çərçivəsindən kənara çıxmağı nəzərdə tutması, bir yox, hər biri «doğru» sayılan çoxsaylı cavabların meydana çıxması – bütün bunlar hər hansı bir normanın yaranmasını istisna edir. Ənənəvi İK (intellektual koeffisent) testlərində praktik yaradıcı tapşırıqlar olmur və buna görə də uşağın intellektual dairəsinin hərtərəfli, kifayət qədər tam xarakteristikasını verə bilmir.

Alimlər yaradıcı istedadın diaqnostikası üçün xüsusi testlər hazırlamışlar. Bunlara aşağıdakılar aiddir:

**«Söz assosiasiyaları».** Burada omonim sözlərin biliyi və istifadəsi yoxlanılır. Qiymət həm düzgün, həm də az işlənmiş mənaların ümumi miqdarına görə verilir.

**«Əşyalardan istifadə».** Kərpic, boş konserv qutusu, qəzet və s. əşyaların daha çox və müxtəlif istifadə yollarını saymaq lazımdır.

**«Nağılların sonluğu».** Kulminasiya nöqtəsindən sonra fabulası (məzmunu) kəsilən bir-neçə nağıla üç müxtəlif sonluq fikirləşmək tələb olunur.

**«Riyazi məsələlərin qurulması».** Verilmiş nəticələrdən istifadə edərək riyazi məsələlər qurmaq. Hər bir nəticə üçün mümkün qədər daha çox variant tərtib etmək tələb olunur.

**Ümumi əqli istedadlılıq və dərketmə meylləri.** Əqli cəhətdən istedadlı uşaqların fərqləndirici xüsusiyyətlərindən biri də onların ekspressiv fəaliyyətlərinin çox yüksək səviyyəsi, yəni indiyə qədər qəbul olunmuş və işlənmiş informasiya xaricində ifadələrin verilməsidir. İstedadlı uşaqlar müəyyən sahələrdə əldə etdikləri biliklərdən çoxunu dərhal, yeni, dəyişilmiş, öz fərdi təcrübələrinə uyğun formada ifadə etməyə çalışırlar. Bu zaman onların davranışı seçici xarakter daşıyır və müəyyən meyilliliklərə tabe olurlar. Bu, vaxtilə

pedaqoq P.F.Kapterev tərəfindən qeyd olunmuşdu. O, yazırdı: «...uşaqlar var ki, onlarda açıq-aydın təbiətin müşahidəsi və öyrənilməsinə daha çox meyil hiss olunur – həşəratları, bitkiləri, heyvanları, ulduzları müşahidə və s. Uşaqlar var ki, hesablama və riyaziyyata, dilləri öyrənməyə meyli, başqalarına mərhəmət, hərəkətlərin möhkəmliyi və dözümlülüyü ilə fərqlənirlər».

P.F.Kapterev dahi elm, incəsənət xadimlərinin yetişdirilməsində, tərbiyə olunmasında məktəbin rolu barədə belə yazırdı: « Məktəb öz təlimi ilə ancaq o halda daha dərin təsir göstərəcəkdir ki, o, şagirdlərin anadangəlmə, təbii bacarıqlarına, zövqlərinə uyğun olacaq və onlara sevimli fənlərlə məşğul olmaqda geniş azadlıqlar verəcəkdir».

Müasir dövrdə istedadlı uşaqların təlim-tərbiyəsinə marağın artması ilə əlaqədar harmonik inkişaf problemi xüsusi aktuallıq kəsb edir. Bu mənada məktəbəqədər tərbiyə müəssisələri və məktəbin qarşısında böyük vəzifələr durur. İstedadlı uşaqların gələcəyi bu vəzifələrin nə dərəcədə düzgün yerinə yetirilməsindən asılıdır.

**ədəbiyyat**


1. Əlizadə Ə. İstedadlı uşaqlar. Psixo-pedaqogika məsələləri. Bakı: ADPU, 2005
2. П.Ф.Каптерев. Избранные педагогические сочинения. Москва, 1982
3. Qədirov Ə.Uşaqlarda idrak proseslərinin inkişafı. Bakı: «Maarif», 1969
4. Bəylərov E.İstedadın psixoloji diaqnostikası (Metodik vəsait). Bakı: «Aspoliqraf», 2008


**Внимание : талантливые дети!**

**резюме**


В статье представлено научно-методическое обоснование определения таланта у детей дошкольного возраста. Описывается целенаправленная работа ученых в этой области, приводится примеры. Указывается на то, что ученые разработали тесты для диагностирования таланта.

Объясняется типы таланта, и термины *общая умственная талантливость, умственный возраст, хронологический возраст, коэффицент интеллекта.*


**Attention: talented kids!**

**summary**


The article presents the scientific and methodological rationale for determining the talent in children of preschool age. Describes the purposeful work of scientists in this field, given examples. It is pointed out that scientists have developed tests for the diagnosis of talent.

Explains types of talent, and terms common mental talent, mental age, chronological age, the odds of intelligence


## DAHİLƏRİN DEYİMLƏRİ:

*İş başına keçib, öhdəsinə düşən vəzifəni ədalətlə yerinə yetirməyən adamı Allah üzü üstə cəhənnəmə atar.*

***MƏHƏMMƏD PEYĞƏMBƏR (s.ə.s.)***

*Ən böyük sərvət təmiz vicdandır.*

***NƏRİMAN NƏRİMANOV***

*Bütün ömrüm boyu yalnız işləməyi sevən və bacaran adamları qəhrəman gördüm.*

***MAKSİM QORKİ***

# İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ QEYDİYYATIN APARILMASI YOLLARI

**Vəfa Cəfərova,**
Gəncə ŞTİ metodik mərkəzinin metodisti,
22 nömrəli orta məktəbin müəllimi



**açar sözlər:** şagird nailiyyətləri, monitorinq, formativ qiymətləndirmə, qiymətləndirmə vərəqələri, anketlər, oxy-yazı üzrə müşahidə blankı , dinləmə üzrə yoxlama blankı, nitq bacarıqlarının qiymətləndirilməsi blankı

**ключевые слова:** ученические достижения, мониторинг, формативное оценивание, бланки для оценивания, анкеты, бланки для наблюдения чтения и письма, бланки проверки по прослушиванию, бланки оценивания для проверки умения говорения

**key words:** student achievement, monitoring, formma tive assessment, evaluation forms for, forms, forms for the observed de of reading and writing, forms, check the surveillance, evaluation forms to test speaking skills

Şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir, alternativ metod, vasitə və mənbələrdən istifadə imkanları götür-qoy edilir, müəyyən qərarlar verilir.

Ayrı-ayrı mövzu və ya bölmələrin mənimsənilməsi ilə bağlı məlumat toplamaq məqsədilə gündəlik dərs prosrsində formativ qiymətləndirmə həyata keçirilir. Təlim prosesində şagirdin fəaliyyətini izləmək üçün müntəzəm monitorinq aparılır. İngilis alimi Teodor Sayzer demişdir: “Qiymətləndirmə və qeydəalma olduqca vacib məsələdir . Məqsəd elə bir sistem yaratmaqdır ki, bizim qayğısına qaldığımız və xeyirxah hisslər aşılamaq istədiyimiz uşaqlar bu bacarıqlara yiyələnə bilsinlər, eyni zamanda tədris prosesinə də ziyan dəyməsin”. Onun bu dəyərli fikrinə əsaslanaraq demək olar ki, ibtidai siniflərdə gündəlik və müntəzəm müşahidə qiymətləndirmənin effektiv bir vasitəsidir. Qiymətləndirmənin başlıca məqsədi uşaqlardakı irəliləyişi izləmək, hər bir uşağın müvəffəqiyyət əldə edəcəyinə əmin olmaqdır. Qiymətləndirmə zamanı bir çox amillər diqqət mərkəzində olmalıdır:

1. Şagird düşünməyə daha çox meyilli olur, öz təhsilinə nəzarət edir.
2. Müəllim köməyə ehtiyacı olan şagirdləri müəyyənləşdirir.
3. Şagirdlər üçün əlverişli tədris şəraiti yaradılır.
4. Qiymətləndirmə şagirdlər və valideynlərə başa salınır.

Mən öz şagirdlərimin təlim müvəffəqiyyətlərini və inkişafını müşahidə edirəm. Müşahidə zamanı aşkar olunan müsbət irəliləyişləri şagirdlərlə birlikdə müzakirə edir və fikir mübadiləsi aparıram. Bu zaman şagirdlər də öz nailiyyətlərini görür və qiymətləndirirlər. Sinfin təlimdə irəliləyişi və şagirdlərin əl işlərinin nü-

munələri ilə tanışlıq məqsədilə müdiriyyəti, valideynləri tez-tez sinfə dəvət edirəm.

Müşahidə zamanı şagirdlər haqqında ətraflı məlumat toplanılır. Müşahidə bəzən qiymətləndirmə üçün sırf məlumat xarakteri daşıyır və çox vaxt sənədləşdirilmir. Digər hallarda müşahidə konkret bir məqsədlə, məsələn, uşağın fikir və vərdişlərindəki hansısa bir xüsusiyyəti aşkar etmək məqsədilə aparılır. Bu müşahidələr hər bir şagird haqqında dəqiq təsəvvür yaradır. Belə fərdi müşahidələr 5-15 dəqiqə davam edir və gündəlik müşahidə dəftərində qeyd olunur.

Ədalətli qiymətləndirmə üçün qarşıya aydın məqsəd qoyulur. Effektiv nəticələr əldə etmək üçün müşahidələr mühtəzəm, obyektiv və dəqiq aparılmalıdır. Müşahidə işində bəzi göstəricilər müəllimə yardımçı olur:

- uşağın nə ilə məşğul olmasını diqqətlə izləmək;
- müşahidələri yubanmadan qeydə alıram;
- uşağı müxtəlif şəraitlərdə müşahidə etmək;
- qeydlər apararkən obyektiv olmaq;
- müşahidə vaxtı diqqəti kohkret bir uşağa yönəltmək;
- müşahidə aparıldığını hiss etdirməmək;
- qeydəalma prosesini sadələşdirmək.

Yuxarıda sadalanan göstəricilərdən əlavə müşahidə vasitələri də mövcuddur ki, onlardan da səmərəli istifadə etmək lazımdır :

- qısa qeydlər;
- qiymətləndirmə vərəqələri ( siyahılar);
- anketlər;
- audioyazılar;
- fotoşəkillər.

Hesab edirəm ki, qısa qeydlər müşahidə edilən fəaliyyətin obyektiv təsviridir. Uşağın danışdıqlarının birbaşa qeyd olunması onun əsas xüsusiyyətlərini üzə çıxarmağa və inkişafı haqqında qərar verməyə kömək edir.

Qısa qeydlər üçün tərtib olunan müşahidə vərəqi bu formada ola bilər:

**oxu-yazı üzrə müşahidə blankı**

| | | |
|---|---|---|
| Adı:<br>Tarix:<br>Fənn:<br>Qeyd : | Adı:<br>Tarix:<br>Fənn:<br>Qeyd : | Adı:<br>Tarix:<br>Fənn:<br>Qeyd : |
| Adı:<br>Tarix:<br>Fənn:<br>Qeyd : | Adı:<br>Tarix:<br>Fənn:<br>Qeyd : | Adı:<br>Tarix:<br>Fənn:<br>Qeyd : |

1.Hər xanaya bir şagirdin adı yazılır.

2. Həftənin və ya müşahidə müddətinin axırında bu xanaları kəsib, şagirdlərin həftəlik qeydiyyat dəftərinə yapışdırıram.

**fərdi oxu haqqında qeydlər**

| şagirdin soyadı, adı ________________ | | | |
|---|---|---|---|
| tarix | müəllifin adı | kitabın adı | rəy |
| | | | |
| | | | |

**yoxlama vərəqələri və anketlər**

Yoxlama vərəqələri və anketlər hazırlamaq çətin deyil. Onlar şagirdin inkişaf prosesini izləmək üçün faydalı vasitədir. Adətən, bu cür vərəq və anketlər biliyin nə dərəcədə mənimsənildiyini göstərir. Bu anketlər müşahıdə prosesindən əvvəl paylanılır və şagirdlərin fəaliyyətlərini qiymətləndirmək, onların hər bir inkişaf sahəsi üzrə nələri bacardıqları və nələri hələ bacarmadıqları haqqında məlumat əldə edilməsində faydalıdır.

**dinləmə üzrə yoxlama vərəqi**

| şagirdin adı, soyadı:<br>tarix: | | |
|---|---|---|
| **meyarlar** | **həmişə** | **bəzən** |
| Danışanın gözünə baxır. | | |
| Deyilənləri maraqla dinləyir. | | |
| Diqqətini sabit saxlayır. | | |
| Danışana tərəf çevrilmiş vəziyyətdə əyləşir. | | |
| Təkbətək mühakimələrə, sinif müzakirələrinə diqqət yetirə bilir. | | |

Qiymətləndirmə və fərdi müdaxilə də müşahidə metodlarından biridir. Bunlar sadə və az vaxt aparan vasitələrdir. Bu metodlar davranışın özünəməxsusluğunun müəyyən olunmasına, şagirdin irəliləyişlərinin qiymətləndirilməsinə kömək edir. İnkişaf üzrə qiymətləndirmədə şagirdlərin materialları hansı ardıcıllıqla öyrənmələrinin araşdırılması müşahidələrdən əvvəl aparılır. Bu, uşaqlara fəaliyyətlərini faydalı şəkildə qurmaqda kömək edir.

Bir ay ərzində aparılan müşahidələr "Nitq bacarıqlarını qiymətləndirmə" cədvəlində qeyd olunur.

**nitq bacarıqlarının qiymətləndirilməsi**

| şagirdin adı və soyadı : | | | | | |
|---|---|---|---|---|---|
| | **dinləmə** | **danışma** | **oxu** | **yazı** | **dil qaydaları** |
| **Yüksək səviyyədədir.** | | | | | |
| **İnkişaf edir.** | | | | | |
| **Aşağı səviyyədədir.** | | | | | |
| **Qeydlər** | | | | | |

**fotoşəkillər və audioyazılar**

Fotoşəkillər və audioyazılar uşaqların fəaliyyətinin konkret məqamlarını tutmağa xidmət edən metodlardır.

Bu metodlar şagirdin bilik səviyyəsi haqqında məlumatlı olmaqla onun qiymətləndirilməsində obyektivliyi təmin edir.


**ədəbiyyat**

1. Azərbaycan Respubliasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. «Azərbaycan müəllimi», 6 fevral, 2009
2. Mehrabov A., Cavadov S. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı : «Mütərcim», 2007
3. Болотов В.А. Системы оценки качества образования. Москва: «Лодос», 2007
4. Иванкова Е.В. Педагогическое оценивание в вариативном развивающем начальном образовании. Ростов на Дону : РГПУ, 2006



**Регистрация оценивания знаний учащихся в начальных классах**

**резюме**

В статье рассказывается о способах ведения реестра оценки знаний учащихся в начальных школах. Для этого используются листочки для инспектирования, анкеты, фотографии и аудиозаписи.



**Registration of student assessment in primary schools**

**summary**

This article shows you how to register keeping student assessment in primary schools. For this purpose, leaves for the inspection, surveys, photos and audio recordings.


# KİÇİKYAŞLI MƏKTƏBLİ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASI ÖZÜNÜTƏSDİQİN ƏSAS ŞƏRTİ KİMİ


**Xalidə Talıbova,**

pedaqogika üzrə fəlsəfə doktoru





**açar sözlər:** kiçikyaşlı məktəbli, şəxsiyyət, özünütəsdiq, müəllim, valideyn, tərbiyə

**ключевые слова:** малолетний школьник, личность, самореализация, утверждение, учитель, родитель, воспитание

**key words:** young schoolboy, identity, say, a teacher, parent, parenting


Cəmiyyətin həyatında baş verən dəyişikliklər, qloballaşma, sosial yeniləşmə, demokratikləşmə, inkişaf etmiş dünya dövlətlərinə inteqrasiya, milli özünüdərk, mənəvi dəyərlərin mənimsənilməsi və s. proseslər bir tərəfdən insanın düşüncə və davranış tərzində yeniləşməni, ənənəvi stereotiplərin dəyişməsini zəruri edirsə, digər tərəfdən də dəyişikliklərin elmi şəkildə

öyrənilməsini vacib şərt kimi qarşıya qoyur.

Özünütəsdiq – insanın öz həyat fəaliyyəti və şəxsiyyəti barədə biliklərinin dərk olunması və toplanması prosesidir. Özünütəsdiq insanın ətraf mühiti dərk etməsi prosesinə daxil olub, dünya ilə münasibətlərin yaranmasının mühüm şərtidir. İnsanın inkişaf prosesində özünü dərk etməsi öz fəaliyyətinin müstəqil təşkilinin, davranışın, özünütənzimləmənin, öz nailiyyətlərinin və şəxsi keyfiyyətlərinin adekvat qiymətləndirilməsinin, insanlarla münasibətlərin qurulmasının, peşəkar və şəxsi özünütəsdiqin şərti kimi çıxış edir.

Psixologiyada özünütəsdiq şüur prosesinin ilkin mərhələsi kimi qəbul olunmaqla, çoxsəviyyəli quruluşa malikdir. Birinci, əsas və yeniyetmə yaşına qədər uşaqlar üçün özünütəsdiq özünü digər insanlarla müqayisə vasitəsilə həyata keçirilir.

İkinci mərhələdə özü haqqında biliklərin əldə olunması özünütəhlil və özünüdərk yolu ilə həyata keçirilir ki, bunun üçün artıq zəruri zəminlər yetişmiş olur.Özünütəsdiq prosesinin məzmunu da əhəmiyyətli dərəcədə çətinləşir. Öz mənbəyi kimi ünsiyyətə və fəaliyyətə malik olan özünütəsdiq prosesi sadə özünüqəbuletmədən şəxsi davranışın və fəaliyyətin qiymətləndirilməsinə qədər inkişaf edir.

Hazırda özünütəsdiqin məzmununun hansı səviyyələrdə təzahür etməsi barədə xüsusi tədqiqatlar yoxdur. Fikrimizcə, keyfiyyət xarakteristikalarının tədqiqi barədə məsələ mühümdür və onların inkişafı özünütəsdiqin dinamikasını əks etdirir.

Özünütəsdiqin daha bir mühüm xarakterik xüsusiyyəti öz daxili aləminin, imkanlarının tənqidi dərk olunması bacarığıdır. Kiçikyaşlı məktəblilərin təhsil fəaliyyətində uğursuzluqlarının təhlili müəllimlərin, valideynlərin və həmyaşıdların xarici qiymətləndirməsinin təsiri altında baş verir, lakin bu heç də həmişə özünü tənqidi cəhətdən təhlil etmək bacarığını formalaşdırmır.

Kiçikyaşlı məktəblilərin inşalarının təhlili göstərmişdir ki, II sinifdə şagirdlərin mühakimələrində obyekt-hadisə tipi üstünlük təşkil edir. Subyekt-perspektiv tip vasitəsilə özünü təqdimetmə III sinif şagirdlərinə xasdır. III sinifdə özünüdərketmənin obyekt-hadisə tipinin xas olduğu uşaqların sayı azalır, subyekt-perspektiv tipə məxsus uşaqların sayının isə artması müşahidə olunur.

Subyekt-refleksiv tipli inşaların sayı da II və III siniflərdə azdır. Bu, kiçikyaşlı məktəblilərdə özünüdərketmənin inkişafının yaş xüsusiyyətlərini əks etdirir. Öz həyat fəaliyyətinin və şəxsiyyətinin xüsusiyyətlərinin məzmunlu refleksiyası bu yaş üçün xas deyil.

Diaqnostik tədqiqatın nəticələri kiçikyaşlı məktəblilərin özünütəsdiq prosesinin inkişafı və formalaşmasının səciyyəvi istiqamətlərini müəyyən etmək imkanını verdi. Fikrimizcə, müəyyən şəraitdə özünütəsdiqin yaş inkişaf tendensiyalarının güclənməsi, onun perspektivlik və refleksivlik kimi mühüm xarakteristikalarının formalaşması mümkündür.

Kiçikyaşlı məktəblilərdə özünütəsdiqin inkişafı və formalaşması probleminə yanaşmaların təhlili aşağıdakı məsələlərin qarşıya qoyulmasına imkan yaratdı:

– özünə, öz daxili dünyasına, gələcəyinə maraq oyatmaq, özünütəsdiq prosesinə marağa və istəyə sövq etmək;

– şagirdlərə özlərində şəxsiyyətin xüsusiyyətlərini aşkarlamağa və qeyd etməyə yardım göstərmək;

– öz həyat yolunun, şəxsi inkişafının perspektivlərini görmək qabiliyyətini inkişaf etdirmək;

–öz həyat fəaliyyətinin müxtəlif tərəfləri, şəxsiyyətin keyfiyyətləri və xüsusiyyətləri barədə düşünmək bacarığını inkişaf etdirmək.

Mütəxəssislər kiçikyaşlı məktəblilərin daxili inkişaf proseslərinin və xarici şəraitin uyğunluğuna əsaslanan sosial inkişaf şəraitini, məktəb tədrisi və şagirdin mövqeyinin öyrənilməsini bu şəraitin əsas komponenti kimi qeyd edirlər. Bununla əlaqədar alimlərin marağı bu yaşda aparıcı olan şagird fəaliyyətinə cəmlənir. Bəzi alimlər bildirirlər ki, aparıcı fəaliyyət formalaşmaqda olan şəxsiyyətin əhəmiyyətli dəyişikliklərinin baş verdiyi yeganə fəaliyyət növü deyil.

Kiçikyaşlı məktəblilərin sosial inkişaf şəraitinin xüsusiyyəti ondan ibarətdir ki, onların həyatında əhəmiyyətli dərəcədə mühüm bir fiqur meydana çıxır. O, hətta valideynləri də kölgədə qoyur. Bu, müəllimdir. Müəllimin kiçikyaşlı məktəblinin özünüinkişafına təsiri kollektiv fəaliyyətin təşkili yolları, şagirdlərlə ünsiyyət forması, qiymətləndirmə metodları və şəxsiyyətin fəallığının stimullaşdırılması ilə müəyyən olunur.

Kiçikyaşlı məktəblinin imkanlarının dərk olunması refleksiya, formalaşma mərhələsindədir. Bu yaşda şəxsiyyətin özünütəsdiqinin xüsusiyyəti kimi onun intuitiv, diferensiasiya edilməyən axtarış xarakterini qeyd etmək olar. Refleksiya özünütəsdiqin nəticəsi və onun keyfiyyət dəyişikliklərinin şərtidir.

Şəxsiyyət ətraf aləmlə, ətrafdakılarla qarşılıqlı əlaqə prosesində reallaşır. Bu, onun şəxsi keyfiyyətlərində öz əksini tapır.

Qeyd olunan amillər əsasında şəxsiyyətin özünütəsdiq prosesində əldə olunmuş inkişaf göstəriciləri qismində aşağıdakılar müəyyən olunmuşdur: özünüqiymətləndirmə şəxsin özünə münasibətinin ifadəsi kimi; iradlar səviyyəsi – öz imkanlarına münasibət; özünəəminlik, müstəqillik, optimizm, özünənəzarət, fərdin ətraf aləmlə və digər insanlarla münasibətlərini xarakterizə edən xüsusiyyətlər kimi; şəxsiyyətin özünü, istəklərini hiss etməsinin kompleks qiymətləndirilməsi kimi özünüaktuallaşdırma tendensiyası.

Özünütəsdiqləmə səviyyəsinə görə kiçikyaşlı məktəblilər differensiasiya olunmuş birliyi özündə əks etdirir ki, onlar bir qədər yüksəldilmiş özünüqiymətləndirməyə malikdirlər. Bu zaman yüksəldilmiş özünüqiymətləndirməyə malik uşaqların ümumi sayının yüksək akademik bacarıqlara malik olan uşaqların sayı ilə uyğun gəlməsi bu göstəricilər arasında birbaşa əlaqənin mövcudluğunu vurğulamır. Müvəffəqiyyətlərin qiymətləndirilməsində ifadə olunmuş müəllim

qiyməti ibtidai sinfin sonunda kiçikyaşlı məktəblinin özünütəsdiqləməsinin formalaşmasında yeganə və əsas qiymət deyil.

Kiçikyaşlı məktəblinin şəxsiyyət kimi inkişafını xarakterizə edən xüsusiyyətlər bunlardır: özündən razılıq, optimizm, soyuqqanlılıq, özünənəzarət. Ümumiyyətlə, bu yaş dövründə uşaqlar orta inkişaf səviyyəsinə malikdirlər və onların yüksək əhəmiyyətlilik duyğusu böyüklər tərəfindən dəstəklənir. Bu zaman birmənalı demək olmaz ki, əldə edilmiş məlumatlar bu yaş dövrü üçün tipikdir, müəyyən tərbiyə strategiyalarının ideya və prinsipləri üzərində qurulmuş variasiyalılığa məruz qalmamışdır.

Tədqiqatçılar qeyd edirlər ki, kiçikyaşlı məktəblinin özünütəsdiqi üçün şəraitin yaradılması və müvafiq olaraq, onda şəxsiyyəti xarakterizə edən keyfiyyətlərin və cəhətlərin inkişaf etdirilməsində əsas amil müəllimin hansı pedaqoji fəaliyyət metodlarından istifadə etməsidir.

Şəxsiyyətin özünü təsdiq etməsi əlahiddə hal kimi qəbul oluna bilməz. O, özvi olaraq insanın həyat və fəaliyyətinin ümumi məcrasına daxildir və onun hər bir məqamında mövcuddur.

Pedaqoji təcrübədə özünütəsdiq iki variantda təqdim olunmuşdur. Birinci variantda, kiçikyaşlı məktəbli tərbiyəvi təsirin obyekti kimi qəbul olunur və onun özünütəsdiqini aşkara çıxarmaq üçün müəyyən əmək sərf etmək lazımdır. İkinci variantda isə uşaqda gizli formada mövcud olan potensial bacarıqlara istinad edilir. Onları sadəcə inkişaf etdirmək, tərbiyə prosesinin gedişində bunun üçün müəyyən şərait yaratmaq lazımdır.

Obyektiv olaraq şəxsiyyətin özünütəsdiqi istər birinci, istərsə də ikinci variantda mövcuddur, lakin birinci variantda o, ani olaraq təzahür edir, sərt məhdudiyyətlərlə qarşılaşır, uyğunlaşma formalarını qəbul etmək məcburiyyətindədir, tədris-tərbiyə məkanının hüdudlarından kənarda isə azad şəkildə kompensasiya olunur. İkinci variantda o, tərbiyə strategiyasının mahiyyət xarakteristikalarına daxil olur ki, bu da şəxsiyyətin inkişafının müsbət nəticələrini əldə etmək üçün öz inkişafetdirmə mexanizmini aktuallaşdırır.

**ədəbiyyat**

1.Bayramov Ə.S. Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri. Bakı: "Maarif", 1967

2.Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Əsrim meqameylləri. Psixoloji problemlər.II cild. Bakı: ADPU-nun mətbəəsi, 2008

3.Балл Г.А. Понятие адаптации и его значение для психологии личности. "Вопросы психологии", 1989, № 1

4.Вопросы психологии младших школьников. (Отв. ред. И.В.Страхов). Саратов: "СГПИ", 1984

**Формирование личности младшего школьника как основное условие для ее самореализации**

**резюме**

Свойства, которые могут характеризовать младшего школьника как реализующуюся личность: уверенность в себе, оптимизм, невозмутимость, самоконтроль – имеют в целом средний уровень развития. Подтверждается высокая степень зависимости детей в этом возрасте. Более всего, очевидно, от взрослых. Результаты исследования однозначно ука-

зывают, что значимой переменой в создании условий для самореализации младшего школьника и, соответственно, развития у него тех качеств, которые характеризуют в нем личность, является стиль педагогической деятельности учителя начальной школы.

**Education of the individual student as a junior to create conditions for self-actualization**

**summary**

The properties that can characterize the younger student as implements personality: self-confidence, optimism, calmness, self-control - are generally average level of development. Confirmed the high degree of dependence of children at this age. Above all, it is obvious from adults. The results of the study clearly indicate that the significant variable in creating the conditions for self-realization of the younger schoolboy and, accordingly, the development had the qualities that characterize a person in it, is a style of teaching elementary school teacher.

# ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ÜNSİYYƏTİN ROLU

**Təbriz Pirməmmədova,**
AMİ-nin Qazax filialının baş müəllimi



**açar sözlər:** kiçikyaşlı məktəbli, şəxsiyyət, ünsiyyət, müəllim, valideyn

**ключевые слова:** малолетний школьник, личность, самореализация, учитель, родитель, воспитание

**key words:** infant school, identity, communication, teachers, parents

Cəmiyyət insanların dünyasıdır. İnsan bu dünyada doğulur, yaşayır, inkişaf edir, şəxsiyyət kimi formalaşır.Onun vasitəsilə müəyyən bilikləri, dəyərləri, davranış normalarını və s. mənimsəyir. İctimai həyatda insan fəaliyyətin müxtəlif növlərinə qoşulur, ətrafdakılarla qarşılıqlı təsirdə olur və müəyyən sosial mövqe qazanır.

Adətən, insan bütün həyatı boyu öz tələbatlarını ödəmək üçün bir çox fəaliyyət növlərindən istifadə edir, lakin müəyyən yaş dövründə həmin fəaliyyət növlərindən biri digərlərinə nisbətən əsas, aparıcı fəaliyyət növü hesab olunur. Əsas fəaliyyət növü uşağın müəyyən inkişaf mərhələsində onun tələblərini ödəyən, onun psixi proseslərinin və şəxsiyyətinin fərdi psixi xassələrinin inkişafını şərtləndirir. Uşağın əsas fəaliyyət növünün dəyişməsi onun yeni yaş mərhələsinə keçdiyini göstərir.

D.B.Elkoninə görə, uşaq anadan olandan 17 yaşa qədər ardıcıl olaraq aşağıdakı əsas fəaliyyət növlərindən istifadə edir və buna müvafiq yaş dövrləri müəyyənləşdirilir:

1) bilavasitə-emosional ünsiyyət;

2) əşyavi-manipulyativ fəaliyyət;
3) rollu oyunlar;
4) təlim fəaliyyəti.

Şəxsiyyətin formalaşmasına fəal təsir göstərən amillərdən biri də ünsiyyətdir. O, psixi inkişafın gedişində üzə çıxsa da, onu bilavasitə şərtləndirir, özünü fəaliyyətin tərkib hissəsi kimi göstərir. Böyüməkdə olan uşağın şəxsiyyətinin formalaşmasında bir çox psixoloji amillər kimi, ünsiyyət tələbatı da aparıcı rola malikdir.Müsbət ünsiyyət mühiti və tərəf-müqabili uşağın fəallığını artırır, onu gümrahlandırır, hisslərini və zövqünü cilalayır. Ünsiyyət tələbatı insanın bütün həyatı boyu keyfiyyətcə dəyişən, dinamik və potensial psixi imkandır.

Körpənin ünsiyyət tələbatı öz başlanğıcını yaşlıların xoş niyyətli, xeyirxah təbəssüm və baxışlarından götürür, sonralar uşağın özünütəsdiqinə, müstəqilliyə, yaxın adamlarla ruhi-mənəvi bağlılığa çevrilir. Ünsiyyət tələbatı insan psixikasının şəxsiyyətyönümlü keyfiyyətidir, onun davamlı və bütöv bir sistem kimi özünü dərketməsi və fərdiyyətinın əsasıdır.

Ünsiyyət mürəkkəb və çoxcəhətli proses olub, kiçikyaşlı məktəblilər arasında əlaqələrin yaranmasında və inkişafında, onların birgə fəaliyyətində, informasiya mübadiləsində, həmçinin optik qavramada mühüm rol oynayır. Bu cəhətdən ünsiyyət strukturunda onun üç başlıca cəhəti: **kommunikativ, interaktiv** və **perseptiv** cəhətləri fərqləndirilir.

Ünsiyyət fəaliyyətinin **kommunikativ** funksiyası bu prosesin subyektləri arasında informasiya mübadiləsinin gedişində üzə çıxır. Onun vasitəsilə kiçikyaşlı məktəblilər bir-birinin məqsədini, niyyətini nəzərə almaqla, fəal subyektlər rolunda çıxış edir, yeni məlumatlar əldə edir və öz biliklərini dəqiqləşdirir, onların zənginləşməsinə nail olurlar. Kommunikativ prosesdə uşaqlar ünsiyyət vasitəsi kimi, başlıca olaraq, danışıq işarələri sistemi, simvollar toplusu olan dildən, nitqdən, həmçinin optik-kinetik işarələr sistemi kimi jest, mimika və pantomimikadan, intonasiya, pauza və gözlə əlaqə sistemindən istifadə edirlər. Dilçilərin fikrincə, hazırda dünyada 5000-dən artıq dil mövcuddur.

Ünsiyyətin **interaktiv** tərəfi bu prosesə qoşulan kiçikyaşlı məktəblilərin ümumi qarşılıqlı fəaliyyət strategiyasının qurulmasına əsaslanır. Psixoloqlar uşaqlar arasında qarşılıqlı təsirin iki başlıca formasını – kooperasiya və konqurentliyi fərqləndirirlər. Bunlardan birincisi kiçikyaşlı məktəblilərin təlim prosesində razılığına, ikincisi isə onlar arasında münaqişəyə əsaslanır.

Ünsiyyətin **perseptiv** tərəfi dedikdə, bir uşaqda başqa uşaq haqqında obrazın formalaşması, onun fiziki və psixoloji xarakteristikası, psixoloji xüsusiyyətləri və davranışı haqqında təsəvvürlərin yaranması başa düşülür. Bir məktəblinin başqasını qavramasının əsas mexanizmi **identifikasiya** (bənzətmə) və **refleksiyadır** (subyektin özünün başqaları tərəfindən necə qavranıldığını dərk etməsi).

Ünsiyyət vasitəsilə kiçikyaşlı məktəblilər arasındakı əlaqələr hər bir fərdin mövcudluğunun zəruri şərtidir. Psixoloqlar fərdlər arasında ünsiyyətin üç əsas səviyyəsini fərqləndirirlər:

1.Birinci səviyyədə **(mikrosəviyyə)** ünsiyyət şəxsiyyətin həyat tərzinin mühüm cəhəti kimi özünü göstərir. Burada onun hansı adamlarla əlaqə qurması, əsas fəaliyyəti, formalaşmış ünsiyyət üslubu və digər parametrlər aşkar şəkildə üzə çıxır. Bütün bunlar ictimai münasibətlərlə, şəxsiyyətin həyatının sosial şərtləri ilə sıx bağlı olur. Bu səviyyədə şəxsiyyət müəyyən etiket qaydalarını, ənənələri, başqa adamlarla, sinif yoldaşları ilə ünsiyyət normalarını nəzərə almalı olur.

2.İkinci səviyyədə **(mezasəviyyə)** şəxsiyyət sinif yoldaşları və ətrafdakılar ilə müəyyən mövzu ətrafında əlaqələr yaradır. Bu səviyyədə ünsiyyət bir adamın başqa bir adamla və qrupla ünsiyyəti şəklində qurulur. Bu ünsiyyət ya bir görüş ərzində başa çatır, ya da saatlarla, günlərlə davam edir.

3.Üçüncü səviyyədə **(makrosəviyyə)** ünsiyyət sadə vahidlər vasitəsilə (sual-cavab, əl sıxma, mnemik hərəkət və baxışlar, cavab və s.) həyata keçirilir.

İnsanın ünsiyyət fəaliyyətinə, xüsusilə, sosial ünsiyyət normalarına yiyələnməsi mürəkkəb, çoxcəhətli, uzunmüddətli prosesdir. Yeni doğulan körpə potensial şəxsiyyət imkanlarına malikdir. Həyatın ilk aylarından başlayaraq özünün ən yaxın sosial əhatəsinə bağlılığı , məhdud səviyyədə də olsa, onun emosional ünsiyyət imkanları ilə reallaşmağa başlayır.

Məktəb həyatına daxil olmaqla şəxsiyyətlərarası münasibət və əlaqələr, sosial status, stereotiplər dəyişir. Bu da psixikada, təsisatlarda dəyişikliklərə səbəb olur. Yeni şəraitə necə adaptasiya olunmalarından asılı olaraq, şagirdlər təlimdə ya müvəffəqiyyət qazanır, ya da əksinə, uğursuzluğa düçar olurlar.

Yeni şəraitə, təlim fəaliyyətinə adaptasiya olunmaq üçün kiçikyaşlı məktəblilər bir sıra çətinlikləri dəf etməli olurlar:

–məktəb həyatına uyğunlaşmaq üçün məktəbin norma, ənənə və qaydalarını mənimsəmək;

–intizam qaydalarına əməl etmək, təlimə məsuliyyətlə yanaşmaq;

–yoldaşları ilə münasibətdə onların maraq və meyillərini nəzərə almaq.

–yoldaşları və müəllimlə ünsiyyəti , birgə fəaliyyəti mənimsəmək;

–kollektivin ümumi maraq və fəaliyyətini özününkülərlə uzlaşdırmaq və s.

Kiçikyaşlı məktəblilər bir-biri ilə ünsiyyət prosesində gördüklərini subyektiv fikirlərini, planlarını danışırlar. Bu yaş dövründə məktəbəqədər yaşlı uşaqlardan fərqli olaraq hərəkət və əşyavi fəaliyyət deyil, «təmiz ünsiyyət» ön plana keçir. Eyni zamanda kiçikyaşlı məktəblilər qarşı tərəfin əhvalını, arzu və istəyini də nəzərə almağı bacarırlar. Məhz kiçik məktəb yaşı dövründə şüurlu, davamlı seçim etmək qabiliyyəti özünü göstərir. Bu isə şagirdlərə yoldaş, dost seçmək imkanı verir.

Məlum olduğu kimi, I sinifdə tam formalaşmış kollektivdən danışmaq mümkün deyil. Onlar yenicə tanış olur, bir-birini öyrənməyə, dərk etməyə çalışırlar. Psixoloji tədqiqatlar göstərir ki, əks tərəf haqqında ilkin təəssüratın yaranması həm obyektdən, həm də onu müşahidə edən subyektin psi-

xoloji xüsusiyyətlərindən asılıdır. İlk təəssürat ünsiyyətin başlandığı vəziyyətdən, verbal və qeyri-verbal ünsiyyətin başvermə səbəblərindən də asılıdır.

Kiçikyaşlı məktəblilərin bir-birini qavramaları digər adamların onlar haqqında söylədikləri fikirlərə əsasən formalaşır. Onlar əks tərəf haqqında konkret vəziyyətdən asılı olaraq fikir bildirir, mühakimə yürüdür, daha çox böyüklərin münasibətinə uyğun davranış nümayiş etdirirlər. Tanış olmayan insanlarla ünsiyyət tələbatı kiçikyaşlı məktəblilərdə xarici amillərin təsiri ilə baş verir. Ünsiyyətin məzmunu da xarici təsirlər nəticəsində təzahür edir. Bu yaş dövründə tanış olmayan şəxsin obrazı fəaliyyət növündən asılı olaraq formalaşır.

Müəllim-şagird arasındakı sosial ünsiyyət bilavasitə iki tərəfin qarşılıqlı münasibətidir. Bu mürəkkəb və çoxcəhətli proses sosial təsir vasitəsi olub, psixika ilə birbaşa əlaqədardır, yəni müəllim və şagird arasında olan mexaniki qarşılıqlı münasibət deyil, çünki eyni müəllimin eyni davranışı müxtəlif şagirdlər tərəfindən fərqli şəkildə qavranıla bilər. Bu, eyni zamanda şagirdlərin eyni davranışına müəllimin fərqli reaksiya verməsində də özünü təzahür etdirir. Belə görünür ki, müəllim-şagird münasibətləri heç də həmişə həqiqəti əks etdirmir. Şəxsiyyətlərarası münasibətlər çoxtərəfli və çoxistiqamətli olduğundan, o yalnız tərəflərin davranışı deyil, həm də daxili motivləri baxımından öyrənilməlidir.

Pedaqoji fəaliyyət təlim-tərbiyə işinin forma və məzmununu müəyyənləşdirib, həyata keçirməkdən başlamış, gündəlik çoxsaylı, vəziyyətdən asılı olaraq dəyişən problemləri də əhatə edir. Bu fəaliyyət bir tərəfdən təlim-tərbiyə ilə, digər tərəfdən müəllimin şagirdlərlə ünsiyyəti, münasibəti ilə bağlıdır.

Kiçikyaşlı məktəblinin psixi inkişafında, kollektivin həyatına qoşulmasında başlıca yeri əsas fəaliyyət forması olan təlim fəaliyyəti tutur. Buna görə də kiçikyaşlı məktəblinin təlim fəaliyyəti və qarşılıqlı münasibəti, ünsiyyətinin vəhdətdə araşdırılması mühüm əhəmiyyət kəsb edir. Kiçikyaşlı məktəblinin özünə və başqalarına münasibəti oyun, əmək və təlim fəaliyyəti prosesində formalaşır. Tərbiyə etmək, ilk növbədə, şagirdin müxtəlif fəaliyyət növlərinə cəlb olunması deməkdir.

Deməli, şagird təlim tapşırıqlarını yerinə yetirərkən konkret vəziyyətə deyil, onun ümumi həlli yollarına istinad etməlidir. Şagirdin nəzəri təfəkkürü inkişaf etdikcə o, daha çox problemin kollektiv həllinə üstünlük verir. Təcrübə göstərir ki, təlim prosesində şagirdlərin diskussiya aparmaları, polemikaya girmələri onların ünsiyyət mədəniyyətini yüksəldir. Təlim prosesində dialoq, diskussiya sinifdə polemikanı gücləndirir, dramatikliyi artırır ki, bu da psixi inkişafa müsbət təsir göstərir, həm şagirdlər ziddiyyətləri özləri aşkara çıxarır, həm də kollektivlə işləməyi öyrənirlər. Bununla belə, təlim prosesində kiçik məktəb yaşı dövründə şagirdlərin diskussiyaya girmələri, polemika və onun inkişafa təsiri az öyrənilmişdir. Təbii ki, bu proses xaotik, özbaşına cərəyan etməməli, müəllimin rəhbərliyi altında aparılmalıdır.

Müşahidələr göstərir ki, kiçikyaşlı məktəblilərin ünsiyyət çətinliyi bir tərəfdən onlar üçün yaşıdları ilə ünsiyyətin aparıcı şərt olmaması, eləcə də fəaliyyət motivi ilə əlaqədar özünü göstərir. Bu vəziyyətə daha çox aqressiv, əsəbi şagirdlərin davranışında rast gəlmək mümkündür. Bir qrup şagirdlər isə qapalı, qaraqabaq olduqlarından kollektivə uyuşmur, vaxtlarının çoxunu təklikdə keçirməyə çalışırlar.

Şagirdin ünsiyyət çətinliyinin, qarşılıqlı münasibət qura bilməməsinin səbəblərindən biri də onun marağının daha çox hər hansı bir fəaliyyət sahəsinə yönəlməsi ilə bağlı ola bilər. Belə ki, əgər şagird müsbət keyfiyyətlərə malikdirsə, yaşıdları onunla münasibət qurmağa çalışırlar.

**ədəbiyyat**


1.Həmzəyev M.Ə., Əmiraslanova S.F.Ünsiyyətin psixologiyası.Dərs vəsaiti. Bakı: «Nurlan», 2007

2. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı: «Nağıl evi», 2002

3.Quliyev Q. Qarşılıqlı münasibətlərin öyrənilməsinə dair.«Azərbaycan məktəbi», 2002, № 1

4. Mehdizadə Z.M. Uşaq psixologiyası. I hissə. Bakı: APİ-nin mətbəəsi, 1982

5. Rzayev B.İ. Kiçikyaşlı məktəblilərdə özünə inamsızlıq və qorxaqlığın aradan qaldırılması. Bakı: «Poliqrafiya», 1997


**Роль общения в формировании личности**


**резюме**

Общение сложный и многогранный процесс, игравший важную роль в развитии и взаимодействии, обоюдной деятельности, обмене информацией, а также в оптическом восприятии друг друга младших школьников. С этой стороны в структуре общения выделяются три главные отличительные особенности: коммуникативная, интерактивная, перспективная.


**The role of communication in shaping personalit**


**summary**

Communicating complex and multifaceted process, which played an important role in the development and interaction, mutual activities, exchange of information, as well as in the optical perception of each other younger students. On this side of the structure of communication are three main features: communicative, interactive, perspective.

## İŞIQ MƏBƏDİ

**Rafiq Şükürov, Ramiz Orsər. Bakı : «İdeal –print», 2012-cu il, 315 səh.**

2010-cu ildə nəşr olunan bu kitab Azərbaycanın pedaqoji təhsil müəssisələrindən biri olan Şəki Pedaqoji Kollecinin 90 illiyinə həsr olunmuşdur. Kitab öz nəfis və orijinal tərtibatı ilə seçilir. Belə ki, ilk səhifələrdə – I bölmədə ümummilli liderimiz Heydər Əliyevin, Prezident İlham Əliyev cənablarının, H.Əliyev Fondunun prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın şəkilləri və təhsil haqqında fikirləri öz əksini tapır.

II bölmədə XIX əsrdə və XX əsrin əvvəllərində Şəkidə təhsilin vəziyyətindən söhbət gedir, mollaxana, qəza məktəbləri, peşə-sənət məktəbləri, rus-tatar (azərbaycanlı) məktəblərinin iş üsulları təhlil olunur, Şəki xeyriyyəçilərinin və maarifçilərinin fəaliyyəti açıqlanır.

III bölmədə Şəki Pedaqoji Texnikumunun təşkili və inkişafı dövrü işıqlandırılır, texnikumun fəaliyyəti ilə bağlı müxtəlif mətbuat orqanlarında gedən materiallardan sətirlər, təbriklər, elanlar verilir.

Sonrakı bölmələrdə Şəki Pedaqoji Kollecində müxtəlif illəpdə işləyən müəllimlər, direktorlar, kollecin məşhur məzunları haqqında məlumat və onların şəkilləri verilir.

XI bölmə isə kollecdə hazırda fəaliyyət göstərən pedaqoji kollektivə həsr olunmuşdur.

Kitabın sonunda oxuculara Şəki Pedaqoji Kollecinin həyatını əks etdirən maraqlı və rəngarəng foto-salnamə təqdim olunur

## İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYAT FƏNNİNİN TƏDRİSİ METODİKASI MƏSƏLƏLƏRİ (I kitab)

**Almaz Rəcəbova. Bakı: «Mütərcim», 2013-cü il, 203 səh.**

«İbtidai siniflərdə riyaziyyat fənninin tədrisi metodikası məsələləri» kitabının I cildi çapdan çıxmışdır. Kitab iki fəsildən ibarətdir.

I fəsildə müasir ümumtəhsil məktəblərində riyaziyyat təliminin vəzifələri, məqsədləri, məzmunu, psixoloji əsasları və s.məsələlər araşdırılır.Təlim problemlərinə qədim Şərq-Qərb kontekstində baxılıb.

II fəsildə ibtidai siniflərdə riyaziyyatın tədrisinin strategiyası, təlim metodları açıqlanır. Şagirdlərə tam ədəd anlayışı, sadə və mürəkkəb məsələlərin həllinin öyrədilməsi, cədvəlsiz vurma və bölmə yolları tədqiq olunub.

Kitab ibtidai sinif müəllimləri, pedaqoji təmayüllü ali və orta ixtisas məktəblərinin tələbələri üçün nəzərdə tutulmuşdur.

**Məhəbbət Əliyeva,**
*korrektor*

# ŞƏN YOLKA

Sözləri T. Mütəllibovun,
musiqisi A. Rzayevanındır.

Geyinibsən al-əlvan,
Budaqların çıraqban.
Dövrə vurub qız, oğlan
Nəğmə deyir, şən yolka,
Sən nə gözəlsən, yolka!

**Nəqarət:**

Dildə gəzir sorağın,
Bəzənib hər budağın.
Şaxta baba qonağın
Olmuş sənin, şən yolka,
Sən nə gözəlsən, yolka!

Çölü, meşəni bəzə,
Düzləri gəzə-gəzə
Hər il qonaq gəl bizə.
Ürək açan şən yolka,
Sən nə gözəlsən, yolka!

**Nəqarət:**

Dildə gəzir sorağın,
Bəzənib hər budağın.
Şaxta baba qonağın
Olmuş sənin, şən yolka,
Sən nə gözəlsən, yolka!


F-no
Oxumaq.
Ge – yi – nib – sən al – əl – van, bu – daq – la – rın ci – raq – ban.
Döv – rə vu – rub qız, oğ – lan nəğ – mə de – yir
şən yol – ka, sən nə gö – zəl – sən, yol – ka!